www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30-31 yanvar 2016-cı il Şənbə № 22 (6343) Qiymәti 60 qəpik

**Xəbər**

## Akif Çovdarovun daha bir gizli təcridxanası üzə çıxdı

yazısı səh.4-də

**Gündəm**

### Vergilər nazirinin müşavirinin adı müdhiş təhsil maxinasiyasında



Azərbaycan Universiteti ilə bağlı beynəlxalq qalmaqal; tələbələri Corciya Universitetində təhsillə şirnikləndirib aldadan şəbəkə haqda ilginc məlumatlar

yazısı səh.11-də

### Yəhudi lobbisi Konqresdə Azərbaycana dair sanksiya layihəsinə qarşı çalışır

yazısı səh.8-də

### Devalvasiya xofu keçdimi...

yazısı səh.7-də

*Məleykə Abbaszadə:*

### "Gələcəkdə TQDK ləğv oluna bilər"

yazısı səh.2-də

### İki vəkil arasında ciddi qalmaqal

yazısı səh.3-də

### SOCAR-ın 20 milyonluq villalarla bağlı araşdırması bitdi

yazısı səh.5-də

### Qadın sahibkarlara güzəşt ediləcək

yazısı səh.2-də

### Azərbaycanda niyə dedektiv yoxdur?

yazısı səh.12-də

### Masazırda 23 yaşlı oğlan sevgilisini bıçaqladı

yazısı səh.14-də

### Bakıda ana və oğulu çəkiclə vura-vura öldürüblər

yazısı səh.14-də

### Bakıda saxta pulkəsən dəstə tutuldu

yazısı səh.2-də

### "Səba" quşçuluq fabriki yandı

yazısı səh.2-də

### Qatarlara bilet almaq daha da asanlaşdı

yazısı səh.12-də

**Samir Şərifovla Elman Rüstəmovun təxribata bərabər addımları**

# İKİ MƏMUR ÖLKƏNİN PUL DAMARINI NİYƏ DOĞRAYIR - SENSASİON TƏFƏRRÜAT

Maliyyə naziri ilə Mərkəzi Bank rəhbərinin "şok terapiyası" Azərbaycanın bank sistemini çökdürə bilər; böhran o həddə dərinləşir ki, ən iri banklar belə bağlanmaq təhlükəsi ilə üz-üzə qalıb; "Texnikabank"ın lisenziyasının alınması xəbərləri yayıldı...




yazısı səh.9-da

## Hacı Məmmədov 11 ildən sonra həqiqətləri danışa bilər

Ali Məhkəmə qanqsterin işini icraata götürdü; böyük ehtimalla, kassasiya müraciəti DİN-in Baş Cinayət-Axtarış İdarəsinin keçmiş rəisi Zakir Nəsirovla bağlıdır; H.Məmmdov törətdiyi adam oğurluqlarında, qətllərdə gerçək sifarişçilərin adını çəkməyə hazırlaşır

yazısı səh.4-də



*İlham Əliyev:*

### "Gələcək illər innovasiya dövrü olacaq və əsas sözü texnologiyalar deyəcək"

yazısı səh.9-da



*Hikmət Hacızadə:*

### "İnanıram ki, bu yaxınlarda nəsə dəyişəcək"

yazısı səh.6-da



*Vüqar Bayramov:*

### "Bizdə, kafedə və digər müştərilərin əyləşdiyi ümumi salonda şam edən nazir görmüsünüzmü?"

yazısı səh.10-da

# Səlim Müslümovun sözçüsü "NAZ Lifan" məsələsinə aydınlıq gətirdi

**Elman Babayev:** "Nazirlik tərəfindən digər məqsədlər üçün "Naz-LİFAN" markalı minik avtomobili alınmayıb"



**"Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Naxçıvan Avtomobil Zavodu tərəfindən istehsal olunan "Naz-LİFAN" markalı minik avtomobillərinin son 2 il ərzində kütləvi şəkildə istifadəyə yayılması sahəsində mühüm rol oynayan bir qurum olmuşdur və bu proses davam etdiriləcəkdir". Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elman Babayev deyib.**

O bildirib: "Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, müharibə əlillərinin dövlət büdcəsi hesabına minik avtobilləri ilə təminatı üçün məhz Naxçıvan Avtomobil Zavodundan "Naz-LİFAN" markalı minik avtomobilləri alınmışdır.

Dövlət başçısının 23 dekabr 2013-cü il tarixli və 30 aprel 2014-cü il tarixli Sərəncamlarına əsasən, son iki il ərzində Naxçıvan Avtomobil Zavodundan 1933 ədəd "Naz-LİFAN" markalı minik avtomobili alınaraq növbədə dayanan müharibə əlillərinin istifadəsinə verilib. Amma Nazirlik tərəfindən başqa digər məqsədlər üçün "Naz-LİFAN" markalı minik avtomobili alınmayıb".

❑ **M.MAHRIZLI**

# Baş prokuror Xızıda vətəndaşları qəbul edib

**Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması, bu zaman ədalət prinsipinin tam təmin olunması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.**

Bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Zakir Qaralov yanvarın 29-da Xızı rayon Prokurorluğunun inzibati binasında Sumqayıt şəhərindən, Xızı, Abşeron, Qubadlı və Zəngilan rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror və Xızı rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Z.Qaralov bölgədə yaşayan 31 vətəndaşın müraciətində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

# Qadın sahibkarlara güzəşt ediləcək

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sahibkar qadınlara daha aşağı faizli güzəştli kreditlərin verilməsi ilə bağlı Nazirlər Kabinetinə təkliflər paketi təqdim edəcək. Bunu açıqlamasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova deyib.**

H.Hüseynova deyib ki, prezident İlham Əliyevin sahibkarlığın inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrlə əlaqədar Dövlət Komitəsi beynəlxalq təşkilatlarla təkliflər paketi üzərində çalışır: "2015-ci ildə də Dövlət Komitəsi qadınlar arasında sahibkarlığın inkişafı üçün pilot layihələr həyata keçirib. Qadın sahibkarlar tərəfindən müəssisələrin açılmasına dəstək, resurs mərkəzlərinin təşkili, qadınların sahibkarlıq sahəsində maarifləndirilməsi istiqamətində səylər göstərmişik. Nəticədə xüsusilə Sabirabad və Neftçala rayonlarında qadın sahibkarlar tərəfindən bir neçə yaxşı biznes-layihələr həyata keçirildi və bu müəssisələr hazırda fəaliyyət göstərir. Bu il də bu sahədə fəaliyyətimiz daha da genişlənəcək. Hazırda biz qadınlar arasında sahibkarlığın inkişafı ilə əlaqədar bir beynəlxalq təşkilatla təkliflər paketi üzərində çalışırıq. Nazirlər Kabinetinə də müraciət etməyi planlaşdırmışıq. Azərbaycanda İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu var, qadın sahibkarlara daha aşağı faizlə güzəştli kreditlərin ayrılmasını təklif etməyə hazırlaşırıq. Hazırda bu sahədə beynəlxalq təcrübəni daha geniş formatda öyrənirik".

## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;

- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;

- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Türkiyənin Bakıdakı səfiri jurnalistlərlə görüşdü

## İsmayıl Alper Coşkun: "İkitərəfli münasibətlərimizə qəsdən zərər vermək istəyən qüvvələrə imkan verməməliyik"

**Yanvarın 29-da Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri İsmail Alper Coşkun bir qrup jurnalistlə səhər yeməyində bir araya gəldi. Səfirlikdə düzənlənən səhər yeməyi ətrafında maraqlı müzakirələr, o cümlədən Türkiyə-Azərbaycan münasibətləri, hər iki ölkənin maraqları, problemləri, perspektiv əlaqələr müzakirə mövzusu oldu.**



Rus qırıcısının vurulmasından sonra Rusiya-Türkiyə münasibətlərindəki gərginliklərdən, bu münasibətlərə yönəlik şərhlərdən bəhs edən səfir 2012-ci ildə Suriyə ilə sərhəddə Türkiyə təyyarəsinin Rusiya tərəfindən vurulduğunu xatırlatdı və Ankaranın haqlı mövqeyindən bəhs etdi. Həmçinin Azərbaycanda fərqli mövqe sərgiləyənlərlə bağlı gileyini çatdırdı.

İ.A.Coşkun Türkiyənin milyonlarla qaçqına təmənnasız qucaq açdığı halda Danimarkanın verdiyi qərarın heyrətamiz olduğunu vurğuladı.

**Diplomat Qarabağla bağlı ölkəsinin mövqeyini bir daha bəyan etdi:** "Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq və Azəbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmadıqca bölgədə vəziyyət normallaşa bilməz". A.Coşkunun sözlərinə görə, münasibətlərimizə zərər verəcək qüvvələr hər zaman diqqətdə saxlanılmalıdır: "İkitərəfli münasibətlərimizə qəsdən zərər vermək istəyən qüvvələrə imkan verməməliyik".

Səfir AŞPA da Dağlıq Qarabağla bağlı qətnamələrin qəbulu üçün keçirilən səsvermə zamanı bəzi türk deputatların həmin qətnamələrin lehinə səs verməməsinə də toxunub və bunu Türkiyənin "xəyanət"i kimi təqdim edənlərə iradını bildirib. Diplomat qeyd edib ki, deputatların səsvermə məsələsinə mövqe bildirə bilməyəcək.

Səfir Yüksək səviyyəli əməkdaşlıq Şurasının Bakı görüşü ilə bağlı hazırlıqların da davam etdiyini deyib.

Türkiyə və Azərbaycanla bağlı vaxtaşırı ortaya çıxan və ya çıxa biləcək hər hansı suallar, yaxud anlaşılmazlıqların anındaca aradan götürülməsi üçün mətbuatla əlaqələrin intensivləşdirilməsi, qardaş ölkənin səfirliyində vaxtaşırı brifinqlərin təşkil olunması barədə təşəbbüsümüz hörmətli səfir tərəfindən dəstəkləndi. İsmayıl bəy mətbuat katibi Hamid Karadənizə 35-40 gündən bir mətbuat nümayəndələri ilə görüşlər təşkil etməyi yerindəcə tapşırdı.

**Səfir "Yeni Müsavat"ın sualının cavabında dedi ki, Türkiyə iş adamları Azərbaycan prezidentinin xarici sərmayədarlara etdiyi müraciətlərə cavab olaraq Azərbaycana yatırım qoymaq niyyətindədir.**

❑ **Elşad PAŞASOY**
**FOTO: "YM"**

# Azərbaycan ordusunun əsgəri şəhid olub

**Dünən Azərbaycan-Ermənistan sərhədində düşmən təxribatı nəticəsində hərbi qulluqçumuz əsgər Səfərov Nahid Fikrət oğlu şəhid olub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən xəbərə görə, Dağlıq Qarabağa aidiyyəti olmayan bölgədə bu kimi təxribatın törədilməsi üçüncü tərəfin münaqişəyə cəlb edilməsi məqsədi daşıyır: "Narahatlıq doğuran həm də odur ki, hər dəfə beynəlxalq qurumlar yalnız erməni tərəfi itki verdikdə, hadisəyə reaksiya göstərir".

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir: "Bildiririk ki, Silahlı Qüvvələrimiz tərəfindən cavab tədbirləri görüləcək".

# Məleykə Abbaszadə: "Gələcəkdə TQDK ləğv oluna bilər"

**"Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə Təhsil Nazirliyinin birləşməsi Azərbaycan prezidentinin səlahiyyətlərinə aid olan məsələdir".**

APA-nın cənub bürosunun məlumatına görə, bunu Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri Məleykə Abbaszadə deyib.

O, ölkədə struktur islahatlarının aparılmasına diqqət çəkib: "Müəyyən qurumlar birləşə, bəziləri ləğv oluna bilər. Ola bilsin ki, gələcəkdə TQDK da ləğv olunsun, ya da hansısa strukturun tabeliyinə verilsin. Dediyim kimi, bu, yalnız dövlət başçısının səlahiyyətində olan məsələdir".



# Azərbaycanda saxta pulkəsən dəstə tutuldu

**Daxili İşlər Nazirliyi (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları ölkənin maliyyə sisteminə ciddi təhlükə yaradan saxta pulların hazırlanması və dövriyyəyə buraxılmasının qarşısının alınması istiqamətində növbəti uğurlu əməliyyat tədbiri həyata keçirib.**

Musavat.com DİN-ə istinadən xəbər verir ki, Baş İdarəyə Cəlilabad rayon sakini İsmayıl Quliyevin həmyerlisi Əli Abbasov, Ağdam rayon sakini Təbriz Quliyev, Bakı şəhər sakini Xəyal Rəhimov və Abşeron rayon sakini İlahə Bayramova ilə birlikdə mütəşəkkil cinayətkar dəstə yaradaraq saxta pullar hazırlaması və satış ilə məşğul olması barədə əməliyyat məlumatı daxil olub.

Dəstə üzvləri sonuncu dəfə külli miqdarda saxta manatın satışını həyata keçirən zamanı xüsusi əməliyyat nəticəsində cinayət başında yaxalanıblar.

Saxlanılan şəxslərin üzərindən və Bakı şəhərində kirayə qaldıqları mənzildən külli miqdarda - 10 min manatdan artıq saxta pul əskinasları, onların hazırlanması üçün istifadə olunan xüsusi avadanlıqlar və digər maddi sübutlar aşkar olunaraq götürülüb.

Ekspert rəyi ilə müəyyən edilib ki, pul əskinaslarının müdafiə texnikası saxlanılan şəxslər tərəfindən ustalıqla saxtalaşdırılıb.

Dəstə üzvləri bildiriblər ki, saxta pul əskinaslarını paytaxt ərazisində və respublikanın rayonlarında fəaliyyət göstərən ticarət mərkəzlərində, əhalinin sıx olduğu yerlərdə istifadə etmək niyyəti ilə hazırlayıblar.

Qeyd edilən faktla bağlı Baş İdarənin İstintaq Şöbəsində cinayət işi başlanıb.

# "Səba" quşçuluq fabriki yandı

**Abşeron rayonunda "Səba" quşçuluq fabriki yanıb. Musavat.com Fövqəladə Hallar Nazirliyinin saytına istinadən xəbər verir ki, "Səba" quşçuluq fabrikinin ərazisində ümumi sahəsi 2900 kv.m olan sexin yanar konstruksiyaları 2100 kv.m sahədə yanıb. Sexin qalan hissəsi və yaxınlıqdakı tikililər yanğından mühafizə olunub. Yanğın saat 15:00-da yanğınsöndürənlər tərəfindən söndürülüb.**

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası

# QHT Şurası Mətbuat Şurasına və hüquq-mühafizə orqanlarına müraciət edəcək

**Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və Şuranın sədri, millət vəkili Azay Quliyev haqqında xeber.info və arqument.az saytlarında yazı dərc edilib.**

QHT Şurasının mətbuat xidmətindən musavat.coma bildirilib ki, əvvəllər də müxtəlif qərəzli məlumatların yayımlanmasına baxmayaraq, Şura indiyədək bu tipli media orqanlarının hüquqi qaydada cəzalandırılmasının tərəfdarı olmayıb: "Şura hesab edir ki, media, cəmiyyətin müxtəlif məzmunlu zəruri informasiya ilə təminatını həyata keçirən və inkişafa xidmət edən vətəndaş cəmiyyətinin aparıcı institutlarından biridir. Bunu əsas götürərək Şura şəffaflıq və aşkarlıq prinsiplərinə sadiq qalaraq hər zaman yerli və beynəlxalq KİV-lərlə əməkdaşlığa böyük önəm verib.

Ancaq təəssüflər olsun ki, aidiyyatı qurumların və hüquq-mühafizə orqanlarının dəfələrlə xəbərdarlığına baxmayaraq, hələ də qanunazidd əməllərindən əl çəkməyən, jurnalistikanın etik prinsiplərinə məhəl qoymayan, dövlət orqanlarının və ictimai-siyasi xadimlərin işgüzar nüfuzuna kölgə salmağa çalışan yazılı və internet mediası nümunələri də mövcuddur. Onların bu tip qarayaxma fəaliyyətinin davamlı xarakter almasını və şifahi xəbərdarlıqlarımızın nəticə verməməsini əsas götürərək, Şura yuxarıda adı çəkilən saytlar haqqında müvafiq tədbir görülməsi üçün Mətbuat Şurasına və hüquq-mühafizə orqanlarına müraciət etməyi qərara alıb.

Şura bununla yanaşı bütün media təmsilçilərinə müraciət edir və onları mətbuat adına ləkə gətirən, jurnalistikanın ali məqsədlərindən tamamilə uzaq olan, söz və ifadə azadlığından sui-istifadə edərək şər və böhtanı özlərinin həyat tərzinə çevirən "jurnalistlər"in əməllərinə münasibət bildirməyə çağırır".

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 22 (6343) 30 yanvar 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# İki vəkil arasında ciddi qalmaqal

## Elçin Sadıqov: "Mənə qarşı qara kampaniya aparılır"

**Tanınmış vəkil Elçin Sadıqov vəkil həmkarı Adəm Məmmədov tərəfindən qanunsuzluğa məruz qaldığını iddia edir. Musavat.com xəbər verir ki, vəkil bu barədə sosial şəbəkədə yazdığı statusunda detalları açıqlayıb. 10 ildən artıqdır ki, vəkillik təcrübəsi olduğunu yazan E.Sadıqov karyerası boyunca nüfuzlu siyasi xadimlərdən, mülkiyyət və digər haqları pozulan sıravi vətəndaşlardan tutmuş, şübhəli ittihamlarla həbs olunan jurnalistlərə qədər yüzlərlə insanın hüquqlarını müdafiə etdiyini xatırladıb:**

"Bir çoxlarını narahat etmiş olsa da, fəaliyyətimi hər zaman olduğu kimi ləyaqətlə davam etdirməkdəyəm. Bu peşənin nə qədər çətin, diqqət tələb edən olduğunu, vəkilliklə məşğul olan hər kəsin hansı məsuliyyət daşıdığını gözəl anlayıram. Bütün vəkillərə öz işlərində güclü olmalarını, hüquqlarını müdafiə etdikləri şəxslərə yardımçı ola bilmələrini arzulayıram. Ancaq hər bir işdə, peşədə olduğu kimi bu sahədə fəaliyyət göstərən şəxslər də müəyyən prinsiplərə sadiq olmalı, öz fəaliyyətlərini başqalarının uğurlarını qaralamaq, başqalarının hüquqlarını görməzdən gəlmək üzərində qurmamalıdırlar. Təəssüf edirəm ki, vəkil Adəm Məmmədov öz fəaliyyətini vəkil etikası, qanunvericilik ölçüləri, normal insani münasibətləri gözləmək üzərində deyil, cinayətkarı azadlığa çıxarmaq naminə insanlara şər atmaq, qurama, zorla, ələ almaqla izahatlar almaq yolunu tutub. Təəssüflər olsun ki, Adəm Məmmədovun mənə qarşı apardığı qara nüfuz kampaniyasına cavab vermək məcburiyyətində qalmışam".

**Həmkarı ilə arasında yaranmış problemin detallarını açıqlayan E.Sadıqov yazıb ki, A.Məmmədov Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmənin 18 mart 2010-cu il tarixli hökmü ilə dələduzluğa görə 10 il müddətinə məhkum edilmiş, əvvəllər də eyni ittihamla məhkum edilib cəzasını çəkmiş Azad Məmmədovun hüquqlarını müdafiə edir. Həmin hökmü Bakı Apelyasiya Məhkəməsi, ardınca Ali Məhkəmə qüvvədə saxlayıb:** "Həmin cinayət işində 18 (faktiki zərərçəkmiş) şahid, üç zərərçəkmiş şəxs olub. Zərərçəkənlərdən biri mənim anam - Həsənova Sahibə Mahmud qızıdır. Cinayət işi üzrə məhkum edilmiş şəxsin müdafiəsi üçün heç bir əsas olmadığından, hüquqi imkanlar tükəndiyindən vəkil Adəm Məmmədov zərərçəkən anamdan, habelə mənim başqa yaxınlarımdan, psixi xəstə olan imtina etdiyimiz bacımdan, mənim adımdan istifadə etməklə, habelə işə baxmış hakimləri qaralamaqla dələduzluğa görə məhkum edilmiş şəxsin azad edilməsinə çalışır. Vəkil Adəm Məmmədov müxtəlif medialarda mənim adımı hallandırmaqla hüquqlarını müdafiə etdiyi şəxsin işini Ali Məhkəmənin Plenumunun müzakirəsinə çıxarmaq, bu da olmazsa mənə qarşı əsassız şikayətlər təşkil edib adımdan istifadə edərək işi siyasiləşdirməklə cinayətkarın əfv olunmasına nail olmaq istəyir. Bunun üçün davamlı olaraq mediada Azərbaycan kişisinə yaraşmayan üslubda mənim və anamın barəsində təhqir, böhtan məzmunlu ifadələr yayır".

**Vəkilin yazdığına görə, A.Məmmədov hüquqlarını müdafiə etdiyi şəxsin işinə Ali Məhkəmənin Plenumunda baxılması üçün şirnikləndirmə və ya qorxutma yolu ilə iş üzrə zərərçəkmiş şəxslərin yeni izahatlarını toplayır. E.Sadıqov qeyd edib ki, hətta işdə adı keçməyən şəxslərin izahatları ona qarşı istifadə edilmək məqsədilə alınır:** "Onun taktikası bundan ibarətdir ki, cinayətkar Azad Məmmədov heç bir ictimai təhlükəli əmələ yol verməyib, guya onun məhkum edilməsi mənim anamın təşkil etdiyi qurama zərərçəkənlərin onun üzünə durması səbəbindən baş verib. Təəssüf edirəm ki, vəkil Adəm Məmmədov bu işində mənim psixi pozuntuları olan bacımdan pul qarşılığında aldığı izahatdan da istifadə etməyə çalışır. Bildirmək istəyirəm ki, şəxsən mənim sözügedən cinayət işi ilə heç bir bağlılığım yoxdur. Vəkil Adəm Məmmədovun mənə qarşı apardığı kampaniyaya görə tanış olduğum cinayət işi barədə qeyd etmək istərdim ki, bu işdə 18 (faktiki zərərçəkmiş) şahidin, 3 zərərçəkmiş şəxsin adı keçir. Əvvəldə bildirdiyim kimi, anam Azad Məmmədovun dələduzluğuna məruz qalanlardan yalnız biridir. Anam A.Məmmədovun dələduzluğundan 2008-ci ildə şikayətçi olduğu halda digər zərərçəkənlər 2006-cı ildə şikayətçi olublar. Anam digər zərərçəkənləri şikayətçi olduqdan, 2008-ci ildən sonra tanıyıb".

**E.Sadıqovun sözlərinə görə, vəkil Adəm Məmmədov tərəfindən çirkin kampaniyaya məruz qalması hüququ vasitələrlə özünü qara hücumlardan qorumaq məcburiyyəti qarşısında qoyub**: "Bu səbəbdən vəkil Adəm Məmmədovun müdafiə etdiyi cinayətkarı həbsxanadan qurtarmaq, məni ləkələmək naminə heç bir etik, hüquqi və mənəvi ölçülərə sığmayan əsassız şikayətlərinə və kampaniyasına lazımi cavabı vermək qərarındayam. Bildirirəm ki, bu ən əsası müdafiə etdiyim işlərə görə vəkil Adəm Məmmədovdan istifadə edilən təqib kampaniyasıdır. Artıq bəhs etdiklərimlə bağlı rəsmi qurumlara, Vəkillər Kollegiyasına, məhkəməyə müraciət etmiş, dürüstlüyümü təsdiqləyən sübutları həmin qurumlara təqdim etmişəm. İnanıram ki, müraciət etdiyim qurumlar gərəkli addımları atacaq, o cümlədən Vəkillər Kollegiyası heç bir etik normaya, vəkilliklə bağlı qanunvericiliyin müddəalarına sığmayan davranışlarına görə Adəm Məmmədov barəsində zəruri tədbirlər görəcək".

**"Bu məsələnin mənə heç bir aidiyyəti yoxdur". Bunu isə "Yeni Müsavat"a açıqlamasında A.Məmmədov bildirdi. E.Sadıqovun yazdıqlarını özünə qarşı şər-böhtan hesab etdiyini deyən A.Məmmədov həmkarını məhkəməyə verəcəyini də istisna etmədi:** "Mən bu işlə bağlı heç yerdə heç nə yazmamışam, hər hansı açıqlama verməmişəm. Bu halda məni necə ittiham edə bilər? Ara söhbətlərinə görə mənim adımı bu formada hallandırmağa haqqı varmı? Mənim bu məsələyə aidiyyətim yoxdur. Elçin Sadıqovun bacısı gəlib deyir ki, mənim anamın filankəsin itməsində, ölümündə əli var. Onun anasının şəriki olduğu şəxsin atası da deyir ki, mənim oğlumun itməsində, ölməsində Sahibənin - Elçinin anasının əli var. Bunu Xoşqədəm Hidayətqızının verilişində, hələ 6 ay bundan əvvəl deyib. Biz heç o zaman bilmirdik ki, bu qadın Elçin Sadıqovun anasıdır. Bu məsələ ilə bağlı anası öz qızını, ANS-i və Xoşqədəm Hidayətqızını məhkəməyə verib. Prokurorluqda bu ölüm işi ilə bağlı Elçin də, anası da ifadə verib. Hətta bacısı anasının əleyhinə ifadə verib".



Elçin Sadıqov



Adəm Məmmədov

**A.Məmmədov dedi ki, bu işdə hazırda həbsdə olan Azad Məmmədovun vəkilidir. Müsahibimiz E.Sadıqovun ittihamlarının ünvanı olmadığını dedi:** "Bu işdə bir neçə nəfər var. Deməli, bacısı anası əleyhinə ifadə verib. Digəri ifadə verən şəxs isə şərikinin atasıdır. O biri də Azaddır, hazırda həbsdədir. Bunlar hamısı bir-birinə qarşı hansısa hərəkətlər edibsə, öz aralarında problemləri var. Bu problemlər baş verəndə mən heç vəkil işləmirdim".

❑ **Sevinc TELMANQIZI**



# Deputat nazirləri sərt tənqid etdi

## Fəzail İbrahimli: "Dövlət məmurları, nazirlər, komitə sədrləri dövlət telefonuna cavab vermir"

**Yanvarın 29-da parlamentin Regional məsələlər komitəsinin iclası keçirilib. Vətəndaş Həmrəyliyi Partiyasından (VHP) olan deputat Fəzail İbrahimli iclasda məmurları kəskin çıxış edib.**

"Dövlət telefonuna hörmət bərpa olunmalıdır, qaytarılmalıdır. Çünki dövlət telefonunun adı dövlət telefonudur" - deyə, F.İbrahimli bildirib. Deputatın sözlərinə görə, dövlət mobil telefonla idarə oluna bilməz: "Ancaq çox təəssüflər olsun ki, dövlət məmurları, nazirlər, komitə sədrləri dövlət telefonu ilə onlara edilən zənglərə cavab vermirlər. Bəlkə mənim bir şəxsi xahişim var, heç olmasa, dinlə, özün bilərsən, sonra nəzərə alma. Amma mənim arxamda, ümumən hər bir deputatın arxasında 40 min seçici dayanır, onların problemlərini dinləmək və nəzərə almaq lazımdır, məmurların bir nömrəli borcudur ki, insanların problemlərinə həssaslıqla yanaşsınlar. Lakin çox təəssüflər olsun ki, dövlət telefonu ilə zəng edirsən, heç biri cavab vermir, həmin şəxsin yerinə telefonda 8-ci sinifdə oxuyan qızın səsi ilə "aluu" cavabı verilir".

**Gün.az-ın xəbərinə görə, F.İbrahimli məmur özbaşınalığına etiraz edərkən ardınca bildirib:** "Biz onlara zəng edərkən az qala canımız çıxa. Saymamazlıq, hörmətsizlik göstərib cavab vermirlər. Belə olmaz, biz buna susmamalıyıq. Çünki susmaq problemlərin qalmasına və ondan ölkəmizə qarşı istifadə etmək istəyən yad ünsürlərin addımlarına razılıq əlaməti deməkdir. Biz öz sözümüzü deməliyik. Məsələn, mən Fəzail İbrahimlinin bu dövlətə nə ziyanı dəyə bilər? Amma elə qüvvələr var ki, onlar müəyyən təsir gücünə malikdirlər. Bunların içərisində məmurlar da, sahibkarlar da var. Onlar daha çox əməli fəaliyyət göstərməlidirlər, dövlət başçısının ətrafında daha sıx birləşməlidirlər, problemlərin həllinə kömək etməlidirlər. Eyni zamanda, biz deputatlar da məmurlarla əl-ələ verib bu dövlət, bu xalq üçün işləməli, çalışmalıyıq. Yəni, məmurlar bu məsələdən yaxalarını kənara çəkməməlidirlər".

Qeyd edək ki, son vaxtlar məmurlar hətta hakimiyyətin kursunu müdafiə edən bəzi deputatlar tərəfindən də kəskin tənqid edilir. Məsələn, deputat Zahid Orucun olduqca kəskin tənqidləri buna nümunədir. Prezidentin hakim komanda üzvlərinə sərt və açıq xəbərdarlıqlarından sonra parlament üzvlərinin də məmur özbaşınalığına etiraz bildirməsi təqdirlə qarşılanır. Bu mənada fevralın 1-də öz işinə başlayacaq yaz sessiyasında, xüsusilə də hökumətin Milli Məclis qarşısında hesabatı zamanı maraqlı çıxışların olacağı şübhə doğurmur.

Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə isə komitə toplantısındakı çıxışında ölkə başçısının son müşavirədəki çıxışından bəhs edib. Deyib ki, prezident regionlarla bağlı dövlət proqramlarının icrasına həsr olunmuş iclasında, eləcə də, iqtisadi blokla keçirdiyi müşavirədə çox dəyərli və əhəmiyyətli fikirlər, çağırışlar səsləndi: "Orada bir daha ölkədə iqtisadi islahatların sürətləndirilməsi məsələsi önə çəkildi. Heç şübhəsiz ki, dünyada yaşanan qlobal maliyyə-iqtisadi böhran Azərbaycana da müəyyən təsirlər göstərir. Bu təsirlərin qarşısının alınması, dövlət başçısının səsləndirdiyi fikirlərin əhaliyə düzgün çatdırılması, Prezidentin islahatların gücləndirilməsi ilə bağlı tapşırıqlarının vaxtında icra olunması üçün bizim komitənin də fəaliyyəti ola bilər və var. Biz daha çox yerlərdə olmalı, insanlarla, seçicilərlə daha tez-tez görüşlər keçirməli, onları dinləməli, dövlətin siyasətini, dövlət başçısının çağırışlarını onlara dolğun və ətraflı izah etməli, onları məlumatlandırmalıyıq. Çünki insanlar bəzən fikirləşirlər ki, məsələn, həyətinin qapısı əyilibsə, onu gəlib hökumət, icra hakimiyyəti, bələdiyyələr düzəltməlidir".

❑ **Cavid TURAN**



## AŞPA testindən keçənlər və kəsilənlər

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**AŞPA-nın son sessiyası Azərbaycanın dost-müttəfiqləri üçün növbəti qiymətli test oldu. Məsələ ondadır ki, Qarabağa dair qətnamə ətrafında müzakirələr təkcə ermənipərəstliyi üzə çıxan Minsk Qrupu həmsədrlərinin və ermənı tərəfinin həyasızlığı ilə yadda qalmadı.**

Sevindiricidir ki, bu sınaqdan bizə ən yaxın ölkələr sayılan qardaş Türkiyə, Gürcüstan və Ukraynanın nümayəndə heyətləri alnıaçıq çıxdılar. Üç ölkəni təmsil edən nümayəndə heyətləri üzvlərinin mütləq əksəriyyəti Azərbaycanın mövqeyini müdafiə etdilər. Buna görə hər üç ölkəyə və onların millət vəkillərinə təşəkkürlər!

**Konkret olaraq, Türkiyəyə gəlincə, artıq bəllidir ki, 18 deputatdan yalnız 6-sı testdən çıxmağı bacarmayıb.** Mətbuatda yazılanlara əsasən, həmin 6 deputatdan ikisi PKK yanlı HDP-çi deputatdır, yəni kürddür. Onların səsverməyə qatılmaması və Ermənistana simpatiya bəsləməsi haradasa anlaşılır - hərçənd, Türkiyənin çörəyini yeyirlər. Əgər HDP rəhbəri Səlahəddin Dəmirdaş Türkiyə dövlətinin özünə xəyanət etməkdən çəkinməyən, onu Rusiyanın ayağına verən biridirsə, o zaman onun partiyadaşlarından Türkiyəyə, Türkiyənin 1 nömrəli müttəfiqi Azərbaycana prinsipial məsələlərdə dəstək və saygı gözləmək təbii ki, məntiqsizlik olardı...

Bununla belə, düşündürücü, eyni zamanda bir az da üzücüdür ki, Azərbaycan və Türkiyə üçün mühüm önəm və prinsipial əhəmiyyət daşıyan, Ermənistanı yerində oturda biləcək qiymətli bir sənəd cəmi 4 səs çatışmazlığı ucbatından bloklanıb və əslində HDP-çi deputatlar xaric, Türkiyə nümayəndə heyətinin daha 4 üzvü onu dəstəkləsəydi, qətnamə keçərdi.

**Sual da odur ki, nədən nümayəndə heyətinin əksər üzvləri kimi onlar eyni mövqe tutmayıb?** Və ya görəsən AŞPA-da Qarabağa dair yox, Türkiyə əleyhinə saxta erməni soyqırımı məsələsi ilə bağlı sənəd səsverməyə çıxarılsaydı, onlar yenə eyni mövqemi sərgiləyərdilər?

Sözsüz ki, Qarabağ qətnaməsinin qəbul olunmamasının əsas günahı Azərbaycan Xarici İşlər Nazirliyinin səhlənkar diplomatik passivliyi və arxayınçılığı, nümayəndə heyətimizin məsələyə yetərincə ciddi yanaşmaması ilə bağlıdır. Bu, öz yerində. Fəqət, o da var ki, Ermənistanın əsas müttəfiqi Rusiyadan olan deputatlar sessiyada iştirak etmirdi və 4 türkiyəli millət vəkili boşluğu asanlıqla doldura bilərdi...

Deputat Fazil Mustafanın sözlərinə görə, səs verməyənlər arasında Türkiyə nümayəndə heyətinin rəhbəri Talib Küçükcan da olub. O, prosedura sadəcə, qatılmayıb - baxmayaraq ki, məsələnin önəmi F.Mustafanın dediyinə görə, iclasdan qabaq dönə-dönə ona xatırladılıb.

**Deputat nədən bu mövqe tutub, yəqin ki, onun özü dəqiq bilir.** Küçükcan və digər 3 deputatın soykökü haqda bizdə bilgi yoxdur. Amma əminik ki, özünü türk soyundan hesab edən deputat mütləq Azərbaycanın, deməli, həm də Türkiyənin yanında yer alardı. Yalnız o bəllidir ki, 4 nəfərdən biri - CHP-li millət vəkili Gülsün Bilgəxan ötən ilin aprelində saxta "erməni soyqırımı"na dəstək məqsədi ilə saygı duruşuna qatılanlardan olub...

***

**Əlbəttə ki, "Uman yerdən küsərlər".** Umulası deyilsə, küsməyə də dəyməz. Ancaq unutmaq lazım deyil ki, iki qardaş ölkə - Türkiyə və Azərbaycan, ümumən bölgəmiz olduqca mürəkkəb və həssas bir dönəmə girib və belə bir dönəmdə hətta bircə deputat dəstəyi də həlledici ola bilər. Bu üzdən ümid edirik ki, AŞPA-dakı səsvermənin nəticələri qardaş ölkə parlamentində diqqət mərkəzinə gətiriləcək, "xaric oxuyanlar"dan hesab sorulacaq və yaxud onlar başqaları ilə əvəzlənək. Çünki belə mövqe, təkrar edirik, həm də "bir millətin ikinci dövləti" Türkiyə əleyhinə yönəlib.

Onu da unutmaq olmaz ki, istər AKP liderləri, sayın prezident Rəcəb Tayyib Ərdoğan və baş nazir Əhməd Davudoğlu olsun, istərsə də CHP yetkililəri, dəfələrlə bəyan ediblər ki, "Azərbaycanın problemi bizim problemimizdir, Qarabağ dərdi həm də Türkiyənin dərdidir". Bunu qardaş dövlət adından Bakıya son səfəri çərçivəsində baş nazir Davudoğlu bir daha açıq bəyan edib.

**Zatən, əsas da budur.**

## Hacı Məmmədov 11 ildən sonra həqiqətləri danışa bilər

### Ali Məhkəmə qanqsterin işini icraata götürdü; böyük ehtimalla, kassasiya müraciəti DİN-in Baş Cinayət-Axtarış İdarəsinin keçmiş rəisi Zakir Nəsirovla bağlıdır; H.Məmmdov törətdiyi adam oğurluqlarında, qətllərdə sifarişçilərin adını çəkməyə hazırlaşır

**Ömürlük həbs cəzası almış Hacı Məmmədovun ərizəsi Ali Məhkəmədə artıq araşdırılmağa başladığı bir vaxtda redaksiyamıza maraqlı məlumatlar daxil olub. Bildirilir ki, Hacı Məmmədov yaxın gələcəkdə baş tutacaq məhkəməsində illərlə gizli saxladığı bəzi məqamlara aydınlıq gətirəcək. Belə ehtimallar var ki, H.Məmmədov onun killer dəstəsinin qətlə yetirdiyi bəzi şəxslərlə bağlı xüsusi açıqlamalar verəcək. Gələn xəbərlərə görə, məşhur arestant adam oğurluqları ilə bağlı sifarişçilərin adlarını da çəkə biləcəyini artıq uca səslə deyir.**





Xəbər verdiyimiz kimi, Hacı Məmmədov saxlanıldığı Milli Təhlükəsizlik Nazirliyi ləğv olunandan dərhal sonra ərizə ilə Ali Məhkəməyə müraciət edib. O, özünün cinayətləri haqda əvvəllər deməyi məlumatları açıqlamaq niyyətində olduğunu qeyd edib. Artıq cinayət işində bəzi halların araşdırılması ilə bağlı müraciəti hakimin icraatına verilib. Ali Məhkəmədən APA-ya verilən məlumata görə, H.Məmmədovun müraciəti hakimin icraatına verilib və hazırda öyrənilir. Ərizə hakim tərəfindən öyrənildikdən sonra müraciətin məhkəmənin Plenumuna çıxarılıb-çıxarılmaması ilə bağlı rəy yazacaq.

Sayt yazır ki, "yeni açılmış hal" o deməkdir ki, məhkəmədə həmin cinayət işinə baxdıqda o hal məhkəməyə məlum olmur. Belə ki, məhkəmədə baxılan bir cinayət işi üzrə hansısa şahid yalan ifadə verərsə, ekspert yalan rəy təqdim edərsə və bu zaman məhkəmə onların yalan danışdığını müəyyən etməzsə, sonradan təqsirləndirilən şəxs, zərərçəkmiş tərəf, yaxud prokuror Ali Məhkəməyə müraciət edərək həmin halın araşdırılmasını xahiş edə bilər. Böyük ehtimalla, Hacı Məmmədovun Ali Məhkəməyə müraciəti DİN-in Baş Cinayət Axtarış İdarəsinin keçmiş rəisi Zakir Nəsirovla bağlıdır.

O, "yeni açılmış hal" çərçivəsində Zakir Nəsirovla bağlı ifadələrini dəyişəcək, beləliklə də ömürlük həbsə məhkum olunmuş generalın azadlığa yolu açılacaq.

Xatırladaq ki, DİN-in sabiq baş əməliyyat müvəkkili Hacı Məmmədov və daha 26 nəfər 2005-ci ilin martın 9-dan 10-na keçən gecə MTN-in həyata keçirdiyi "Qara kəmər" əməliyyatı nəticəsində həbs ediliblər. H.Məmmədova qarşı Cinayət Məcəlləsinin 80 maddəsi ilə ittiham irəli sürülüb, barəsində əmlakı müsadirə olunmaqla ömürlük həbs cəzası çıxarılıb. Məhkəmənin qərarına əsasən DİN-in Baş Cinayət-Axtarış İdarəsinin keçmiş rəisi Zakir Nəsirov və daha 8 nəfər də ömürlük həbs cəzasına məhkum edilib.

❑ **E.HÜSEYNOV**

## MTN-in həbsdəki generalının daha bir gizli təcridxanası üzə çıxdı

### Akif Çovdarovun Zirədəki müasir istixanada işgəncə yuvası saxladığı iddia olunur



**Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov işdən çıxarılandan sonra onun gizli həbsxana saxladığı haqda məlumatlar yayılmışdı. Adı 2 jurnalistə qarşı sui-qəsddə hallanan A.Çovdarovun MTN binasından kənarda yerləşən gizli həbsxanasından onlarla vətəndaşın keçdiyi də iddia olunurdu. Və sonradan bu iddiaları təsdiqləyən məlumatlar da ortaya çıxdı. Məlum oldu ki, xeyli sayda iş adamı da Baş Prokurorluğa və Prezident Administrasiyasına ünvanladıqları şikayətlərində birbaşa məhz general Akif Çovdarovun onlara hədə-qorxu gələrək, milyonlarla vəsaitlərini və əmlaklarını əllərindən aldığını bildiriblər.**

Hazırda həbsdə olan sabiq MTN generalı Akif Çovdarovun Abşeron rayonunun Masazır qəsəbəsində, istixana təsərrüfatında gizli təcridxana saxlaması, müxtəlif şəxsləri həmin təcridxanaya salaraq fiziki-mənəvi işgəncələrə məruz qoyması ilə bağlı mətbuatda yazılar dərc edilib.

Moderator.az saytı etibarlı mənbəyə istinadən A.Çovdarovun Zirə kəndində də belə gizli təcridxana saxlaması haqda xəbər yayıb. Sayt yazır ki, bu təcridxana öz böyüklüyü və orada həyata keçirilən zorakılıqların miqyasına görə Masazırdakı təcridxananı kölgədə qoyur: "Akif Çovdarovun Zirə kənində iki böyük istixana təsərrüfatı mövcuddur ki, bunlardan biri 20 hektar, digəri isə 10 hektarlıq böyük bir ərazini əhatə edir. Bu istixana təsərrüfatları Zirədəki kabel zavodunun arxasında yerləşir. Sadəcə, Azərbaycan miqyasında deyil, Avropa miqyasında ən modern istixanalardan sayılan bu təsərrüfatların əsas özəlliyi burada müxtəlif məhsulların yetişdirilməsi deyil. Bu təsərrüfatların ən böyük özəlliyi onların buradakı gizli təcridxana üçün kamfulyaj rolunu oynamasıdır.

Belə ki, A.Çovdarova məxsus ən böyük təcridxana məhz Zirə kəndindəki bu parniklərin zirzəmisində yerləşir. Hansı ki, sabiq MTN generalı illər uzunu bu zirzəmidən müxtəlif iş adamlarını cəzaya məruz qoymaq, onlara əzələ nümayiş etdirmək üçün istifadə edib, həmin zirzəmini nəhəng işgəncə ştabına çevirib. Burada Masazır təcridxanasında işgəncəyə məruz qalan insanların sayının bir neçə misli qədər şəxs zorakılığa məruz qalıb ki, bu da Masazır təcridxanasının Zirə təcridxanası ilə müqayisədə toy-bayram sayıla biləcəyini göstərir".

**Qeyd edək ki, Azərbaycanda zaman-zaman gizli həbsxanaların varlığı haqda iddialar ortaya çıxıb.** Həmin iddialardan təsdiq olunanları da var. Məsələn, hazırda ömürlük məhbus olaraq MTN-də saxlanılan DİN-in sabiq baş əməliyyat müvəkkili Hacı Məmmədov Keşlə qəsəbəsində yerləşən villasının həyətində belə bir həbsxana saxlayıb. H.Məmmədovun məhkəməsində məlum olub ki, oğurlanan şəxslər zirzəmidə yerləşən həmin gizli həbsxanada saxlanılıblar. Orada saxlanılanlardan birinin qulağı kəsilərək atasına göndərilib. Bundan başqa, Xüsusi İdarənin rəisi olmuş Elman Qəmbərovun da gizli həbsxana saxladığı haqda məlumatlar vardı. İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin mərhum sədri Elçin Behbudov 1995-ci ildə həmin həbsxanada saxlanılmışdı.

❑ **E.MƏMMƏDƏLİYEV**

**Yanvarın 31-i Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin doğum günüdür. Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində anadan olub. Hər il olduğu kimi, bu il də böyük öndərin doğum günü ölkənin demokratik qüvvələri, onun ideallarının davamçıları tərəfindən Novxanıdakı abidəsi önündə xüsusi mərasimlə qeyd olunacaq.**

# Sabah Rəsulzadənin doğum günüdür

## Cümhuriyyətin banisi abidəsi önündə yad ediləcək

Hakim partiya olan Yeni Azərbaycan Partiyası isə bu il Rəsulzadənin doğum günü ilə bağlı tədbir keçirməyəcək. Bu barədə YAP-ın Siyasi Şurasının üzvü, partiyanın mətbuat xidmətinin rəhbəri Hüseyn Paşayev "Yeni Müsavat"a açıqlamasında bildirib: "Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyi, doğum günü dövlət səviyyəsində təntənəli surətdə qeyd olunub. Bu barədə Azərbaycan respublikasının prezidentinin sərəncamı olmuşdur. Bu il isə yubliey olmadığından heç bir tədbir keçirilməyəcək".

**Müsavat Partiyasının başqan müavini Elman Fəttah** partiyanın Rəsulzadə ilə bağlı keçirəcəyi tədbirlərdən danışıb: "Rəsulzadənin doğum günü və onunla bağlı tədbirlər Müsavat Partiyası üçün birinci sırada yer alan rəsmi məsələdir. Bu baxımdan onun 132-ci doğum günündə Müsavat Partiyasının qərargahında konfrans şəklində anım tədbiri keçiriləcək. Tədbirdə Rəsulzadə irsinin araşdırmaçıları, müəllim və tələbələr, alim heyətinin üzvlərinin iştirakı ilə məruzələr səslənəcək, çıxışlar olacaq.

Yanvarın 31-də isə Müsavat Partiyasının bütün fəallarının iştirakı ilə Rəsulzadənin Novxanı kəndində yerləşən abidəsi önündə anım tədbiri davam edəcək".

**Elman Fəttah hakimiyyət tərəfindən Rəsulzadəyə layiqli qiymət verilmədiyini bildirib:**

"Rəsulzadə təkcə bir dövlətin, cumhuriyyətin qurucusu deyil, o, çox böyük, dahi şəxsiyyətdir. Onun idealogiyası, düşüncəsi, təfəkkürü yüz illərlə davam edəcək. Rəsulzadənin irsi təkcə ölkəmizdə deyil, qonşu xalqlarda, Avropada, hətta Yaponiyada da araşdırılır. Çünki o, bəşəri şəxsiyyətdir.

Bu cür şəxsiyyətin Bakı şəhərində heykəlinin olmaması mövcud siyasi şərtlərdə kontikturanın diktəsidir. Lakin xalqın tam əksəriyyəti Rəsulzadə sevgisi ilə yaşayır və ona çox böyük hörmət bəsləyir".



**Klassik Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini Xəzər Teyyub** da Rəsulzadənin doğum günü ilə əlaqədar ənənəvi olaraq Novxanı kəndindəki abidəsinin önünündə anım tədbiri keçiriləcəyini deyib:

"Hər il olduğu kimi böyük öndərimiz, cumhuriyyətimizin qurucusu Məhəmməd Əmin Rəsulzadənin doğulduğu Novxanı kəndindəki abidəsi önünüdə yürüş təşkil ediləcək. Yanvarın 31-də partiyamızın rəhbər heyəti, rayon, şəhər şöbələrinin fəalları, Qarabağ qaziləri, milli azadlıq hərəkatının üzvləri həmin gün anım tədbiri keçirəcək. Daha sonra Novxanı kəndinin məzarlığında Rəsulzadənin atasının, yaxın qohumlarının məzarı ziyarət olunacaq, dualar səsləndiriləcək. Həmçinin həmin Elçibəyin də məzarı ziyarət olunacaq".

**Xəzər Teyyub vurğulayıb ki, iqtidar tərəfindən Rəsulzadəyə qarşı biganəlik aradan qaldırılmalı, bu barədə siyasi qərar qəbul olunmalıdır:**

"Hələ Elçibəyin zamanında Bakının mərkəzində Rəsulzadəyə abidə ucaldılması nəzərdə tutulmuşdu. Lakin təəssüf ki, sonradan həmin yerdə fontan tikdilər.

Hətta ötən illərdə prezident İlham Əliyev tərəfindən Rəsulzadə ilə bağlı sərəncam imzalanmışdı. Təəssüf ki, həmin sərəncam da sonadək yerinə yetirilmədi.

Bu gün Rəsulzadə irsinin araşdırılması üçün böyük mərkəzlər yaradılmalıdır. Hakimiyyət bu məsələni həll etmir, etmək də istəmir.

Xalqımız heç vaxt Rəsulzadəni unutmur, unutmayaqcaq da . Onun heykəli xalqımızın ürəyindədir".

**Xatırladaq ki, M.Ə.Rəsulzadə 1955-ci il martın 6-da Türkiyənin Ankara şəhərində vəfat edib. O, "Əsri" məzarıstanlığında dəfn edilib. M.Ə.Rəsulzadə 71 yaşında dünyadan köçərkən son olaraq üç dəfə "Azərbaycan, Azərbaycan, Azərbaycan" sözlərini deyib.**

❑ **Xalidə GƏRAY**

# SOCAR-ın 20 milyonluq villalarla bağlı araşdırması bitdi

## "Bu kimi halların ictimaiyyət arasında bilərəkdən çaşqınlıq yaratmaq məqsədi daşıdığını, onun işgüzar nüfuzuna məqsədli şəkildə zərər vurmaq niyyəti ilə edildiyini bildiririk"



Qiymət Mehdiyev

**Dövlət Neft Şirkəti (SOCAR) Qiymət Mehdiyev barədə KİV-də yayılan məlumatların araşdırılmasına dair bəyanat yayıb.**

SOCAR-dan musavat.com-a daxil olan bəyanatda deyilir ki, KİV-də SOCAR-ın Baş ofisinin Kapital Qoyuluşları İdarəsinin rəis müavini Qiymət Mehdiyevin həyat yoldaşı K.Mehdiyevanın Türkiyənin Bodrum şəhərinin Gökçebel məhəlləsində dəyəri 20 milyon ABŞ dolları təşkil edən 16 ədəd villanın mülkiyyətçisi kimi təqdim edilməsi barədə yayılan məlumatlar SOCAR-ın Risklərin İdarəedilməsi Komitəsi (Komitə) tərəfindən araşdırılıb və "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Korrupsiya ilə mübarizə və şəffaflığın artırılması" üzrə standartlarının tələblərinə uyğun qaydada müvafiq qərar qəbul edilib: "Komitənin qərarına əsasən, SOCAR-ın Biznes Etika Məcəlləsinin şirkətin əməkdaşları üçün müəyyən etdiyi hər hansı normasının pozulması halları aşkar edilməyib. Komitə KİV-də yayılmış bu cür məlumatların SOCAR-ın fəaliyyəti ilə heç bir əlaqəsi olmadığını, bu məsələ ilə əlaqədar bəzi KİV-in hüquq qaydalarını və jurnalistika prinsiplərini gözləmədən, yoxlanılmadan mütəmadi olaraq əsassız məlumatlar yayımlamasını qeyd edib və bu halları SOCAR-ın fəaliyyəti ilə bağlamaq cəhdlərini şirkətin işgüzar nüfuzuna, yerli və beynəlxalq layihələrin reallaşdırılmasına mənfi təsir göstərə biləcək risk kimi qiymətləndirib. Komitə eyni zamanda belə hallarda SOCAR tərəfindən müvafiq hüquqi addımlar atılmasının zəruriliyini qeyd edib.

Risklərin İdarəedilməsi Komitəsinin qərarını nəzərə alaraq SOCAR, bəzi KİV-də öz işgüzar nüfuzuna qarşı yönəlmiş bu məlumatların müəlliflərini, eləcə də KİV-i bu sahədə mövcud qanunvericiliyin tələblərini və jurnalistika etikasını pozmamağa, əsassız və yoxlanılmamış məlumatları yaymamağa, xüsusilə də Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş anlayışları səhv tövsif etməklə ictimaiyyətdə yanlış təsəvvürün yaradılmasına gətirib çıxaran hərəkətlərə yol verməməyə çağırır. Belə ki, Qiymət Mehdiyevin "dövlət məmuru" anlayışının altına salınması, onun dövlət orqanında çalışması haqqında yanlış təsəvvür yaradılması, aldığı əmlakın dəyərinin bilərəkdən 300 dəfə artırılaraq ictimaiyyətə çatdırılması, əldə etdiyi gəlirlərin isə qeyri-sağlam təhlili bu şəxsin özünü və ailəsini qanuni mənafeləri nəzərə alınmadan ictimaiyyətin gözündən salmağa yönəldilmiş cəhdlərdir.

SOCAR beynəlxalq neft şirkəti olmaqla Azərbaycanın maraqlarını ölkə hüdudlarından kənarda təmsil edir, bunun üçün partnyor şirkətlərlə zəruri əməkdaşlıqlar qurur. Yuxarıda qeyd edilən yanlış məlumatın eyni zamanda SOCAR ilə əlaqələndirilərək ictimaiyyətə təqdim edilməsi təəssüf doğuran haldır və bu hal SOCAR-ın işgüzar nüfuzuna xələl gətirir. Belə hallar SOCAR-ı işgüzar nüfuzunun müdafiəsi üçün əsassız, yoxlanılmamış və böhtan xarakterli məlumatlar yayan xarici və yerli KİV-ə qarşı zəruri hüquqi tədbirlər görmək hüququndan istifadə etməyə məcbur edir. SOCAR bu kimi halların ictimaiyyət arasında bilərəkdən çaşqınlıq yaratmaq məqsədi daşıdığını, onun işgüzar nüfuzuna məqsədli şəkildə zərər vurmaq niyyəti ilə edildiyini və belə məsələlərdə ictimaiyyətdə ədalətli mövqe formalaşdırılması üçün istənilən mətbuat orqanı ilə əməkdaşlığa hazır olduğunu bildirir".

Məlumatı ilk yayan **virtualaz.org saytının rəhbəri Eynulla Fətullayev** isə daha öncə bizə açıqlamasında bildirmişdi ki, araşdırmanın nəticəsi açıqlanandan sonra bu mövzu ilə bağlı bundan sonra atacaqları addımları müəyyənləşdirəcəklər: "Qiymət Mehdiyev müsahibəsində qeyd etdi ki, həmin sənədləri təqdim edən ailə dostlarıdır. Aydın məsələdir ki, biz necə əldə edə bilərdik? Üstəlik, ailə dostlarıdırsa, onun həyat yoldaşını da tanıyırlar və yanlışlığa yol verməzlər... Biz yazıda da qeyd etmişdik ki, həmin sənədlərin üzə çıxarılması bir qisas əməliyyatının nəticəsidir. Türklər bildiriblər ki, Azərbaycan tərəfi öhdəliyi pozub. Bizə bunu bildirdilər. Jurnalistin işi öz işini vicdanla görməkdir".

**E.Fətullayev bu araşdırma çərçivəsində qarşı tərəfin mövqeyini niyə öyrənmədiklərini də açıqlamışdı. Onun bildirdiyinə görə, qarşı tərəfin fikrini öyrənməyə cəhd etsələr, şantajda ittiham olunacaqlarını bilirlər:** "Bilirəm ki, müəyyən mənada jurnalistika prinsiplərini pozmuşam. Ona görə də qərara gəldim ki, sadəcə sənədləri yayım. Bu insan etiraf edir ki, bu evin birini alıb. Hətta deyir ki, normal ailə ala bilər. Mən şəxsən özümü normal ailənin üzvü hesab edirəm. Amma bizim Bodrumda villamız yoxdur. Biz hələlik rəsmi mövqe gözləyirik. SOCAR bəyan etmişdi ki, araşdıracaqlar. Mən düşünürəm ki, biz bunun nəticəsini gözləməliyik. Əlbəttə ki, burdan Bodruma səfər edib, yerində araşdırmaq böyük zəhmət tələb etmir. Amma öncə SOCAR öz mövqeyini bildirsin. Hüquq-mühafizə orqanları sözünü deyəcək. Ondan sonra yenidən bu mövzuya qayıtmaq olar. Qiymət Mehdiyev özünü təkzib edir. Bir tərəfdən deyir ki, bu ev onun həyat yoldaşı tərəfindən alınıb. Digər tərəfdən deyir ki, fotodakı xanım həyat yoldaşı deyil. Məntiqi ardıcıllığın pozulduğunu oxucu da görür".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 22 (6343) 30 yanvar 2016

# "Görünür, məndə o qabiliyyət yox idi..."

## Hikmət Hacızadə: "İnanıram ki, bu yaxınlarda nəsə dəyişəcək"

**"Yeni Müsavat"ın budəfəki qonağı Azərbaycanın Rusiyadakı keçmiş səfiri, tanınmış politoloq Hikmət Hacızadədir. Müsahibə almaq üçün əməkdaşımız Məğrur Mərdlə onun evinə yollandıq. Səmimi görüşdən sonra iş otağına daxil olduq. Bu otaqda nələr yox idi: yerli, xarici mahnıların, klassik əsərlərin köhnə diskləri, pianino, bas gitara, divardan asılmış maraqlı rəsm əsəri, böyük kitab rəfi və nəhayət, politoloqun iş stolu, iri ekranlı kompüteri.**



Otağı bir vaxtlar dəbdə olan iri maqnitofonda səslənən xalq musiqisinin həzin sədaları bürümüşdü. Pianinonu görüb onun firmasını soruşdum. Hikmət bəy "əgər bacarırsınız ifa edə bilərsiz" dedi. Əyləşib məşhur "Qızıl üzük" mahnısını ifa edirdim ki, qonşu otaqdan solo gitarasını gətirib məni müşayiət etməyə başladı. Beləcə, birlikdə duet, solo ifalarımız oldu. Hiss olunurdu ki, politoloq sevimli gitarasından çoxdandır ki, uzaq düşüb - buna baxmayaraq barmaqlarının şirinliyi hələ yerində idi...

Beləliklə, bir qədər musiqi aləmində gəzişdikdən sonra müsahibəyə başlayırıq. İlk sual Hikmət bəydən gəldi:

- Siz qəzetin hansı şöbəsindənsiz?

***- Mənimki siyasət deyil, mədəniyyət və yaradıcılıqla bağlıdır.***

- Siyasətdə də yaradıcılıq var (gülümsəyir).

***- Cəmiyyətimizin dəyərli politoloqlarından birisiz. Adətən adınız çəkilən kimi ilk reaksiya belə olur, "maraqlı insandır".***

- (gülür). Bilmirəm nə ilə bağlıdır. Mənim üçün hər bir insan maraqlıdır. Hər bir insandan maraqlı söhbətlər, əhvalatlar gələ bilər, sadəcə, onu danışdırmaq lazımdır. Amma utancaqlıq, sıxıntı adamı lal-dinməz edir. Mən isə o əsirlikdən çıxmışam.

***- Balkə tələbəlik illərinizə səyahət edək? Bildiyim qədər 70-ci illərdə Azərbaycan Dövlət Universitetində təhsil alarkən rok-caz qrupu yaradıb, orada solo gitarada ifa etmisiniz.***

- Müqəddəs illər idi. Nəinki Bakı, mənim üçün, demək olar ki, bütün planet üçün. 60-70-ci illərdə bütün sahələrdə, mədəniyyətdə, siyasətdə, incəsənətdə azadlıq inqilabı baş vermişdi. İnsan köhnə qaydalardan, qoz qabığından azad olub azadlığa çıxırdı, göylərə qalxırdı, yerin altına girirdi, özünü ifa edirdi, yaradıcılıqda sərhədləri pozurdu, mədəniyyətə yenilikləri gətirirdi və sairə. Bu, Bakıya və rayonlarımıza da təsir edirdi. Mən onların canlı şahidi olmuşam və buna görə xoşbəxtəm.

***- Gitaraya necə başladız? Musiqi təhsiliniz var idi, ya həvəskardınız?***

- Həvəskar idim. O zamanlar belə bir qayda var idi. Bütün ziyalı ailələr uşaqlarını musiqi məktəbinə qoyurdular. Mən də 5-ci sinfə qədər konservatoriyanın nəzdindəki Bülbül adına musiqi məktəbində təhsil almışdım. Artıq 5-ci sinifdə ciddi addım atmaq lazım idi ki, sən professional ifaçı olmaq istəyirsənmi, qabiliyyətin varmı və sairə. Görünür, məndə o qabiliyyət yox idi.

***- Hansı alətdə ifa edirdiz?***

- Fortepianoda. O vaxtı bizdə uşaqlar var idi, gündə 7 saat məşq edib, qamma, arpedjio çalırdılar. Görünür, bu hövsələ məndə olmadı. Ona görə ordan məni çıxartdılar (gülür). Mən də keçdim 134 saylı məktəbə. O da riyaziyyat yönümlü məktəb idi

## "Biz o sıxıntıdan məhz inqilab hesabına çıxdıq"



və mənə yaradı. Həmin məktəbdə yaxşı insanlarla tanış oldum, yaxşı müəllimlər gördüm. Məktəbimizdə də rok ansamblı var idi. Sonra universitetə, fizika fakültəsinə daxil oldum. Bu, çətin və şərəfli fakültədir, insanı dəyişir, formalaşdırır, ona düzgün fikirləşmək, düşünmək tərzi, həqiqəti seçməyi, təcrübədən çıxartmağı öyrədir. Pis və ya yaxşı oxumağın fərq etməz, o fakültənin ruhu elədir ki, sən tamamilə başqa adam olursan, emosiyalara, nağıllara uymursan, hər bir xəbəri iki-üç dəfə yoxlayırsan, saf-çürük edirsən. Həmin universitetdə də rok ansamblı yaratmışdıq. Daha sonra Moskvaya gedib təhsilimi orda davam etdim, aspiranturaya daxil oldum. Daha sonra Azərbaycana qayıdıb bir qədər işlədim. Həmin vaxtlar inqilab, hərəkat başladı, biz də ora qoşulduq. Beləliklə, Azərbaycan taleyi ilə məşğul olmağa başladıq.

***- İndiki gənclik tez-tez yaşlı və orta nəslin qınağına tuş gəlir. Siz bugünkü gəncliyi, onun siyasətdə ictimaiyyətdə fəaliyyətini necə dəyərləndirirsiz?***

- Siz görərdiz ki, bizi necə qınayırdılar. Siz hələ kefdəsiz *(gülür)*. İstədiyiniz paltarı geyinir, saç düzümü edir, istədiyniz kitabları oxuyur, evə gec gələ bilirsiz. Bizdə belə şeylər yox idi. Zorla məktəbdə adamın saçını, saqqalını qırxırdılar, "Bu musiqiyə qulaq asma!", "O kitabı oxuma!", "Bu adam pisdir, onunla oturub-durma!" deyirdilər. Çox sıxıntı var idi. Və biz o sıxıntıdan çıxa bildik, məhz dediyim o inqilabın hesabına.

Mən indiki gəncliyə yalnız həsəd apara bilərəm. Sizlərdə olan indiki imkanlar bizdə yox idi. Biz heç nə görmürdük. Sovet hökuməti dəmirdən hasar tikmişdi, dünyada nə baş verir, hansı yeni ideyalar, fikirlər yaranır, mədəniyyətdə nə var, bilmirdik. Sonra elmi-texniki tərəqqi o səviyyəyə çatdı ki, informasiya artıq dəmir hasardan bura sızmağa başladı. Yeni verilişlər, musiqilər, mətnlər gəldi. Biz Qərbdən elm, mədəniyyət, azadlıq haqqında eşitməyə başladıq. Daha sonra Türkiyədən Məhəmməd Əmin Rəsulzadə və onun silahdaşları haqda xəbərlər çatdı. Məlum oldu ki, bizim orda arxivlərimiz var. Ordan türkçülük gəldi, bildik ki, biz böyük millətik və sairə.

***- Sanki xalqın 20-25 il bundan əvvəlki mübarizlik eşqi yoxdur, sönüb...***

## "Azərbaycan və Rusiya televiziyalarına baxmıram..."

- Sönüb deyəndə ki, söndürüblər. Mübarizə, həqiqət, düzgünlük istəməyən qüvvələr üstünlük təşkil etdi ölkəmizdə. Bizim mübariz adamlarımız, gənclərimiz, ziyalılarımız var idi. Ancaq görünür, onlar kifayət qədər çox olmayıb. Başqa adamlar, korrupsiya, oğurluq, güc, qohumbazlıq - bunlar çox oldu, o birilərini isə tutdular, ürəyimizdəki alovları söndürdülər. Amma yenə var, kimsə yanır. Mən inanıram ki, bu yaxınlarda nəsə dəyişəcək.

***- Son bir ayda Azərbaycan iqtisadiyyatında ciddi böhran yaşandı, manat devalvasiya etdi, bəzi məhsulların qiymətləri hətta iki dəfə artdı. Gözlər müxalifətə dikildi ki, ordan etiraz, mitinq çağırışları olsun. Lakin sükut gördük. Xalq müxalifətə inanmır ya müxalifətin artıq gücü tükənib?***

- Müxalifət tamamilə susdurulub, sındırılıb. Müxalifətin liderləri türmədədir, bizdə müxalifət qalmayıb. Yalnız tək-tük qəhrəmanlar qalıb, hansı ki, onlar bu və ya digər partiyada öz sözlərini deyə bilərlər. Vaxtında xalq, cəmiyyət müxalifət partiyasını dəstəkləmədi. İndi də krizis gələndə deyirlər ki, "durun, qalxın". Görürlər ki, qalxmağa artıq adam qalmayıb. Xalq Cəhbəsi, Müsavat, gənclər təşkilatlar hamısı içəridədir, kim qalxsın? Bir də ki, xalq narazıdırsa, qalxsın sözünü desin. Sənin kreditin var, çıx de. Buna görə partiya lideri lazım deyil ki. Qalxmırsız, müxalifət neyləsin?

Müxalifət 20 il idi ki, deyirdi bu gün gələcək. Deyirdilər ki, neft bitməyə başlayacaq, bu da hardasa 2018-2020-ci illərdə olacaq. Heç kəs fikir, hay vermədi. Axı biz xəbərdarlıq edirdik. Bundan artıq müxalifət neyləsin? Odur ki, işimiz Allaha qalıb və heç kəs müxalifəti günahlandırmasın. Ancaq ümidinizi itirməyin, bunların hamısı nə vaxtsa düzələcək.

***- Ölkədə struktur dəyişikliyi olacağı deyildi. Hansısa nazirliklərin ləğvi, komitələrin birləşdirilməsi gözlənilir. Siz hansı nazirliklərin ləğvini istərdiniz?***

- Mən bunu 3-cü dərəcəli məsələ hesab edirəm. Birinci dərəcəli məsələ isə odur ki, ölkənin idarəçiliyinə vicdanlı, düzgün adamlar gəlsin. Belə olsa pis struktura ilə də işləmək olar. Əgər yenə də rüşvətxorlar vəzifədə olacaqsa yenə də büdcə dağılıb yeyiləcək, beləliklə, yaxşı struktur onlara kömək etməyəcək. Əsas odur ki, düzgün adamlar yetişdirib vəzifəyə gətirilsin, onlara başçılıq edilsin. Yeyilmiş, oğurlanmış pullar var, onları qaytarmaq lazımdır ki, cəmiyyət inansın, insanlar başa düşsün ki, oğru olmayan insan da yaşaya bilər. Ondan sonra istəlinən variant gedəcək.

***- Sizinlə görüşümüz həmkarınız, mərhum Zəfər Quliyevin anım gününə təsadüf etdi. Onunla bağlı hansı xatirələriniz, deyəcəkləriniz var?***

- Zəfər Quliyev bizim böyük ziyalımız idi. Dost olmasaq da onu yaxından tanıyırdım, əməkdaşlıq edirdik. Həmişə həqiqəti axtaran, tapan, danışan, düzgün, dürüst insan kimi tanıyırdım. Heyf ki, aramızdan getdi...

***- İrana qarşı beynəlxalq sanksiyalar aradan qaldırıldıqdan sonra bu ölkə geniş inkişafa doğru gedən yola qədəm qoydu. Bu ritmlə İran bölgədə güclü dövlətə çevrilə bilərmi? Bunun Azərbaycan siyasəti və iqtisadiyyatına hansı təsiri ola bilər?***

- İran güclü dövlətə çevrilə bilər, imkanı var. Lakin bu məsələ təkcə neftlə bağlı deyil. Bu ölkə həqiqi demokratik kapitalist dövlət olmalı, həqiqi islahatlar aparılmalıdır, heç olmasa Türkiyə kimi. Türkiyə İrandan xeyli güclü və varlıdır. Halbuki, Türkiyənin heç nefti yoxdur. Təkcə neftlə güclənmək olmaz. Buna nail olmaq üçün indiki İranın rejimi dəyişilməli, orda söz, din azadlığı və başqa mülki azadlıqlar, hüquqlar tanınmalıdır. Həmçinin, İranda yaşayan Azərbaycan türklərinin mədəni haqları təmin olunmaldır. Hələ ki, doğru-dürüst seçkilər keçirilmir. Mollalar kimi istəyir seçkiyə buraxır. Bunların hamısı həll olunmlaıdır. Onda İran güclənəcək və bu cür dövlət bizə də lazımdır.

***- Bir müddətdir ki, müxalifətdən ayrılmısız. Hazırda nə işlə məşğulsuz və ya nə yazırsız?***

- Əvvəllər nə işlə məşğul idimsə, indi də onu davam edirəm. Konkret olaraq hərəkatın əvvəlindən bu yana demokratik maarifçiliklə məşğulam. Yeni məlumatları tapıb gətirir, tərcümə və təbliğ edir və bunu çox vacib hesab edirəm. Çünki bu gün cəmiyyətimiz cürbəcür problemlərlə üzləşir. Çalışıram ki, yenilikləri bacardığım qədər ictimaiyyətə çatdırım. Hərdən məni qınayırlar ki, sən konkret işlə məşğul olmursan. Bu da işdir axı. Amerikalılarda bir söz var, "Mayak sahil boyu ora-bura qaçmır ki, insanları xilas eləsin, o bir yerdə durur və nur saçır". Bağışlayın ki, mən özümü mayaka oxşatdım (gülür). Amma demək istədiyim odur ki, mən hər süpürgəçinin süpürgəsini tutmalıyam axı (zarafatla). Mən bir yerdə durub nur saçıram (gülür).

***- Demokratiyadan söz düşmüşkən, bir neçə beynəlxalq təşkilatlar öz hesabatlarında Azərbaycandakı demokratiya haqqında tənqidlər, mənfi rəylər bildirirlər. Sizcə, bunun bir nəticəsi olacaqmı? Bu barədə pozitiv fikirləşmək olarmı?***

- Olmalıdır. Bu tənqidlərə fikir verməmək ancaq o halda mümkündür nə zaman ki, öz-özünə kifayət olan ölkəsən. Qəzetlərin yazdığına görə, Azərbaycan beynəlxalq maliyyə institutları ilə bəzi böyük kreditlər haqqında danışıqlar aparmağa başlayır. Həmin kreditlərin tələbələrinin bəzi hissələri demokratiya ilə bağlıdır. Əgər ölkədə insan haqlarının vəziyyəti pisdirsə, qəzetlər, vətəndaş cəmiyyəti əzilirsə, kredit 5 faizdən 10 faizə qalxır, çünki həmin ölkə riskli ölkə olur. Bu yolla bizimkiləri yola gətirəcəklər. Yəni o çıxışların, tənqidlərin əhəmiyyəti olacaq.

***- Maraqlıdır, Hikmət bəy hansı televiziya verilişlərini izləyir, hansı ifaçıları dinləyir?***

- Azərbaycan televiziyasına baxmıram. Rusiya televiziyasına da baxmıram. Mənim televiziyam əsasən internet olub. Əgər facebookda insanlarla dostsansa sənə maraqlı məlumatlar verirlər. Burdan baxıram canım qurtarır.

***- Yəni vaxt sərf etmək istəmirsiz?***

- Bizimkilərə baxıb əsəbləşmirəm. Hərdən görürəm nələr var. O kök müğənnilər, primadonnalar çıxır, vay, vay, biabırçılıq. Hansısa bir savadsız, mənəviyyatsız bir adam başlayır mənəviyyatdan danışmağa, qız, gəlin-qaynana söhbətləri aparılmağa. O da mənə maraqlı deyil. Televiziyanı da inkişaf etməyə qoymurlar. Orda yaxşı jurnalistlərimiz var, hamısını kənarlaşdırırlar. Ya da onlar texniki işlərlə məşğuldurlar, danışmağa qoymurlar. Hərdən də Türkiyə, İran hakimlərini efirə çıxardırlar. O da deyir ki, zəfəranı bel dəmliyərsiz, belə içərsiz, sonra bal və keçi piyini başınıza yaxarsız. Təxminən belə şeylər. Muğamat da ki, nə qədər olar? Nə isə, baxmıram.

***- Bir əməkdar artist müsahibəsində bildirmişdi ki, "bizim zamanımızda qız-qadınlarımız bugünkü xanımlar qədər gözəl deyildi".***

- Tamamilə razıyam, bəli. Bunun həm obyektiv həm də subyeyktiv səbəbləri var. Birincisi, sağlam uşaq qidası və düzgün səhiyyə və profilaktika, raxitliyin azalması, estetik əməliyyatlar var. Kiminsə qüsuru varsa onu düzəltmək olur. Əvvəllər belə şeylər yox idi. Bizim qadınlarımız təxminən 5 dəfə gözəlləşib. Həm həyat səviyyəsi, həm ailədə mədəniyyət, estetikanın səviyyəsi artıb. Hərə özü üçün bir modelyer olub, belə şeyləri dəyərləndirirəm...

❑ **Xalidə GƏRAY**

**Fotolar MƏĞRURundur**

# Devalvasiya xofu keçdimi...

## Hökumət xalqdan daha qorxmur; ekspert: "Problemlər hələ qabaqdadır..."

**Ötən gün maliyyə naziri Samir Şərifovun media qarşısında dollarla verilən kreditlərə güzəşt məsələsi ilə bağlı kəskin çıxışı və konkret mövqe bildirməsi hökumətin yeni siyasi davranış modelinin başlanğıcı kimi qəbul olundu. Cəmiyyətdə belə bir düşüncə formalaşdı ki, əgər 21 dekabr devalvasiyasının ilk günlərində hökumət xalqın etirazlarından çəkinərək daha korrekt davranır və daha ehtiyatla, qeyri-müəyyən danışırdısa, artıq ictimai sabitliyin yaranmasından arxayınlaşaraq birbaşa və kəskin danışır, baş verən proseslərin məsuliyyətini öz üzərindən xalqın üzərinə atır.**

Yeni bölgələrdə qalxan etirazlar həm də spontan baş verən bu hadisələrin elə də təhlükəli olmadığını və inzibati yolla həll edilə biləcəyini göstərdi. Belə çıxır, Maliyyə Naziri Samir Şərifovunda özündən əmin və kəskin danışmasının səbəbi budur. Təsadüfi deyil ki, bu yanaşmanı ekspertlər də təsdiqləyir.

**İqtisadçı-ekspert Natiq Cəfərli** "Yeni Müsavat"a açıqlamasında hökumətin bu davranışının yanlış olduğunu bildirdi: "Bölgələrdəki etirazlar kortəbii şəkildə insanların qəzəbini ifadə elədi. Çünki insanlar bir gündə yoxsullaşdılar, qiymətlər qalxdı və bu sadəcə, spontan baş verən etirazlar idi. Hökumət qüvvələri də kifayət qədər sərt tədbirlərlə insanların etirazlarını yatırmağa üstünlük verdilər. Çox təəssüf ki, hökumətdə ola bilər belə bir təsəvvür yaranıb ki, sonradan baş verə biləcək etirazların da hamısını belə sərt tədbirlərlə yatırmaq olar. Halbuki, bu etirazlarda siyasi tələblər belə yox idi. Söhbət iqtisadi tələblərdən, bahalıqdan, yoxsullaşmadan, işsizliyin artmasından gedirdi. Artıq bu qəzəb obrazlı desək, yer altına keçib. Bu da çox təhlükəli haldır. Biz dəfələrlə demişik ki, Azərbaycanın problemlərinin küçələrdə həll olunacağına inanmırıq. Problemlər masa arxasında həllini tapmalıdır".



**"Görünür, hökumət öz gücünə inanır və normal iqtisadi islahatlarla deyil, güc vasitəsilə yarana biləcək hər hansı problemi həll edə biləcəyini düşünür"- deyən ekspert bunun çox yanlış bir yanaşma olduğunu qeyd etdi:** "Çünki insanların yoxsullaşması və gəlirlərin azalması prosesi sürətləndikcə, işsizlik artdıqca yenidən bu cür etirazların kortəbii şəkildə baş qaldırması ehtimalı var. Bu da hər hansı sosial partlayışlara, xaotik duruma gətirib çıxara bilər. Bunun qarşısını almağın yolu iqtisadi-siyasi islahatlardır. Çünki problemlərin kökü həm də idarəetmədəki problemlərə dirənir. İdarəetmədə dəyişiklik olmasa, iqtisadi sahədə atılan addımların heç bir effektivliyi olmayacaq. Bu, ondan məlum olur ki, bu günə qədər atılan addımların heç bir effektivliyi olmayıb. Hətta bəzi qərarlar sonradan ləğv olunub. Hökumət gələcəkdə də baş verəcək etirazların güclə yatırılacağı üzərindən öz siyasətini qurub. Bu isə ölkə üçün yaxşı heç nə vəd etmir. Problemlərin bu cür davam etməsi sonradan daha ciddi problemlərə gətirib çıxara bilər".

**Politoloq Ərəstun Oruclu** da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hökumətin bu davranışları yenidən etiraz dalğasını qaldıra bilər: "Xatırlayırsınızsa, mən bölgələrdə etirazlar başlayanda da demişdim ki, bu proseslərə xalqın ilkin reaksiyasıdır. Problemlər hələ qarşıdadır. Mən onu da düşünmürəm ki, hakimiyyət həmin dövrdə əhaliyə qarşı yumşaq davrandı. İnsanlar həbs olundu, onlara qarşı zorakılıq oldu. Xüsusən Siyəzəndə insanlara qarşı zorakılıq, həbs və döyülmə halları oldu. İndi isə Samir Şərifovun çıxışı, davranışı yenə hakimiyyətin vəziyyəti düzgün dəyərləndirməməsidir. Samir Şərifov elə danışır ki, sanki ölkənin maliyyə durumunu bir gündə yoxsullaşan insanlar idarə edib, o özü yox. Maliyyə naziri az qalır ki, xalqı borclu çıxartsın. Bu gün ölkədə iqtisadi sektorda baş verənlərə məsuliyyət daşıyan insanlardan biri, bəlkə də birincisi Samir Şərifovdur. Onun bu tonda danışması, insanlara bu cür kobud şəkildə mesajlar verməsi sadəcə, anlaşılan deyil. Bu insan ya reallıq hissini itirib, ya da tamam başqa meyarlarla davranmağa üstünlük verir".

**Politoloqun fikrincə, hökumət rəsmilərinin bu cür davranışı insanlarda qıcıq yaradır:** "Ölkənin maliyyə naziri əhaliyə müraciət edib deyir ki, camaat yastığın altındakı pulları çıxarıb gətirsin, bu nazirlər öz yastıqları ilə sadə insanların yastıqlarını səhv salmamalıdırlar. Bunlar elə bilməsinlər ki, hamının yastığının altı dəstə-dəstə pullarla doludur. Bu da reallıq hissinin itirilməsindən xəbər verir. Nə qədər ki, millətə bu cür münasibət göstəriləcək, bunun fəsadları da bir o qədər ağrılı olacaq. Etirazlar yenidən başlaya bilər. Çünki proses dayanmayıb, insanlar yoxsullaşmaqda davam edir, heç bir proses yoxdur, hansısa addımın atılacağı görünmür. Beynəlxalq Valyuta Fondunun nümayəndələri mətbuata açıqlama verirlər ki, danışıq üçün gəliblər. Digər tərəfdən isə Samir Şərifov bəyanat verir ki, bizim heç bir borcumuz yoxdur. Belə çıxır ki, Dünya Bankı ilə Beynəlxalq Valyuta Fondu Azərbaycana yalvarır ki, bizdən pul götürün. Bu dəyərləndirmənin özü də reallıqdan uzaqdır və cəmiyyətə saygısızlıqdır".

❑ **Nərgiz LİFTİYEVA**

# Qurbanəli bəy axurda niyə gizlənmişdi?



**Samir SARI**

**Dünən jurnalist, yazıçı, deputat Aqil Abbas zəng eləmişdi. Düzü, əvvəlcə, telefonumun ekranında görünən nömrəyə baxıb "bəli" deyənə qədər elə bildim ki, müəllim soğan məsələsindən danışacaq. Güman elədim ki, bu mövzuda saytda gedən yazıların altına kimsə yenə bir səfeh şərh yazıb (adətən, yazırlar), bu da Aqil Abbasa toxunub, ona görə zəng edib. Şükür ki, elə deyildi.**

Aqil müəllimin zəngi ədəbiyyat söhbəti ilə bağlı idi. Bundan əvvəl mən sosial şəbəkədə Azərbaycan ədəbiyyatının 5 ən yaxşı hekayəsini qeyd etmişdim. Yazmışdım ki, mənə görə, 5 ən yaxşı hekayə bunlardır:

**1. "Qurbanəli bəy" (Mirzə Cəlil)**
**2. "Pir" (Əbdürrəhim bəy Haqverdiyev)**
**3. "Fərqanə" (Rafiq Tağı)**
**4. "Şəkil" (Şərif Ağayar)**
**5. "Baladadaşın ilk məhəbbəti" (Elçin)**

Üstəlik, onu da qeyd etmişdim ki, əslində yaxşı hekayələrin limiti ən az 30 olmalıydı. Çünki doğrudan da yaxşı hekayələr çoxdur. Bunu nəsr oxuyanlar yaxşı bilir. Məsələn, Mirzə Cəlilin əksər hekayələri ("Poçt qutusu"ndan "Quzu"ya qədər) şedevrdir. Mirzə Fətəlinin "Aldanmış kəvakib"i isə Azərbaycan nəsrinin aktuallığını hələ də qoruyan şah əsəridir, amma romandır, hekayə deyil.

Aqil Abbasın zəng isə "Qurbanəli bəy" hekayəsi ilə bağlıydı, soruşurdu ki, bəs o hekayənin əsl, sovet senzurasına məruz qalmamış variantını oxumuşammı. Dedim ki, yox, elə mən də hamı oxuyan variantını oxumuşam, amma çox xoşuma gəlib, koloritli, parlaq əsərdir, yaddaşa həkk olur, silinmir, adam təkrar-təkrar oxuyur, hər dəfə ləzzət edir.

Bu yerdə yazıçı Aqil Abbas dedi ki, o, təxminən 15 il öncə "Qurbanəli bəy" hekayəsinin orijinal variantını əldə edib, oxuyub və bu barədə "Ədalət" qəzetində yazı da dərc etdirib.

Heç demə, sovet-rus senzurası həmin hekayənin açar cümlələrindən ibarət bir abzasa əl gəzdiribmiş. Ona görə də Qurbanəli bəy xalqımıza simic, verdiyi sözü tutmayan, içəndə qatıqlayan lovğa bəy qılafında təqdim olunub. Əslində isə bəyin qonaqlarını qarşılamaq əvəzinə qaçıb axurda gizlənməsinin daha tutarlı bir səbəbi varmış.

Nəymiş o səbəb? Aqil Abbas dedi, mən də burda yazıram. Deməli, Qurbanəli bəy eyvana çıxır, görür ki, odey, uzaqlardan onun evinə doğru bir qoşun adam gəlir. "Nəçənnik" (naçalnik - rəis), nökər-naibləri, arvadı, baldızı, bacanağı, onların xalası, bibisi, dayısı uşaqları və başqaları. Qurbanəli bəy görür ki, bunun bircə kəlmə "sabah bizdə qonaqsız" sözündən yapışan "nəçənnik" nəsl-nəcabətini yığıb və bir qoşun adam düzəldərək müftə yeməyə gətirib. Mirzə Cəlilin senzuraya məruz qalmış abzasından belə aydın olur ki, yazıq Qurbanəli bəy nəçənnikin "bütün Rusiyanı" yığıb gətirdiyini görərək, onları yedirdə bilməyəcəyini anlayıb və başqa variant olmadığını görərək axurda gizlənməyi üstün tutub.

Yeni yazıçının burada əsas vurğu saldığı məqamlardan biri də rus rəislərin müftə yeməyə bir qoşun adamla gətmək xasiyyətidir, amma senzura bunu açan cümləlləri çıxarıb deyə Qurbanəli bəy pis vəziyyətdə qalıb.

Fikirləşdim ki, bunu yazım və bəyə qarşı yol verilmiş tarixi ədalətsizliyə son qoyulsun. Onu da qeyd edim ki, rəis ruslar o xasiyyətlərini tərgitməyiblər.

İndi yeri getməmişkən, qısaca şəkildə nədən o biri hekayələri də seçdiyimi qeyd edim. Əbdürrəhim bəyin "Pir" hekayəsinin şedevr olduğuna çoxdan bilirdim. Bu yaxınlarda bir daha əmin oldum. Lökbatanda bir çayxanada 4-5 ağsaqqal nərd oynaya-oynaya mövhumatçılıqdan, xurafatdan, camaatın hələ də pirə, ocağa, seyidə inanmasından danışırdı. Birdən biri dedi ki, hansısa yazıçının belə bir hekayəsi var, orda belə bir əhvalatdan danışılır. O, hekayəni danışdı, sözünü bitirdi, həmsöhbətləri güldü, amma ağsaqqal hekayənin adını və müəllifini xatırlaya bilmədi. Belə olanda kənardan dilləndim, dedim ki, bu Haqverdiyevin "Pir" hekayəsidir. Ağsaqqal "hə, hə, odur, əla hekayədir" dedi.

Mərhum Rafiq Tağının mətbuatda dərc edilən ilk əsəri olan "Fərqanə" də əla hekayədir. Bunu gərək adam özü oxusun, qiymət versin. Şərif Ağayarın "Şəkil" hekayəsi isə, zənnimcə, 21-ci əsrdə yazılmış ən gözəl hekayələrdən biridir. "Baladaşın ilk məhəbbəti" də bizim gəncliyimizin hekayəsidir, unudulmaz hekayədir.

**İndiki qurbanəli bəylərimiz axurda gizlənmirlər, ona görə də büdcədə pul qalmır...**

# Müsavatla rifahçıların məhkəməsi davam edib

## Hakim partiyaya qarşı vəsatəti qəbul etmədi

**Bu gün Azərbaycan Demokratiya və Rifah təşkilatının rəhbərliyində təmsil olunan bir qrup şəxsin Müsavat Partiyasının 2014-cü ildə keçirilən qurultayının qərarlarının ləğv edilməsi tələbi ilə partiyaya qarşı qaldırdığı iddia üzrə məhkəmə prosesi yanvarın 29-da davam etdirilib.**

Məhkəmə prosesində Müsavatı müdafiə edən **partiya başqanının müavini, tanınmış vəkil Osman Kazımov** məlumat verib ki, proses başlayan kimi iddiaçı tərəfin təmsilçisi Əlövsət Sadıqlı vəsatət verərək Müsavatın cəzalandırılmasını tələb edib. Hakim vəsatəti müzakirə edərək rədd eləyib: "Müsavatı saxtakarlıqda ittiham edən rifahçılar işə Müsavat Partiyasının üzvü olmalarına dair 2013-cü il tarixli arayışları əlavə ediblər. Hakimin nəzərinə iddia verənlərdən yalnız bir nəfərin hazırda Müsavat Partiyasının üzvü olduğunu, digərlərinin partiyadan çıxarıldığını və ya istefa verdiklərini çatdırdım. Bu günə qədər iddia üzrə bir dənə də olsun sübut təqdim edə bilməyən rifahçıların irəli sürdükləri tələblər özlərinə belə aydın deyil. Hakim artıq neçənci dəfədir ki, qarşı tərəfdən sübut tələb edir. Rifahçılar isə qurultayın protokolunun verilməsini istəyir və protokolda Ədliyyə Nazirliyinə verilən məlumatlarda saxtakarlıq edildiyini bildirirlər. Prosesdə rifahçıları təmsil edən Əlövsət Sadıqlıya sual verdim ki, protokolu və Ədliyyə Nazirliyinə verilən məlumatları oxuyubmu. Bildirdi ki, "xeyr verirsinizmi oxuyaq". Onda ona növbəti sualı ünvanladım ki, oxumadığı, görmədiyi məlumatların saxta olduğunu necə iddia edir? Cavablandıra bilmədi".




**Məhkəmə prosesi davam edir.**

❑ **E.SEYİDAĞA**



# Milli birlik

Zamin HACI
zaminhaci@gmail.com

**Neftin ucuzlaşması, devalvasiya, krizis millətimiz arasında birliyi möhkəmləndirir, bunun özü böyük uğurdur.**

Örnək üçün, iki gün qabaq "Dəmirbank"la "Azəriqazbank" birləşib "Qazdəmirbank" oldular. Başqa bankların, nazirlik və idarələrin birləşməsi də gündəmdədir. AMEA prezidenti Akif Əlizadənin sözlərinə görə, Fizika İnstitutu ilə Kimya İnstitutunu birləşdirmək, üstünə Riyaziyyat İnstitutunu gəlmək, alınan nəticədən Dilçilik İnstitutunu çıxmaq, nəhayət, Fəlsəfə İnstitutuna bölmək fikirləri vardır.

Çox yaxşı olar. Birlik daha artsın deyə Artur müəllimlə Abid Şərifovu calaq eləmək, baş nazir vəzifəsinə Abid Rasizadə adlı yeni insan tipini rəhbər qoymaq mümkündür. Namxuda, tibb elmimiz çox inkişaf etmişdir.

Tibdən söz düşmüşkən, büdcə vəsaitlərinə qənaət məqsədi ilə Səhiyyə Nazirliyini qəbiristanlıq idarəsinə, bunların cəmini isə Qafqaz Müsəlmanları İdarəsinə birləşdirmək çox yaxşı hərəkət olardı, xalq tərəfindən rəğbətlə qarşılanardı. Nə üçün eyni bir həkim insanı həm əməliyyat, həm dəfn eləməsin, onun cüməaxşamlarında mağara gedib dua oxumasın? Görün dövlət büdcəsinə nə qədər qənaət eləmək, sonra yığılan pulla təzə Avropa Oyunları qayırmaq olar!

Səmərələşdirici təkliflərdən biri də Təhsil Nazirliyi ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasını birləşdirməkdir. Qəzet yazır ki, artıq buna yaşıl işıq yandırılıb, yeni yaranacaq Elm və Təhsil Nazirliyinin şefi isə Mikayıl Cabbarov olacaqdır. Əhsən. Ümid edirik Mikayıl müəllim məktəblərdə pis oxuyan uşaqların qapazlanması ənənəsini tələbə qəbuluna da gətirəcəkdir. Hansı abituriyent 250 baldan aşağı toplasa onu elə imtahan salonunda it sürütməsi eləyib ağzını-burnunu qanatmalıyıq.

Dünən general Məhərrəm Əliyevin qohumuna, bazarkomun oğluna xuliqanlığa görə 30 sutka həbs verilməsindən yazmışdım. Gənc bizim bildiyimiz azı 4 nəfəri döyüb, YDM-i dağıdıb, ancaq "cəzasını" görürsünüz. Halbuki, jurnalist Seymur Həziyə dayanacaqda guya bir "işverənə" plastik su butulkası atdığı üçün 5 il həbs cəzası veriblər. Bu boyda ədalətsizlik, haqsızlıq olan dövlətin, ərazinin üstünə göydən bir asteroid düşsə azdır. Ancaq gördüyünüz kimi, düşmür. Çünki milli birliyimiz göydən gələn bəlaları darmadağın edir! "Beşinci element" kinosunda Bryus Uillisin qəhrəmanı göydən gələn daşı od, hava, su, torpaq və sevgi elementlərinin köməyi ilə dağıtdığı kimi bir şey alınır. Bizim beş elementimiz bir az fərqlidir: neft, qaz, kürü, muğamat və İlhamə Quliyeva.

Bu arada Hadı müəllimdən də büdcənin inkişafı sahəsində növbəti səmərəli təklif irəli atılmışdır. Yəqin siz hamınız Hadı müəllimi yaxşı tanıyırsınız, özəlliklə müəllimlər. Çünki Hadı müəllim 40 ildir deputatxanada sosial məsələləri qayırmaqla məşğuldur, keçən il isə müəllimlərə dərsdən sonra bənna, xarrat, dülgər, suvaqçı, rəqqasə, masajist, dəniz qulduru, peşmərgə, ölüyuyan, ofisiant, jurnalist, köşə yazarı, gemorroy həkimi və sairə işlərdə çalışmağı məsləhət görmüşdü. Deyirdi, insan bir maaşla yaşamasın gərək, insan özünə Lənkəranda "Palıdlı" istirahət mərkəzi də açmalıdır. Müəllimlər Hadı müəllimin təklifini sevinclə qarşılamışdılar, bir neçəsinin ürəyi sevindiyindən partlamışdı.

Uzun sözün qısası, indi Hadı müəllim sahibkarları incidən, kosmosdan gəlmə quldur dəstələrinə qarşı çıxıb. Sitat: "Prezident demişkən, gəlin məmurun əlindən vuraq, sahibkarın başını kəsən məmurun əlini qıraq". Düzü, məncə prezident belə söz deməyib, Hadı müəllim nəsə təxribat edir. İkincisi, Hadı müəllimin cəzası uyğunsuzdur. Baş kəsənin əlini qırmaqla iş düzəlməz, gərək baş kəsənin başını kəsəsən. Cəza cinayətə uyğun olmayanda dövlət möhkəmlənir.

**İndi söz baş kəsən təşkilatlarındır.**

---

**ABŞ Helsinki Komissiyasının rəhbəri, ABŞ Konqresinin nümayəndələr Palatasının üzvü Kristofer Smitin Azərbaycan və onun hakimiyyətinə qarşı hazırladığı və Helsinki Komissiyasında qəbul edilən "Azərbaycanda Demokratiya Aktı" adlı qanun layihəsi ətrafında yaşanan ajiotaj xeyli vaxtdır səngiyib.**



# Yəhudi lobbisi Konqresdə Azərbaycana sanksiya layihəsinə qarşı çalışır

## Qanun layihəsi ABŞ Konqresinin gündəliyindən çıxmış sayıla bilərmi?

Layihə Helsinki Komissiyasında qəbul edilən zaman bildirilirdi ki, yanvarın sonu, fevralda Konqresdə müzakirəyə çıxarıla bilər. Artıq yanvar ayı başa çatır, ancaq sözügedən məsələdən heç bir informasiya yoxdur. Belə bir təəssürat yaranır ki, sanksiyaları nəzərdə tutan qanun layihəsi gündəmdən çıxarılır və hətta Konqresdə müzakirəyə də çıxarılmaya bilər.

Sanksiyaları nəzərdə tutan layihənin arxa plana keçdiyi təəssüratının yaranmasının ABŞ prezidentindən Azərbaycan prezidentinə Vaşinqtonda keçiriləcək nüvə sammitinə dəvətin göndərilməsi ilə bağlı, Azərbaycanın Vaşinqton üçün əhəmiyyətli olması, eyni zamanda Azərbaycan Milli Məclisinin üzvü Rövşən Rzayevin ABŞ-da demokratiyanın və insan haqlarının durumu ilə bağlı hazırladığı-qarşılıqlı sanksiyaları nəzərdə tutan qanun layihəsi ilə əlaqədar olduğu iddiaları var.

Qanun layihəsi ABŞ Konqresinin gündəliyindən çıxmış sayıla bilərmi? Bəziləri iddialarında deyildiyi kimi Azərbaycanın önəmli ölkə olması və Azərbaycandan ABŞ-a qarşı alternativ sanksiya layihəsinin dərhal hazırlanması Vaşinqtonu prosesi dayandırmağa sövq edə bilərmi?

**Yeni AXCP-nin sədri Razi Nurullayev** bildirdi ki, Kristofer Smitin müəllifi olduğu "Azərbaycanda Demokratiya Aktı" qanun layihəsinin tezliklə qəbul olunmayacağı barədə layihə yeni ortaya çıxan zaman verdiyi proqnoz özünü doğruldub: "Xatırlayırsınızsa, mən əvvəldən bir neçə dəfə bu barədə fikir bildirmişdim. Fikirlərim dəyişməyib. Azərbaycan ABŞ üçün vacib və strateji ölkədir. Düzdür, İranla münasibətlərin normallaşması Azərbaycanın önəmini azaldıb, lakin İŞİD ilə mübarizədə Azərbaycanın müsəlman ölkəsi kimi mövqeyi mühümdür. Əlavə olaraq, Azərbaycanı dışlayıb Rusiyanın yanında yer almasında da ABŞ maraqlı deyil. Amerikanın Azərbaycanda enerji maraqları da var, eyni zamanda regionda Azərbaycan kimi ölkənin ABŞ-ın dostu rolunda olması vacibdir. Məsələnin maraqlı tərəfi həm də odur ki, yəhudi lobbisinin ABŞ siyasətində önəmli yeri var. Azərbaycan hakimiyyəti İsrail ilə dost ölkədir və yəhudi lobbisi bu qanun layihəsinin qarşısını almaq iqtidarında da malikdir. Belə demək olarsa, bu qanunun qəbulu üçün erməni və yəhudi lobbisi arasında bir savaş gedir. Azərbaycan üstünlüyü əldən verməyəcək və yəhudi lobbisi bu məsələdə ciddi rol oynamaqdadır. Artıq yəhudi lobbisinin addımlar atdığı barədə informasiyalar var".

**R.Nurullayev onu da dedi ki, ABŞ cəmiyyətində həm də sanksiyalara münasibət dəyişib:** "1959-cu ildən ABŞ-ın Kubaya tətbiq etdiyi sanksiyalar nəticə vermədi. İndi sanksiyalar qaldırılır. Digər ölkələrdə də sanksiyalar eyni dərəcədə əhəmiyyətsiz olub. Buna görə Nümayəndələr Palatasında da sanksiyalara münasibət yaxşı deyil. Smitin layihəsinin Konqresin müzakirəsinə hələ çıxarılmamasında Azərbaycan parlamentinin üzvünün hazırladığı cavab layihəsinin hansısa rol oynadığını isə düşünmürəm.

Lakin hər bir halda ABŞ kimi böyük dövlətdən sanksiyaların gündəmə gəlməsinin özü Azərbaycan hakimiyyətini silkələyib və bu xalqımızın, demokratiyanın xeyirinədir".

**Ümid Partiyasının sədri İqbal Ağazadə** isə hesab edir ki, Barak Obamanın İlham Əliyevi nüvə sammitinə dəvət etməsi hadisəsi sanksiya məsələsini arxa plana keçirmir: "Çünki bunlar bir-biri ilə əlaqəli məsələlərə oxşamır. Nəzərə almaq lazımdır ki, "Azərbaycanda demokratiya aktı" adlı qanun layihəsi Helsinki Komissiyasında Barak Obamanın Azərbaycan prezidentinə məlum dəvəti göndərməsindən sonra qəbul edilib. Əvvəldən də bəlli idi ki, layihə Konqresdə tezliklə müzakirəyə çıxarılmayacaq.

Azərbaycan ABŞ-la müqayisədə çox kiçik ölkə olsa da Vaşinqton üçün çox böyük əhəmiyyətə malik strateji komponentdir. Vaşinqton bu komponentin əldən çıxmasını istəməz. Düşünmürəm ki, Azərbaycan ABŞ-la münasibətləri o səviyyə çatdırar ki, adekvat addımlar atılmış olsun. Azərbaycan regionda marağı olan ölkələr, xüsusilə ABŞ üçün strateji əhəmiyyət daşıyan bir ölkədir. Azərbaycan Rusiya və İranın arasında olan elə bir strateji nöqtədir ki, bu məsələdə demokratiyanın sərhədinin cızılması və yeni dünya düzənində tutacağı yer çox mühümdür. Buna görə də Azərbaycandan ABŞ-ın imtina etməsi və ya Azərbaycanın proseslərdən sıxışdırması o qədər rahat deyil. Amma hər halda Azərbaycan tərəfinə irəli sürülən tələblər də üzərindən vaz keçiləcək tələblər deyil. Çünki bu elə məsələdir ki, həm də dəyərlərə və prinsiplərə sadiqlik məsələsidir. Hesab edirəm ki, Azərbaycan hökuməti dil tapmalıdır, dövlətin və Azərbaycan xalqının ziyan görməsinə imkan verməməlidir. Mən arzulayardım ki, məsələnin sanksiyalarla yekunlaşmaması üçün dil tapılsın".

Bir çox siyasətçilər isə Azərbaycanın Pentaqon üçün xüsusi önəm daşıdığına diqqəti cəlb edirlər. Qeyd edilir ki, təkcə Azərbaycanın üzərindən Pentaqonun təyyarələrinin gediş-gəlişi faktı Azərbaycanın Pentaqon üçün necə ciddi komponent olduğunu söyləmək üçün yetərlidir. Pentaqonun Ağ Evə, ABŞ Konqresə təsir imkanları var. Bu baxımdan, Pentaqon Azərbaycan kimi mühüm komponentdən məhrum olmamaq üçün Konqresin Azərbaycana qarşı sanksiyalar qanununun qəbul etməsinin qarşısını almağa çalışa bilər.

**Xatırladaq ki, sözügedən qanun layihəsi Azərbaycan hökumətinin yüksək vəzifəli üzvlərinə ABŞ vizası almaq qadağasının qoyulmasını, onların biznes əlaqələrindən əhəmiyyətli dərəcədə gəlir əldə edən şəxslərə, hökumətin təhlükəsizlik və ədliyyə orqanlarının nümayəndələrinə viza qadağalarının qoyulmasını nəzərdə tutmaqla yanaşı maliyyə sanksiyalarının, Azərbaycanla iqtisadi əlaqələrin kəsilməsini nəzərdə tutur. Bəzi siyasətçilərin fikrincə, 14 maddədən ibarət bu qanun layihəsinin 80 faizi Azərbaycan xalqına, 20 faizi birbaşa hakimiyyətə qarşıdır.**

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 22 (6343) 30 yanvar 2016

## Samir Şərifovla Elman Rüstəmovun təxribata bərabər addımları

**Ölkədə bir ayda altı bankın bağlanması bank sistemində ciddi proseslərin getdiyindən xəbər verir. Əksər banklar hətta birləşmə təklif edilmədən bağlanıb. Son olaraq “Texnikabank”ın lisenziyasının alındığı bildirilir. Bankın İdarə Heyətinin sədri Etibar Əliyev bankın lisenziyasının ləğv olunması ilə bağlı xəbərlərə münasibət bildirib.**



# İki məmur ölkənin pul damarını niyə doğrayır - sensasion təfərrüatlar

### Maliyyə naziri ilə Mərkəzi Bank rəhbərinin “şok terapiyası” Azərbaycanın bank sistemini çökdürə bilər; böhran o həddə dərinləşir ki, ən iri banklar belə bağlanmaq təhlükəsi ilə üz-üzə qalıb; “Texnikabank”ın lisenziyasının alınması xəbərləri yayıldı…

**O, Musavat.com-a açıqlamasında Mərkəzi Bankın belə bir qərarının olduğunu təkzib edib. Etibar Əliyev bankın bağlanması barədə qərarın artıq əməkdaşlara elan olunduğunu da təkzib edib:** “Mən əməkdaşlara heç nə elan etməmişəm. Hamı iş başındadır. Bankın lisenziyasının ləğvi barədə qərar yoxdur. Belə bir qərar olsa, ona hörmətlə yanaşacağıq”.

Bankdakı mənbə isə Musavat.com-a bildirib ki, həqiqətən “Texnikabank”ın bağlanacağı gözlənilir. Amma Mərkəzi Bankın bu barədə qərarı rəsmən elan edilməyib.

Qeyd edək ki, 21 dekabr devalvasiyasından sonra Azərbaycanda bankların bağlanmasına, bəzilərinin isə birləşdirilməsinə başlanılıb. İndiyədək 6 bank bağlanıb, bir neçə iri bankın isə konsolidasiyası, birləşdirilməsi gözlənilir.

**Ekspert Vüqar Bayramov** musavat.com-a açıqlamasında bildirib ki, dünya praktikasında qısa müddətdə bir neçə bankın lisenziyasının əlindən alınması baş verməyib: “Çox təəssüf ki, Mərkəzi Bankın bankların lisenziyasının alınması ilə bağlı strategiyası indiki məqamda bank sektoruna inamın artırılmasına xidmət etmir. Bank sektoruna inamı azaldır. Mərkəzi Bank prosesə xeyli müddət əvvəl başlamalı idi. Məsələn, "Bank of Azerbaijan" iki ildən artıqdır ki, müştərilərin depozitlərini və depozit faizlərini belə geri qaytara bilmirdi. Amma Mərkəzi Bank sözügedən bankın lisenziyasını həmin bank müştərilərə iki il əziyyət verdikdən sonra geri aldı. Halbuki bunu mərhələli şəkildə almalı idi ki, bank sektoruna inamın azalması formasında ciddi zərbə dəyməsin. Təəssüf ki, bunu etmədi və nəticədə bank sektoru birmənalı şəkildə son qərarlardan ziyan çəkir. Düşünmürəm ki, bankların bağlanması indiki halda bank sektorunun sağlamlaşdırılmasıdır. Əksinə, bankların ardıcıl olaraq bağlanması bank sektoruna inamın ciddi şəkildə itməsinə gətirib çıxarır. Ona görə ki, vətəndaşlar öz depozitlərini artıq banklardan götürmək haqqında düşünürlər. Bu, banklara depozitlərin yerləşdirilməsi baxımından inamın kəskin azalmasına gətirib çıxarır. Əslində Mərkəzi Bank başqa metodlardan istifadə etməli idi. Çalışmalı idi ki, bankların birləşdirilməsi həyata keçirilsin. Təəssüf ki, Mərkəzi Bank bankların birləşdirilməsi deyil, qısa zamanda bağlanması siyasətini həyata keçirdi. Halbuki bankları birləşməyə təşviq etmək olardı. Son proseslər müflis olmayan bankların bir qismi üçün də ciddi risklər yaradır".

**Ekspert Natiq Cəfərli** isə qeyd edib ki, bankların ardıcıl olaraq bağlanması bank sistemində bir ildən artıq davam edən stressin nəticəsidir: “Bu stressli vəziyyət bir ildən çox davam edirdi. İki devalvasiyadan sonra banklar çox çətin duruma düşdülər, indi həm aktivləri, həm passivləri problemlidir. Həm verdikləri krediti adamlardan yığa bilmirlər, həm də beynəlxalq təşkilatlara borcları var, borclar az deyil. Banklar ona görə bir-birinin ardınca bağlanır ki, çox kiçik bankları tamamilə sıradan çıxarmaq istəyirlər. Ondan sonra böyük bankların birləşdirilməsi barədə düşünəcəklər. Yaxud da dəstək proqramları barədə fikirləşəcəklər. Bankların bağlanması prosesi davam edəcək. Bankların bağlanması vətəndaşın bank sisteminə olan güvənini tamamilə azaldır. Mərkəzi Bank bağlanmanın izahını normal şəkildə verə bilmir. İnsanlarda da narahatçılıq var. Banklar yarıya qədər azaldıla bilər, yəni bankların yarısı, 20-yə qədəri bağlana bilər. Sonra ortalıqda qalan bankların birləşdirilməsi və iri banklar tərəfindən "udulması" baş verə bilər. Bankların sayı kəskin şəkildə aşağı düşdükdən sonra hökumət dəstək haqqında qərar verə bilir. İndi dəstək vermir və göz görə-görə bankların batmasını kənardan izləyir. Axıra böyük bankların qalmasını gözləyir. Dövlətin dəstəyi olmadan banklar ayaqda qala bilməz".

**Ekspert Qubad İbadoğlu** məsələ ilə bağlı musavat.com-a bildirib ki, problemli bankların lisenziyasını ləğv etmək bu istiqamətdə aparılan alternativsiz siyasətin ən asan mərhələsidir: “Belə qərarların ümumi bank-maliyyə sektorunun sağlamlaşdırılmasına gətirib çıxarması üçün Mərkəzi Bank, Əmanətlərin Sığortalanması Fondu və ləğvetmə komissiyası ilə birlikdə əhəmiyyətli işlər görməlidir ki, əmanətçilər narazı qalmasın, eyni zamanda həmin banklardan kredit götürənlər ondan sui-istifadə etməsinlər. Bu isə ciddi hazırlıq və monitorinq tələb edir. Əgər bağlanan banklardan əmanətlərin geri götürülməsi ilə əlaqədar problemlər yaranarsa və bu ictimailəşərsə, son nəticədə ondan bütün bank sistemi ziyan çəkəcək. Bu həssas məsələdə Mərkəzi Bankın üzərinə böyük məsuliyyət düşür. Bank öz missiyasını yalnız qərar qəbul etməklə başa çatdırmamalı, qəbul edilmiş qərarların icrasına da nəzarət etməlidir. Odur ki, prosesi izləyib, gedişinə də monitorinq etmək Mərkəzi Bankın məsuliyyətində qalır”.

**Xatırladaq ki, ölkənin bank-maliyyə siyasətini hazırda iki məmur - maliyyə naziri Samir Şərifovla Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov icra edirlər. Səhnədə, göz önündə, kameralar və diktofonlar önündə onlar görünür. Hər iki məmur gündəlik media qarşısına çıxaraq apardıqları siyasətlə bağlı məlumat və izahat verirlər. 21 dekabr devalvasiyasından sonra S.Şərifovla E.Rüstəmovun fəaliyyətini ən obyektin iqtisadçı ekspertlər belə normal qiymətləndirə bilmirlər. Sanki bu məmurlar bilərəkdən Azərbaycanın maliyyə-bank sistemini iflic etmək üçün yarışır. Bu prosesin sonunun haralara varacağını isə demək çətindir. Daha doğrusu, baş verənlərin ölkəmiz üçün yaxşı aqibət vəd etmədiyi göz önündədir...**

❑ **Röya RƏFİYEVA**



# “Gələcək illər innovasiya dövrü olacaq və əsas sözü texnologiyalar deyəcək”

### İlham Əliyev: “Azərbaycanın xarici maliyyə qurumlarından yardım istəməsi yalandır”

**Azərbaycan prezident İlham Əliyev Azərbaycan Gənclərinin Birinci Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşüb. APA-nın məlumatına görə, bir neçə gündən sonra I Gənclər Forumunun 20-ci ildönümünün qeyd olunacağını deyən prezident İlham Əliyev Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ildə keçirilən ilk Forumun Azərbaycanda gənclər siyasətinin müəyyən olunmasında mühüm rol oynadığını diqqətə çatdırıb.**

Azərbaycanın müstəqillik tarixindən danışan dövlət başçısı ilk illərin ölkəmiz və xalqımız üçün ağır keçdiyini, Azərbaycana qarşı ermənilərin torpaq iddiaları ilə çıxış etdiyini, sovet rəhbərliyinin Bakıda cinayət törədərək günahsız insanları qətlə yetirdiyini deyib. Prezident İlham Əliyev bildirib ki, məhz o dövrdə Heydər Əliyev Moskvada sovet rəhbərliyinin cinayətkar əməllərini pisləyib.

1990-cı illərin əvvəllərindəki problemlərin əsas hissəsini hakimiyyət böhranı ilə əlaqələndirən prezident qeyd edib ki, o dövrdə AXC-Müsavat hakimiyyəti xalq üçün böyük bəla idi: **“Zorla hakimiyyətə yiyələnən bu qüvvələr torpaqlarımızın bir hissəsinin işğalında rol oynayıblar”.**

Bu şəxslərin hakimiyyətə gəldikdən sonra bir-biriləri ilə mübarizə apardıqlarını, vəzifədən getdikdən sonra isə bəzilərinin qaçıb gizləndiyini deyən prezident İlham Əliyev 1993-cü ildən Heydər Əliyevin ölkədəki vəziyyəti normallaşdırdığını bildirib. **“Heydər Əliyevin xidmətləri sayəsində "Əsrin müqaviləsi"nin imzalanması bir çox xarici qüvvələri hərəkətə gətirdi, onlar Azərbaycanda dövlət çevrilişlərinə cəhd etdilər, amma ulu öndər xalqın köməyi ilə vəziyyəti aradan qaldırdı"**, - deyən prezident İlham Əliyev bildirib ki, indi əsas məqsəd ölkəmizdəki inkişafın dayanıqlı olmasını təmin etməkdir. Bu məsələdə gənclərin fəaliyyəti, onların baxışları həlledici rola malikdir.

Dövlət başçısı gənclərə milli dəyərlərimizi hər şeydən üstün tutmağı, vətənpərvərlik və mənəvi məsələlərdə hər zaman prinsipial olmağı tövsiyə edib, gənclərin bundan sonra da ölkəmizin inkişafına xidmət edəcəklərinə əminliyini bildirib.

**“Azərbaycanda neftdən asılılıq tamamilə aradan qaldırılmalı, gənclər də cəmiyyətin bütün işlərində fəal rol oynamalıdırlar”.**

Prezident İlham Əliyev son 20 ili inkişaf və sabitlik dövrü kimi xarakterizə edib, Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasında təmsil olunduğunu, mühüm enerji layihələrini icra etdiyini, kosmik ölkəyə çevrildiyini, iqtisadi şaxələndirmənin aparıldığını, elmin və təhsilin inkişafı ilə bağlı mühüm addımların atıldığını, güclü ordunun və güclü sosial siyasətin qurulduğunu diqqətə çatdırıb. Hazırda iqtisadi sahədə ciddi islahatların aparılmasına böyük ehtiyacın olduğunu deyən dövlət başçısı bildirib ki, gələcək illər innovasiya dövrü olacaq və əsas sözü texnologiyalar deyəcək.

**“Biz Azərbaycanda güclü, özünəgüvənən dövlət qururuq və bu dövlət əbədi yaşamalıdır”**, - deyə o vurğulayıb.

Ölkə başçısı daha sonra qeyd edib: **“Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Biz ərazi bütövlüyümüzü bərpa edəcəyik”.**

Prezident könüllülər hərəkatının ölkəmizdə böyük gələcəyin olduğunu, peşə təhsilinin geniş vüsət almasının əhəmiyyətini vurğulayıb, dünyanın aparıcı ali məktəblərinin Azərbaycanda öz filiallarını açdığını diqqətə çatdırıb. Gənclər və idman naziri Azad Rəhimov paytaxtda bir neçə Gənclər Evinin açıldığını deyib, bu prosesin davam etdiriləcəyini vurğulayıb.

Prezident yanında Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev Fond tərəfindən həyata keçirilən layihələr barədə məlumat verib. Prezident gələcəkdə də Fondun fəaliyyətinə dəstək veriləcəyini və maliyyə yardımının davam etdiriləcəyini bildirib.

İlham Əliyev qeyd edib ki, Azərbaycanın xarici maliyyə qurumlarından yardım istəməsi yalandır. O, hökumətin Azərbaycan Beynəlxalq Valyuta Fondu (BVF) və Dünya Bankı (DB) ilə 4 mlrd. dollarlıq təcili yardım paketinin cəlb olunması ilə bağlı danışıqlar apardığı barədə yayılan xəbərlərin həqiqəti əks etdirmədiyini bildirib.

Prezident yeni iqtisadi şəraitdə həyata keçiriləcək geniş özəlləşdirmə proqramının sahibkarlığın inkişafına güclü dəstək verəcəyini də bildirib.

**Qeyd edək ki, yanvarın 28-də “Financial Times” qəzeti və “Reuters” agentliyi Azərbaycan hökumətinin BVF və DB ilə 4 mlrd. dollarlıq təcili yardım paketinin cəlb olunması ilə bağlı danışıqlar apardığı barədə məlumat yayıb.**

YENİ MÜSAVAT
N 22 (6343) 30 yanvar 2016

**Yanvarın 26-da prezident İlham Əliyevin sədrliyi ilə 2014-2018-ci illər üzrə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının gedişinə həsr olunmuş müşavirədə səsləndirilən fikirlər ölkədə xeyli rezonans doğururb. Prezidentin iqtisadi sahəni kurasiya edən hökumət üzvlərinin və sahibkarlaırn iştirakı ilə keçirilən toplantıda verdiyi tapşırıqlar, komandaya yönəlik xəbərdarlıqları, məmurlara mesajları və islahatlarla bağlı anonsları müzakirə obyektidir. İqtisadçı alim, İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramovla bu mövzuda danışdıq.**

# “Nazirlər kabinetinə yeni nəfəsin verilməsinə ehtiyac var”

## Vüqar Bayramov: “Bizdə, kafedə və digər müştərilərin əyləşdiyi ümumi salonda şam edən nazir görmüsünüzmü?”



**“Hökumət xarici borcu cəlb etdikdən sonra real sektora birbaşa güzəştli kreditlərin ayrılması yolu ilə ”isti pulların" dövriyyəyə daxil olmasına çalışmalıdır"**

***- Vüqar bəy, prezidentin son müşavirədə islahatlarla bağlı mesajlarında sizin diqqətinizi daha çox hansı məqam cəlb etdi?***

- Azərbaycan Prezidenti 2016-cı ilin dərin islahatlar ili olacağını bəyan etdi. Bu isə o deməkdir ki, islahatlar bütün sahələri əhatə edəcək. Müstəqil olaraq qiymətləndirmələr göstərir ki, islahatların həm struktur, həm də kadr dəyişiklikləri ilə müşahidə edilməsinə ehtiyac var. İqtisadi və Sosial İnkişaf Mərkəzinin *(İSİM)* 2011-ci ildə hazırladığı strategiya sənədinə dövlət qurumlarının sayının birinci mərhələdə 30-ədək endirilməsi təklif edilirdi. İkinci mərhələdə bu sayın daha da azaldılmasına ehtiyac var idi. Düşünürəm ki, bu prosesə başlamaq lazımdır. Bu, olduqca vacibdir.

***- Bəzi ekspertlər, hətta hakimiyyətə yaxın deputatlar islahatlara yenilənmiş komanda ilə getməyi zəruri sayır. Siz necə bilirsiniz, bu komanda ilə islahatları həyata keçirtmək mümkündürmü?***

- İslahatlar eyni zamanda kadr dəyişiklikləri ilə müşahidə edilməlidir. Təbii ki, hökumətdə öz işini bilən və islahatlara töhfə verən kadrlar var. Bununla belə, məncə, kabinetə yeni nəfəsin də verilməsinə ehtiyac var. Ümumiyyətlə, iqtisadi çətinlik və ya böhran dövrlərində hökumətə yeni insanların cəlb edilməsi hər zaman prioritet məsələlərdən olur. Çünki bu həm iqtisadi siyasətlə bağlı müzakirələrə yeni çalar qatır və cəmiyyətə də ciddi mesaj olur. Digər ölkələrinin də təcrübəsi də göstərir ki, kabinetin yeniləşməsi məhz islahatlar çərçivəsində atılan addımlardan biri olur. Hökumətin cəmiyyətin və eləcə də ekspert icmasının fikirlərini də nəzərə almasına ehtiyac var. Xatırlayırsınızsa, mən dekabrın sonlarında elə sizinlə söhbətimizdə ilk dəfə olaraq ÜDM-də xarici borcun payının 20 faiz olduğunu nəzərə alaraq, Azərbaycanın daha 7 milyard dollar xarici borc cəlb etməsini təklif etmişdim. O zaman hökumət buna isti yanaşmadı. Baxmayaraq ki, əsaslandırırdım ki, bu borc asılılığımızı artırmayacaq, xarici borcun payının beynəlxalq maliyyə qurumları tərəfindən tövsiyə edilən həddə olmasına imkan yaradacaq. Çünki xarici borcun ÜDM-də payına görə Azərbaycan MDB-də ən yaxşı göstəricilərə malik olan dövlətlərdəndir. Bu isə borclanma limitimizin olmasından xəbər verir. Təbii ki, 80-100 milyard dollarlıq borcun alınması ilə bağlı fantastik təkliflər heç bir halda müzakirə edilə bilməz və bu ölkəni ciddi borc asılılığına sürükləyə bilər. Məqbul borclanma valyutaya olan cari tələbin ödənilməsi üçün vacib hesab edirdim. Nəhayət, bu ayın 18-də keçirilən müşavirədə ölkə prezidenti borclanma ilə bağlı göstəriş verdi.

***- Və Azərbaycan 4 milyard dollarlıq borclanmaya qərar verdi. Baxmayaraq ki, ekspertlər buna görə ittiham olunurdu...***

- Əslində, bu və digər faktlar ondan xəbər verir ki, bəzi məmurlarımız ekspertləri ittiham etsə belə, cənab prezident yalnız hökumət nümayəndələrinin deyil, bütün fikirlərlə, o cümlədən ekspertlərin də təklifləri ilə tanış olur və məqbul hesab edilənlərin reallaşması ilə bağlı tapşırıqlar verir. Xatırlayırsınızsa, prezident ötən il media nümayəndələri ilə görüşəndə də məhz özü birbaşa mətbuatla tanış olduğunu demişdi.

***- Sənaye müəssisələrinin yaradılması, yerli istehsalı artırmaqla bağlı proses vaxt aparan işlərdir. Bəs, hazırkı dövr ilk öncə hansı işlərə başlanılmasını tələb edir? Əhalinin vəziyyətinin getdikcə pisləşməməsi, daha arzuolunmaq situasiyanın yaranmaması üçün nələrdən başlamaq lazımdır? Xüsusilə də bankdan asılı olan vətəndaşlarla bağlı təşəbbüslərin kağız üzərində qalması ciddi narahatlıq və narazılıq yaradır...***

- Təbii ki, indi ən çox müzakirə edilən məsələ indiki halda hökumət nələri etməsi ilə bağlıdır. Düşünürəm ki, monetar siyasət daxil olmaqla mövcud iqtisadi siyasətin post-neft və ya böhran dövrünə uyğunlaşdırılmasına ehtiyac var. Hazırda Mərkəzi Bank və bütövlükdə hökumətin mövcud iqtisadi siyasətinin iki əsas prioriteti var: inflyasiyanı tənzimləmək və milli valyutanın məzənnəsinin potensial kənarlaşmalarının qarşısını almaq və ya yubatmaq. Bu prioritetlər vacibdir, amma bunlar heç də iqtisadi çətinlik və ya böhran dövrünün əsas hədəfləri deyil və ola da bilməz. Pul bazasının inzibatı metodlar ilə məhdudlaşdırılması qısa müddətli dövrdə prosesi tənzimləməyə imkan versə də orta və uzun müddətli dövrdə neqativ nəticələrə gətirib çıxara bilər. Əslində manatın birinci devalvasiyasından sonra hökumət məhdudlaşdırıcı iqtisadi siyasətini dəyişib iqtisadi aktivliyi stimullaşdıran siyasət həyata keçirməyə başlamalı idi. Bir neçə ölkədə anti-böhran çalışmalarına cəlb edilən iqtisadçı kimi qeyd edə bilərəm ki, pul bazasının məhdudlaşdırılması hesabına real sektorda aktivliyi azaldan mövcud iqtisadi və monetar siyasətin tamamilə dəyişdirilməsinə ehtiyac var. Məhdudlaşdırıcı monetar siyasət isə bu pulların real sektora daxil olmasına imkan vermir. Nəticədə bu manatin inzibati yolla məzənnəsinin saxlanmasına səbəb olsa da, nə dollara olan tələb ödənilir, nə də yeni iş yerlərinin açılmasına xidmət edən siyasətin həyata keçirilməsinə imkan verir. Mərkəzi Bankın mövcud məhdudlaşdırıcı siyasəti məşğulluq sektoruna mənfi təsir göstərir və buna görə də, mövcud siyasətinin anti-böhran və ya canlanma tədbirləri ilə əvəzlənməsi olduqca vacibdir. Bu baxımdan, məncə, hökumət xarici borcu cəlb etdikdən sonra real sektora birbaşa güzəştli kreditlərin ayrılması yolu ilə “isti pulların” dövriyyəyə daxil olmasına çalışmalıdır.

***- Ölkə başçısı çıxışında məmurları təvazökar olmağa çağırdı. Azərbaycanda bu kriteriyaya cavab verən nə qədər məmur var?***

- Məmur təvazökar olmalıdır. Amma etiraf edək ki, bizdə təvazökar məmurlarımız elə də çox deyil. Xüsusən də əksər yerli icra hakimiyyəti orqanları başçıları vətəndaşlarla hər zaman bir sədd saxlamağa çalışırlar. Düzdür, vətəndaşlar, ekspertlər və hətta beynəlxalq ekspertlərlə ünsiyyətdən qaçmayan nazirlərimiz də var. Onların sayı heç də az deyil. Bir misal çəkim. Tbilisinin indiki meri ilə uzun müddət xaricdə birgə proqramlarda iştirak etmişik. O, bir neçə il öncə Gürcüstan Regional İnkişaf və İnfrastruktur naziri idi. Rəhbərlik etdiyi nazirlik büdcəsinə görə o, ölkədə ikinci ən böyük nazirlik idi. O nazir olan zaman mən Gürcüstana səfər etdim və demək olar Tbilisi hava limanina düşən kimi zəng etdi, necə uçduğumu soruşdu. Daha sonra görüşdük və Tbilisinin mərkəzindəki kafelərdən birində şam etməyə getdik. Biz nə xüsusi kabinetdə oturduq, nə də xüsusi restorana getdik. Təsəvvür edin ki, kafedə yemək yeyən insanlar üçün də nazirin gəlib onlarla birgə ümumi salonda oturub yemək yeməsi adi hal idi. Heç kəs nə ona baxırdı, nə də yaxınlaşırdı. Mənim dostum da özünü çox rahat hiss edirdi. Amma bizdə, kafedə və digər müştərilərin əyləşdiyi ümumi salonda şam edən nazir görmüsünüzmü? Məncə, bizim məmurlar da insanlar arasında çox olmalıdırlar. Daimi olaraq əhali ilə ünsiyyətdə olmalıdırlar ki, əhali məmurlarla özü arasında da bir sədd hiss etməsin.

***- Müşavirədə ölkədə özəlləşdirmənin növbəti mərhələsinin başlanılması barədə tapşırıqlar verildi. Necə bilirsiniz, özəlləşmə hansı sahələrdə aparıla bilər və bu prosesdə sui-istifadələrin olmaması, ölkənin böyük faydalar götürməsi üçün nə etmək lazımdır?***

- İndiki iqtisadi vəziyyətdə özəlləşdirmənin həyata keçirilməsinin üç mühüm məqsədi olmalıdır və prosesə onlara nail olmağa hədəflənməlidir. Birinci məqsəd ölkəyə investisiyanın cəlb edilməsi ilə bağlıdır. Prezident xarici investorların özəlləşdirmə prosesinə cəlb edilməsinin əhəmiyyətindən danışdı. Eyni zamanda, xarici investorların özəlləşdirmə prosesində iştirakının artırılmasında marağın yaradılması, fəaliyyətin həyata keçirilməsi ilə bağlı tapşırıqlarını verdi. Məqsəd yalnız yerli deyil, həm də xarici investorların cəlb edilməsi yolu ilə ölkəyə valyuta axınına nail olmaqdan ibarətdir. Çünki ölkəyə valyuta axınının olmasına ehtiyac var. Valyuta axını isə birbaşa xarici investorların ölkəyə daxil olması ilə mümkündür. Beynəlxalq ekspertlərin iştirakı ilə geniş özəlləşdirmə proqramı hazırlanmalı, bu işə xarici və yerli investorlar cəlb olunmalı, iqtisadi canlanmaya nail olmaq üçün biznes mühiti daha da yaxşılaşdırılmalıdır. İkinci əsas məqsəd özəlləşdirmə nəticəsində büdcəyə daxilolmaları artırmaqdan ibarətdir. Neftin dünya bazarında qiyməti aşağı düşdükcə Azərbaycanın dövlət gəlirləri son bir ildə 3 dəfə azalıb. Büdcə gəlirlərinin artırılması üçün əlavə gəlir mənbələrinin müəyyənləşdirilməsinə və istifadə edilməsinə ehtiyac var. Əlavə gəlir mənbələrindən biri də özəlləşdirmədir. Özəlləşdirmə dövlət büdcəsinə əlavə vəsaitlərin daxil olmasına imkan yarada bilər. Sonuncu məqsəd isə idarəetmədə çevikliyin formalaşdırılmasıdır. Xüsusilə tənzimlənən qiymətlər olan sektorlarda özəlləşdirmə prosesini həyata keçirməklə daha çevik idarəetmə sisteminin formalaşmasına nail olmaq, qərarların verilməsi prosedurlarının şəffaflaşdırılmasını həyata keçirmək mümkündür. O baxımdan əslində özəlləşdirmə prosesinə yalnız dövlət mülkiyyətinin özəl mülkiyyətə keçməsi kimi baxmaq düzgün olmazdı. Çünki bu həm də qeyd etdiyim üç əsas məqsədi ehtiva edir.

***- Konkret olaraq özəlləşdirilməli müəssisələrə gəlsək...***

- İlk olaraq “Azərbaycan Hava Yolları”nın *(AZAL)* özəlləşdirilməsi vacibdir. AZAL-ın səhmlərinin ən azı 49 faizinin özəlləşdirilməsi və satılmasını təklif etmişdik. Çünki bu, vəsait əldə etmək cəhətdən vacibdir. Xarici investorları bu tip şirkətlərin özəlləşdirilməsinə cəlb etmək asandır. Həm də bu, korporativ idarəetmə sisteminin formalaşdırılmasına kömək etmiş olacaq. Çünki AZAL-la bağlı ən ciddi məsələlərdən biri xərclərin yüksək olması və korporativ idarəetmə sisteminin formalaşdırılmaması ilə bağlıdır. Özəlləşdirmə daha yaxşı idarəetmə sisteminin formalaşmasına imkan verə bilər. Enerji sektorunda özəlləşdirmənin davam etdirilməsinin tərəfdarıyıq. “Azərenerji”nin səhmlərinin mərhələli özəlləşdirilməsi mümkündür. Çünki bu, vəsait cəlb etmək imkanlarına malikdir. Kommunal xidmətlərin, o cümlədən “Azərsu”nun özəlləşdirilməsinə ehtiyac var. Çünki kommunal xidmətlərin göstərilməsində, xüsusilə bu ilin qış aylarında problemlər müşahidə olundu. Bu da birbaşa idarəetmənin çevik olmadığını göstərdi. O baxımdan idarəetmədə çeviklik yaratmaq üçün bu sektorlarda da özəlləşdirmənin aparılmasına ehtiyac var. Rabitə sektorunda fəaliyyət göstərən bəzi dövlət şirkətlərinin özəlləşdirilməsinin də mümkündür. Mövcud mülkiyyət növlərinə baxsaq, qeyd etdiyimiz sektorla yanaşı, özəlləşdirmənin aparılması ilə bağlı xeyli imkanlar və şirkətlər var. Onların özəlləşdirməyə açılması birmənalı şəkildə imkan verəcək ki, həm valyutaya olan tələbatın ödənilməsində yeni mənbə əldə etmək mümkün olsun, həm də təbii ki, bu, iqtisadi aktivliyə şərait yaradacaq.

❑ **Elşad PAŞASOY**

# Vergilər nazirinin müşavirinin adı müdhiş təhsil maxinasiyasında

## Azərbaycan Universiteti ilə bağlı beynəlxalq qalmaqal; tələbələri Corciya Universitetində təhsillə şirniklədirib aldadan şəbəkə haqda sensasion məlumatlar





Azərbaycan Universiteti İqtisadiyyat və İdarəetmə fakültəsi

AZƏRBAYCAN UNİVERSİTETİNİN
rektoru h.f.d. Fərid T. ƏHMƏDOV

Hörmətli Fərid müəllim,

07.03.2015-ci il tarixdə Sizə təkrar mənimsəmə dərsini tədris edən müəlimin dəyişdirilməsi ilə bağlı müraciət edən V təhsil ili Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə 104105 saylı qrup tələbəsi Əkbərli Atiq Zəfər oğlu, Humanitar fənlər fakültəsi Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə 112101 saylı qrup tələbələri Həşimli Rafail Zakir oğlu və Səmədov Vaqif Ənvər oğlunun tələbləri araşdırılmışdır.

Məlumat olaraq bildirirəm ki, 104105 saylı qrup tələbəsi Əkbərli Atiq Zəfər 07.03.2015-ci il tarixdə dekan müavini Vüqar D. Bağırlıya İqtisadi nəzəriyyədən təkrar mənimsəmə dərsini tədris edən müəllim Zamin Babaşovun Ülviyyə İbrahimli ilə əvəz edilməsinin mümkünlüyü ilə bağlı müraciət etmişdir. Müraciətin səbəbini soruşduqda səbəb olaraq 5 il təhsil aldığını və müəllimin onları "yola verməməyini" göstərmişlər. Vüqar Bağırlı haqlı olaraq bu tələbin əsaslı olmadığını bildirmişdir.

Tələbələrlə görüşdüyüm zaman onlar bunu bir daha təsdiq etdilər. Müəllimin obyektiv olmaması və ya keyfiyyətsiz dərs keçməsi haqqqında bir əsas yoxdur. Tələbkar müəllimlərin tələbələrin müraciəti ilə dəyişdirilməsi məqbul sayıla bilməz.

**Azərbaycan Universitetində baş verən qanunsuzluqlarla bağlı redaksiyamıza məlumatlar, məktublar, foto-videolar daxil olub. Məlumata görə, 2008-ci ildən etibarən universitetdə bakalavr və magistr hazırlığı üzrə ABŞ-ın Corciya Universiteti ilə birgə təhsil proqramının tətbiq edilməsi haqda elanlar yayılıb, reklamlar verilib.**

**Reklam və elanlardakı iddiaların saxta olduğu, tələbə cəlb etmək üçün yalan üzərində qurulduğu çox sonralar üzə çıxıb. Belə ki, qeyd olunan proqram "Biznesin təşkili və idarə olunması" istiqamətində "Menecment", "Marketinq", "Maliyyə", "Mühasibat uçotu", "Dünya iqtisadiyyatı" ixtisasları üzrə ingilis dilli təhsili nəzərdə tutub.**

Universitet rəhbərliyinin sifarişi ilə yayılan reklam çarxlarında proqrama daxil olan ixtisaslar üzrə tam kurs keçmiş tələbələrə ABŞ-ın Corciya Universitetinin və Azərbaycan Universitetinin ikili beynəlxalq səviyyəli diplomu veriləcəyi də bildirilib. Bu proqram üzrə ilk məzun buraxılışı 2012-ci ildə olub. Lakin nə bu proqramın 2012-ci ildəki ilk buraxılışının, nə də sonrakı buraxılışlarının məzunlarının heç birinə beynəlxalq səviyyəli ikili diplom verilməyib. Məzunlara təqdim edilən diplomların yalnız Təhsil Nazirliyi tərəfindən təsdiq olunduğunu görən tələbələr və onların təhsil haqqı ödəyən valideynləri haqlı narazılıqlarını bildiriblər. Axı bu proqrama daxil olan eyni ixtisaslar üzrə milli diplom verilən Azərbaycan və rus bölmələrində bakalavr hazırlığı üzrə Azərbaycan Universitetinin müəyyən etdiyi təhsil haqqı 500 manat azdır. Maraqlıdır ki, 2008-ci ildən, yəni proqramın tətbiq olunduğu tarixdən etibarən TQDK-nın rəsmi saytı və rəsmi nəşr orqanı olan "Abituriyent" jurnalının əvvəlki illərdəki saylarında Azərbaycan Universiteti barədə məlumatlarda ikili diplom və müvafiq olaraq təhsil haqqının hər il üçün azı 500 manat artıq olduğu haqda qeydlər var. Yaranmış situasiyada Azərbaycan Universiteti məzunlara ya vəd etdiyi ikili diplomu təqdim etməli, ya da əlavə ödənilən təhsil haqlarını geri qaytarmalıdır!

Məsələnin digər tərəfi də maraq doğurur. İkili diplom vədinin saxtalığı üzə çıxsa da, hazırkı dövrdə də universitetdə bu proqram üzrə təhsil alan tələbələr var.

**Bundan başqa bildirilir ki, universitetin sabiq rektoru, hazırda özəl universitetin rəsmi təsisçisi olan dövlət məmuru - vergilər nazirinin müşaviri Akif Musayev ikili diplomla bağlı hələ də reklam etməkdədir.**

Bəs ikili diplomun verilməməsi, öz üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq Corciya Universitetinin azərbaycanlı tələbələrə diplom təqdim etməməsinin səbəbi nədir? Hansı səbəbdən bu proqram üzrə təhsil alan tələbələr Azərbaycan Universiteti tərəfindən vəd olunduğu kimi Corciya Universitetinə təhsil almağa göndərilmirlər? Axı onlar təhsilin iki ilini Azərbaycanda, qalan iki ilini isə ABŞ-da keçməli idilər. Bu proqram üzrə daha yüksək təhsil haqqı da bu səbəbdən müəyyən edilmişdi. Corciya Universiteti isə öz növbəsində rəsmi razılaşmaya uyğun olaraq güzəştli şərtlərlə azərbaycanlı tələbələrə təhsil xidmətləri təqdim etməli idi. Azərbaycan Universitetinin bu proqram üzrə təhsil alan heç bir tələbəsi universitet tərəfindən təhsilinin iki ilini Corciya Universitetində keçmək üçün göndərilməlidir. Tək-tük tələbələrin bir neçəsi tədris ilindən də çox qısa müddətə Corciya Universitetinə göndərilsə də, onların heç biri məlum səbəbdən sertifikat belə ala bilməyib. Məlum oldu ki, bu beynəlxalq proqram bir sıra MDB ölkələrində tətbiq olunmuş və bəzi hallarda müvəffəqiyyətsizliyə uğrayıb.

**Bu proqram üzrə tam kursu bitirən tələbələrə Corciya Universitetinin Mak Robinson Kollecinin verdiyi sertifikat bakalavr dərəcəsini təsdiq edən rəsmi sənəd-diplom sayıla bilərmi?!** Sadə kurs kimi sertifikat verən Kollec proqramının Azərbaycan Universitetinin bakalavr və magistr hazırlığı proqramı ilə necə eyniləşdirərək rəsmən təsdiq etdiriblər?

Məlum səbəblərdən adının gizli qalmasını istəyən universitetin müəllimlərindən biri maraqlı məqamları açıqlayıb: "Bir neçə ildir Azərbaycan Universitetində işləyirəm. Universitetdə əvvəllər xüsusi fənn monopoliyası şəbəkəsi yaradılmışdı. Müəyyən fənləri yalnız rəhbərliyə yaxın olan və qohum-əqrəba, dost-tanışlar vasitəsilə qəbul edilən konkret müəllimlərə təhkim olunurdu. Lazım olanda müəyyən tələbələr semestr imtahanları və kəsrlərdən bu müəllimlərin vasitəsilə keçirilirdi. 2011-ci ildən sonra universitetə yeni inzibati kadrlar və müəllimlərin gəlişi ilə bu şəbəkə universitetin daxilindəki sağlam, əvvəlki şəffaflığı bərpa etməyə çalışan qüvvələrin cəhdləri ilə dağılmağa başladı. Monopoliyada olan fənlər universitetə yeni cəlb edilən elmi dərəcəli və müvafiq sahələr üzrə ixtisaslaşmış peşəkar kadrlara təhkim edilməyə, savadı və peşəkarlıq səviyyəsi aşağı olan, zəif biliyə malik olan tələbələrə himayədarlıq edən müəllimlər isə tədris prosesindən və universitetdən uzaqlaşdırılmağa başladı. Fənlərin monopoliyasının dağıldığını görən şəbəkə üzvləri gəlirlərinin qarşısının kəsildiyi gördükdə hər vasitə və yollarla bu tədbirlərə qarşı çıxırdılar. Fərid Əhmədov rektor təyin edildikdən sonra bu monopoliya yenidən bərpa edilməyə başladı".

**Müəllim bildirib ki, Fərid Əhmədov təhsil və elm sahəsində uzun illər təcrübəsi olan dekanlar, dosent Akif Əlizadə və 15 ildən yuxarı Azərbaycan Universitetində dekan, kafedra müdiri, prorektor vəzifələrini icra etmiş elmlər namizədi, dosent Mahir Talışlını tutduğu vəzifələrdən uzaqlaşdırıb.**

Azərbaycan Universitetində bəzi müəllimlərə ixtisasına uyğun olmayan fənlərin tapşırıldığı haqda da məlumat var: "Təsisçisi baza ixtisası riyaziyyatçı olan AMEA-nın müxbir üzvü Akif Müsayev də baza ixtisasına uyğun olmayan sahə üzrə - iqtisadiyyat üzrə dissertasiya mövzularının koordinasiya şurasının sədridir. Avtomobil nəqliyyatı vasitələrinin yükdaşımaları sahəsinin riyazi təhlillərinə həsr edilmiş mövzuda dissertasiya müdafiə etmiş Akif Müsayevə akademik olmaq arzusuna çatmaq üçün akademiyada bir yer tapmaq lazım idi və bu istəyin qarşısında isə ixtisasın nə əhəmiyyəti var?! Yəqin Azərbaycan Respublikasında baza ixtisasları sırf iqtisadçı olan, sırf iqtisad elmləri sahəsində tədqiqatlar aparmış iqtisadiyyat üzrə fəlsəfə və elmlər doktorları tamamilə tükənərək yox olduğundan Akif Musayev bu şuraya sədr təyin edilib".

Fərid Əhmədovun dekan Elçin Rəşidovu işdən çıxarmasına diqqət çəkən müəllim deyib ki, sonuncu Amerikada təhsil alıb, Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq Əlaqələr Şöbəsinin müdiri vəzifəsini icra edib, dünyanın aparıcı universitetləri və alimləri ilə geniş əlaqələrə malikdir: "Elçin Rəşidov Oksfordda fəlsəfə doktoru dissertasiyasını müdafiə edən ilk və yeganə azərbaycanlıdır. Amerikada təhsil aldığı universitetdə Elçin Rəşidovun müəllimləri olmuş Nobel Mükafatı laureatları məhz istedadlı tələbələrinin dəvəti ilə bir neçə il əvvəl Azərbaycana təcrübələrini bölüşməyə gəliblər. Universitetdə Fərid Əhmədov rektor təyin olunmazdan əvvəl Akif Əlizadənin dekan olduğu "İqtisadiyyat və idarəetmə" fakültəsində dərs deyən, dərsin keyfiyyətsizliyi və məsuliyyətsizliyinə görə dəfələrlə rəhbərlik tərəfindən iradlar bildirilən bir müəllimin dərsinin video və foto görüntülərini sizə təqdim edirik. Bu video lentdə dərs zamanı müəllimin mühazirə deyib, dərs keçmədiyi aydın görünür, tələbələr də bundan istifadə edərək auditoriyada yerdə divar boyu quraşdırılan, daxilində elektrik və internet şəbəkəsi naqilləri yerləşdirilən qutunu sökub içinə dəftər yerləşdirirlər. Dərsdə bir-birilərinə müxtəlif əşyalar atıb dava edirlər. Müəllim isə universitetin əmlakının dağıdılmasına heç bir reaksiya vermir. Bu müəllimin qeyri-qənaətbəxş fəaliyyəti nəzərə alınaraq növbəti dərs ilində ona dərs verilməyib. Lakin 2015-ci ilin noyabrında belə bir məsuliyyətsiz şəxsi yenidən universitetə qaytarıb "dekanlıq işini bilməyən" Akif Əlizadənin dekan olduğu "İqtisadiyyat və idarəetmə" fakültəsinin ixtisas kafedralarından birinə kafedra müdiri təyin ediblər. Fərid Əhmədov isə bizim kimi sadə müəllimləri məsuliyyətə çağırır! Universitetdə Fərid Əhmədovun yeni təyin etdiyi "nümunəvi dərsinin" video görüntülərini sizə təqdim etdiyimiz, heç bir təcrübəsi olmayan belə şəxslər dərs ilinin ortasında qeyri-qanuni təkrar dərs bölgüsü aparırlar. Bəlli məsələdir ki, Akif Əlizadə və Mahir Talışlı kimi dekanlar öz fakültələrində belə saxta dərs yükü bölgüsünü təsdiq etməzdilər".



MƏLUMAT

Sizin şifahi sorğunuza cavab olaraq bildiririk ki, mütamadi olaraq müəllimlərin dərslərində iştirak edir və bu dərslər müəllimlərlə birgə təhlil olunur. Universitet rəhbərliyi tərəfindən keçən tədris ilində keçirilən monitorinqin nəticələri müzakirə edilmiş, müəllimlərin qiymətləndirilməsi də həyata keçirilmişdir. Dördüncü kurslarda Ülviyyə İbrahimlinin tədris etdiyi "İqtisadi nəzəriyyə" dərslərində də bir neçə dəfə iştirak edilmiş və nəticəsi müəllimlərin özü ilə müzakirə olunmuşdur. Qeyd edim ki, müəllimin dərs intizamı normaldır, gecikmə və dərsə gəlməmək halları çox təsadüfi baş vermişdir. Lakin yüksək dərs keyfiyyətindən söhbət belə gedə bilməz. Dərsin keyfiyyəti lazımı səviyyədə deyildir. Əyani və texniki vəsaitlərdən demək olar ki, istifadə olunmur. Keçmiş ən-ənəvi qaydalarla dərsini başa vurur.

Jurnallar doldurularkən bütün tələbələrin hər biri yalnız 3 dəfə qiymətləndirilib, əlavə olaraq heç kim 4 və ya 5 dəfə qiymətləndirilməmişdir. Sənədə baxdıqda formalizm özünü göstərir. Şahmat formasında qiymətlər jurnala düzülmüşdür. Əlavə esse yazdırılmır və yaxud başqa vasitələr tətbiq olunmur. Tələbələrin aldığı qiymət toplanıb və ümumi qiymət çıxarılır. Qiymətləndirilmədə sırf formalizm olduğu görünür. Müəllimin dərsə hazırlığı da qənaətbəxş deyildir. Normal qaydada hazırlığı olmadığından bəsit və səmərəsiz dərs keçirilir. Nəticədə keyfiyyətsizliyə gətirib çıxarır. Bu da təcrübəsizlik və aşağı səviyyədə hazırlığın nəticəsidir.

Fakültə dekanı: dos.M.İ.Talışlı

**Müəllim deyir ki, Azərbaycan Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri Fəxrəddin Məhərrəmov universitetdə baş verən qanunsuzluqlara göz yummadığı üçün tutduğu vəzifədən çıxarılıb:** "Rektorun işçilərin hüquqlarının pozması və onun əlaltılarının kollektivdə yaratdığı qeyri-sağlam mühit, qeyd olunan digər neqativ hallar barəsində Həmkarlar İttifaqı Komitəsinin sədri Fəxrəddin Məhərrəmov məlumat verməkdir. Sədr rektorun əməllərinin qanunsuz olduğunu qeyd etdikdən sonra məzuniyyətdə olduğu müddətdə qanunsuz işdən çıxarıldı. Onun yerinə əvvəllər universitetin Həmkarlar İttifaqı Komitəsinin üzvü olmayan, rektorun yaxın dostu və həmyerlisi təyin olunub".

**"Yeni Müsavat" əməkdaşı Fəxrəddin Məhərrəmovla əlaqə saxladıqda o, universitet əməkdaşlarının məktublarında göstərdikləri faktları təsdiq edib. Deyib ki, işçilərin adlarının gizli saxlanılması istəklərinin səbəbini çox yaxşı başa düşür:** "Onlar rektorun təqiblərindən ehtiyat edirlər. Əgər işçilərin hüquqlarını müdafiə edən müstəqil təşkilatın rəsmi nümayəndəsi olduğum halda mənə qarşı qərəzli mövqe tutularaq qeyri-qanuni işdən çıxarılıramsa, sadə işçilərə qarşı hansı əməllər törədildiyini təsəvvür edin. İşçilər tərəfindən sizə təqdim olunan sənəd, foto, video görüntülər isə danılmaz faktlardır və onların haqlı olduğunu bir daha sübut edir. Bu faktları isə heç bir şəkildə inkar etmək olmaz".

**İddialara münasibət öyrənmək üçün Azərbaycan Universitetinin mətbuat xidmətinin rəhbəri Venera Şərifzadə ilə əlaqə saxladıq. Xidmət rəhbəri ikili diplomla bağlı elanlara diqqət yetirilməli olduğunu vacib saydı:** "Orada yazılmayıb ki, ikili diplom verilir. Yazılıb ki, sertifikat verilir, amma gələcəkdə ikili diplom ola bilər. Bundan başqa universitetdə müqavilə var və dəfələrlə də həmin universitetin rektorları Amerikadan universitetimizə gəliblər. Bunu təsdiq edən foto-videomateriallar da var".

**V.Şərifzadə deyir ki, hazırkı tədris ilində 8 tələbə ABŞ-a göndərilib:** "Müvafiq ballar var, o balları toplayan uşaqlar orada gedib təhsillərini davam etdirə bilirlər. Həmin tələbələrin bütün xərclərini universitet qarşılayır".

**Xidmət rəhbəri dekanların tutduğu vəzifələrdən çıxarılmasını kadr islahatları ilə əlaqələndirib:** "Bütün universitetlərdə belə kadr dəyişiklikləri var və bunun bir çox səbəbi ola bilər. Deyilən dekanların işdən çıxarılmasının səbəbini bilmirəm. Amma ola bilər ki, özlərinin istəyi ilə, işlərinin çoxluğu ilə əlaqədar tutduqları vəzifədən gedə bilərlər. İl ərzində o qədər işçi dəyişir ki".

**Xidmət rəhbəri Azərbaycan Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri Fəxrəddin Məhərrəmovla əlaqəli hər hansı bir məlumata malik olmadığını söylədi.**

**❑ E.HÜSEYNOV**

Yeni MÜSAVAT
N 22 (6393) 30 yanvar 2016

# Azərbaycanda niyə dedektiv yoxdur?

## Müzəffər Baxış: "Bizdə dedektivlik fəaliyyəti haqqında bir qanun yoxdur"


Müzəffər Baxış

**Son vaxtlar itkin düşən şəxslərin sayında xüsusi artım müşahidə edilir. Bu cür xəbərləri tez-tez sosial şəbəkələrdən, mətbuatdan oxuyur, eşidirik. Polislər bu cür şəxslərin axtarışını aparsa da, itkin düşmüş insanların tapılması aylar çəkir. Bəzən isə müsbət bir nəticə əldə edə bilmirlər. Bu cür situasiyalar isə dedektivlik mövzusunu bir daha gündəmə gətirir. Dünyanın bir sıra ölkələrində özəl dedektivlər fəaliyyət göstərir. Hər hansı cinayət işinin açılmasında, itkin düşmüş şəxsin axtarılmasında, kiminsə izlənilməsində həmin dedektivlər aktiv iştirak edir.**

Dedektiv dedikdə gözümüzün önünə uzun qara plaşlı, şlyapalı və lupalı bir insan, dedektiv modeli canlanır. Əslində isə belə deyil. Bu cür görkəmdə dedektivlər yalnız filmlərdə və romanlarda olur. Bu xidməti göstərənlər isə adətən keçmiş polis işçiləri və ya hüquqşünaslar olur. Bəzi ölkələrdə dövlət işçisi olmayan xüsusi dedektivlər də var. Dedektiv bacarıqlı və səbirli olmalıdır, çünki araşdırdığı mövzuda yalnız bir ipucu tapmaq üçün belə aylarla çalışmaq məcburiyyətində qala bilər. Dedektivlərin əsl işi günahkarı tutmaq yox, təsbit etmək, dedektiv xidmətinə müraciət edən şəxslə təsbit edilmiş məlumatları paylaşmaqdır. Sonrakı müdaxilələr isə təhlükəsizlik güclərinin məsuliyyətindədir.

Dünyada dedektiv xidməti geniş yayılan və gəlirli sahələrdən olsa da, Azərbaycanda bu xidmət yoxdur və qanunla qadağandır. Yalnız 1996-cı ildə Azərbaycanda da dedektivlik bürosu yaradılsa da, onların fəaliyyəti cəmi bir il çəkdi. Hazırda isə Azərbaycan qanunvericiliyinə görə dedektivlik fəaliyyəti qadağandır.

**Hüquqşünas Müzəffər Baxış** dedektivlik haqqında qanun olmadığını dedi: "Bizdə dedektivlik fəaliyyəti haqqında bir qanun yoxdur. O vaxt Azərbaycan Miqrasiya Mərkəzi İctimai Birliyinin sədri Ələvsət Əliyev belə bir təkliflə çıxış etdi və belə bir qanun layihəsini hazırladı. Bu qanun layihəsi Milli Məclisə təqdim olundu. Orada bir sıra cinayətlərin və hadisələrin açılması üçün dedektiv fəaliyyətin bəlli olduğu barəsində öz fikirlərini əsaslandırdı. Biz o vaxt Milli Məclisin bir deputatlarını da bu fəaliyyətə qoşduq. Amma bu məsələ öz həllini tapmadı. Yəni Azərbaycanın qüvvədə olan qanunvericiliyinə görə dedektiv fəaliyyəti ilə məşğul olmaq qadağan edilir. Bu nöteyi-nəzərdən Cinayət Məcəlləsinin 302-ci maddəsində buna görə cinayət məsuliyyəti nəzərdə tutulub. Dedektiv fəaliyyəti əslində əməliyyat axtarış fəaliyyətidir. Cinayət Məcəlləsinin 302.1-ci maddəsinə görə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olmayan şəxslər tərəfindən belə tədbirlərin keçirilməsi 500 manatdan min manatadək miqdarda cərimə və ya 2 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Belə bir qaydanın nəzərdə tutulmasına görə bu fəaliyyətlə indiki halda heç kim məşğul ola bilməz".

**Hüquqşünas bildirdi ki, müəyyən insanlar var ki, bu sahədə özlərini professional hesab edir və qanun onların çalışmasına icazə verməlidir**: "Düşünürəm ki, ictimai münasibətlərin inkişafı ilə əlaqədar olaraq ola bilsin ki, gələcəkdə Azərbaycanda belə bir fəaliyyətə icazə verdilər və müəyyən bürolar yaradıldı. Bu haqda qanun qəbul edilsin və həmin qanunun müddəalarına əsasən bu və digər istiqamətdə dedektiv fəaliyyətinə icazə versinlər. Hələlik isə buna icazə yoxdur. Əgər qanun olsa, həmin qanun çərçivəsində müəyyən insanlar var ki, özlərini bu sahədə professional hesab edirlər və düşünürlər ki, onlar müəyyən cinayətlərin açılmasında bu xidməti göstərə bilərlər. Düşünürlər ki, onların bu xidməti müsbət nəticə verə bilər. Onlar bunu onunla əsaslandırırlar ki, uzun müddət hüquq mühafizə orqanlarında işləyiblər. Hüquq mühafizə orqanlarından çıxandan sonra onların bu sahədə kifayət qədər bilikləri var. Bu biliklərdən istifadə edərək cinayətlərin açılmasına, itkin düşmüş şəxslərin tapılmasına və digər əməliyyat axtarış fəaliyyətin predmetinə daxil olan işlərin həyata keçirilməsində dövlət orqanlarına kömək edə bilərlər. Amma təəssüflər olsun ki, hələlik bizim qanunvericilik buna icazə vermir".

❑ Günel MANAFLI

# Ruhaniyə görə Romada heykəllərin "abıra salınması" doğru idimi?

## Kənan Rövşənoğlu: "Bu sadəcə, hörmət əlaməti, jestdir..."

**Xəbər verdiyimiz kimi, İran prezidenti Həsən Ruhaninin İtaliya səfəri zamanı bu ölkənin muzeylərində saxlanılan bəzi heykəllər bağlanıb. İtaliyanın "Corriere Della Sera" qəzetinin yaydığı xəbərə görə, Ruhaninin Romaya özü ilə gətirdiyi nümayəndə heyəti arasında olan xanımlara qarşı tərəfin rəsmiləri tərəfindən əl uzatmaq, açıq söhbət etmək və sairə qadağalar qoyulub.**

Qəzet yazır ki, İtaliya prezidenti Sergio Mattarella ilə baş nazir Matteo Renzi arasında səfərdən öncə bu barədə danışıqlar olub. Danışıqlar zamanı qərara alınıb ki, İran prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətinin muzeylərlə tanışlığı zamanı orada saxlanılan lüt heykəllərin üzəri örtülsün, nümayəndə heyətinə şərab və digər alkoqollu içkilər təklif olunmasın. İran prezidentinin səfərinin ilk günü deyilənlərə əməl olunub. Belə ki, Həsən Ruhani İtaliyada muzeyi gəzən zamanı orada saxlanılan bütün lüt heykəllər bağlanıb.

Bu olay dünya mediasında ciddi müzakirələrə səbəb olub. Baş verməiş jesti dini tolerantlıq olaraq qiymətləndirənlərlə yanaşı, bunu mədəniyyəti dinə qurban vermək kimi xarakterizə edənlər də var. Bununla yanaşı, müsəlman ölkələrindən gələn mühacirlərə qarşı Avropadakı münasibətin fonunda son addımı dinlərarası münasibətləri tənzimləmək cəhdi olaraq qiymətləndirən ekspertlər də məsələyə fərqli yöndən baxmağı təklif edirlər.


Kənan Rövşənoğlu

**Dini ekspert Kənan Rövşənoğlu** hesab edir ki, bu, birinci belə hal deyil. Bundan öncə Türkiyənin o zamankı prezidenti Abdullah Gül Kremldə ziyafətə gedəndə içkilər yığışdırılıb. Onun fikrincə, bunu müsəlman liderlərin inancına hörmət olaraq edirlər: "Təbii ki, hörmət edən qarşılığını da umar. Amma məncə, avropalılar, italyanlar xüsusən də İran prezidentinin dindar müsəlman olması və İranın bu kimi məsələlərə çox həssas yanaşdığını nəzərə alıblar. Məsələn, İtaliyadan olan qadın diplomat da İranda başına yaylıq bağlamışdı. Amma bunu özəl olaraq qarşılıq gözlədikləri üçün etdiklərini düşünmürəm. Bu sadəcə, hörmət əlaməti, jestdir".

**Müsahibimiz hesab edir ki, Avropadakı miqrantlar, onların olduqları ölkələrdə bəzən törətmiş olduqları olaylarla bu jestin heç bir əlaqəsi yoxdur, çünki bəzi təxminlərə görə, miqrantların olduqları toplumlarda yerli əhaliyə qarşı göstərdikləri qeyri-tolerant münasibət yolverilməzdir və son jest də buna cavab olaraq verilib:** "7 il əvvəl Abdulla Gül Moskvaya gedəndə Kremldə ziyafətdə araq verməmişdilər, Gül dindar olduğu üçün. O zaman miqrant mövzusu heç gündəmdə deyildi".

**K.Rövşənoğluna görə, italyanlar da bu məsələdə bir az mübaliğəyə yol veriblər**: "Aşağı-yuxarı bir heykəldir. Daha real və praktik olan, məsələn, müsəlman şəxsə verilən ziyafətdə spirtli içkinin verilməməsidir. Hər kəs bilir ki, Romada o heykəllər var".

❑ Sevinc TELMANQIZI

# Qatarlara bilet almaq daha asanlaşdı

## İndi onlayn bileti reysə 3 saat qalmış almaq olar

**Ölkə daxilində və ölkədən kənara hərəkət edən sərnişin qatarlarına gediş biletlərinin İnternet şəbəkəsi vasitəsilə yeni online satış sistemi istifadəyə verilib.**



ANS PRESS-in məlumatına görə, bu sistemlə sərnişin kassasına yaxınlaşmadan, www.ady.az saytının "Online bilet" bölməsinə daxil olmaqla, online rejimi ilə istənilən qatara gediş sənədi (bilet) almaq üçün sifariş edib, plastik kart vasitəsilə gediş dəyərini ödəyəcək.

Son illər ərzində «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyəti tərəfindən sərnişinlərə göstərilən xidmət mədəniyyətinin səviyyəsinin daha da yüksəldilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilir.

Bunlardan biri də bilet kassalarında avtomatlaşdırılmış bilet satışı sisteminin tətbiq edilməsidir. Bu işlər vətəndaşların sərnişin qatarlarına bilet almaq imkanlarını yaxşılaşdırmaq, onlara göstərilən mədəni xidmət səviyyəsini yüksəltmək və dəmir yolunda avtomatlaşdırılmış bilet satışı sisteminin tətbiqini daha da gücləndirmək məqsədi daşıyır. Online rejimi ilə gediş sənədi (bilet) üçün sifarişlər qatarın hərəkətə başlamasına 3 saat qalanadək aparılacaq. Qeyd olunanları nəzərə alaraq, anlaşılmazlıq olmasın deyə www.ady.az internet saytında sifarişlərin sənədləşməsi və gediş sənədlərinin alınması qaydaları ilə tanış olmaq və vaxtında sifarişi biletlə əvəzləndirmək lazımdır.

Bu rejimdə qatar, gediş tarixi, təyinat stansiyası barədə məlumatların daxil edilməsinə istifadəçi məsuliyyət daşıyır. Vətəndaş qatarın yola düşməsinə 1 saat qalanadək sifarişini və ya şəxsiyyətini təsdiq edən sənədi bilet kassasına təqdim etməklə gediş üçün bilet ala biləcək.

**Qatarlara minik gediş sənədi *(bilet)* və gediş sənədində *(biletdə)* qeyd edilən məlumatları təsdiq edən sənəd, yəni şəxsiyyəti təsdiq edən sənəd əsasında aparılır.**



# Rayonların işıq problemi aradan qalxıb

**Son günlər havanın soyuq keçməsi bəzi regionlarda problemlər yaradıb. Xüsusilə də ölkənin cənub bölgəsində elektrik enerjisinin verilməsində uzunmüddətli fasilələr yaşanıb.**

Məlumata görə, havanın qarlı olması səbəbindən yanvarın 26-dan etibarən Lerik, Yardımlı və Cəlilabad rayonunun dağ kəndlərində elektrik enerjisi kəsilib. Güclü qar yağması səbəbindən yolların da bağlanması, rayon sakinlərinin kənardan odun gətirmələrinə də mane olub. Bu səbəbdən sakinlər qarlı günlərdə xeyli əziyyət çəkdiklərini bildiriblər.

Məsələ ilə bağlı musavat.com-a danışan **"Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev** bildirib ki, problem hava şəraitinin pis olması ilə bağlı olub: "Oradakı kabellərdə və yaxud digər avadanlıqlarda hər hansı bir problem yoxdur. Yəni dağ kəndlərinə elektrik enerjisinin verilməsi, kabellərin köhnə olması, yaxud bu kimi məsələlərlə bağlı deyildi. Hava şəraiti qarlı və küləkli olduğu üçün orada qəza baş vermişdi. Dağ kəndləri olduğundan maşın və mexanizmlər qəza yerinə yetişə bilmirdilər. Lakin hazırda bütün problemlər aradan qaldırılıb. Kəndlərə də elektrik enerjisinin verilməsi tamamilə bərpa olunub".

❑ Əli RAİS

**Bu gün Avropa Şurası Parlament Assambleyasının qış sessiyası öz işinə başlayır. Xəbər verdiyimiz kimi, sabah sessiyada Ermənistan əleyhinə iki qətnamə layihəsi səsverməyə çıxarılacaq. Onlardan biri "Dağlıq Qarabağ və Azərbaycanın işğal edilmiş digər ərazilərində zorakılığın artması", o biri isə Sərsəng su anbarının qanunsuz istismarı haqdadır.**



# Təşəkkürlər, gürcü və ukraynalı deputatlar, Qarabağa görə!

## AŞPA sessiyasında gürcü və ukraynalı deputatların ölkəmizi dəstəkləyib qətnamələrin lehinə səs verməsi ətrafında Ermənistanda qalmaqal qalxıb; vəziyyətdən təlaşlanan yerli şərhçilər isə günahı işğalçı ölkənin diplomatiyasının uğursuzluğunda axtarmağı tövsiyə edirlər...

**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyasında işğalçı Ermənistan əleyhinə iki məlum qətnamənin müzakirəsi daha bir mühüm detalı üzə çıxarıb.** Bəlli olub ki, səsvermə zamanı qonşu və strateji tərəfdaş Gürcüstanla başqa strateji tərəfdaş və dost Ukraynanın nümayəndə heyətinin əksər üzvləri Azərbaycanın haqlı mövqeyini dəstəkləyiblər.

**Bunu, əlbəttə ki, ölkəmiz unutmayacaq.** Doğrudur, Azərbaycan da yeri gələndə analoji mövqe sergiləyib, bütün beynəlxalq təşkilatlarda, o cümlədən BMT və ATƏT-də daima bu iki dövlətin ərazi bütövlüyünü müdafiə edib, Gürcüstan və Ukraynaya qarşı işğalçılıq aktlarını pisləyib. Son olaraq, Azərbaycan 2014-cü ilin martında BMT-də Krımın ilhaqlı ilə bağlı səs vermə zamanı Rusiyanın deyil, dünya birliyin yanında yer alıb və Ukraynanın ərazi bütövlüyü və suverenliyinin əks olunduğu sənəd layihəsini dəstəkləyib.

**O zaman təcavüzkar Ermənistan öz müttəfiqi Rusiya və daha 9 "izqoy" dövlətlə birgə həmin sənədin əleyhinə səs vermişdi.** Bundan az öncə isə Ermənistan prezidenti Serj Sərkisyan rusiyalı həmkarı Vladimir Putinə telefon açaraq, Krımın işğalına "öz müqəddəratı təyinetmə" adı altında haqq qazandırmışdı.

Olaydan sonra Ukraynanın Ermənistandakı səfiri bir müddət etiraz əlaməti olaraq bu ölkəni tərk eləmişdi. Aydın məsələdir ki, təkcə bu faktın özü Ukrayna dövlətinin Azərbaycanın, daha dəqiqi, beynəlxalq hüququn yanında yer alması üçün kifayət idi. Ermənilər ayrı nə gözləyirdilər ki?

**O ki qaldı Gürcüstana, təbii ki, o da oxşar durumdadır**: onun da iki bölgəsi - Abxaziya və Cənubi Osetiya Rusiya tərəfindən zəbt edilib, orada rus hərbi bazaları yaradılıb. Ermənistan isə regionda məhz işğalçı Rusiyanın əsas forpostudur, onun "əlinə su tökən" rolundadır. Güney Qafqazda 5 min nəfərlik yeganə legitim Rusiya hərbi kontingenti (102 saylı hərbi baza) da yenə məhz Ermənistanda - Gümrüdədir. Üstəlik, dövlətçiliyi kağız üzərində olan Ermənistanın sərhədlərini də rus hərbçiləri mühafizə edir.

***

**Yeni İrəvan Rusiyanın bölgəni nəzarətdə saxlaması və burada işğalçılıq siyasətini davam etdirməsi üçün əsas amillərdən biridir.** Belə olan surətdə gürcü dövlətinin təmsilçilərinin də ermənilərə rəğbəti ola bilməz. Üstəgəl, Gürcüstanla Azərbaycan strateji sahələrdə, bir çox ortaq regional layihələr üzrə tərəfdaşdırlar.

**Ermənistan üçün isə Gürcüstan həm də xaricə çıxış baxımından əsas qapıdır.** Görünür bu üzdəndir ki, gürcü deputatların Qarabağ qətnamələrini dəstəkləməsinə Ermənistanda verilən qıcıqlı reaksiya ölkənin ekspert dairələrində narahatlıq yaradıb. Erməni şərhçilər narahatdırlar ki, bu reaksiya iki ölkə arasında həssas münasibətləri "Azərbaycanın xeyrinə poza bilər".

**Odur ki, gürcü nümayəndə heyəti üzvlərinin Qarabağa dair qətnamə layihəsinin dəstəklənməsinə yox, erməni diplomatiyasının fiasko olmasına diqqət yönəltməyi, gərginliyi artırmamağı zəruri sayırlar.** Məsələn, bu xüsusda erməni analitiklərdən biri - Akop Badalyan yazıb:




"Ukrayna və Gürcüstanın AŞPA-da səs verməsi ümummilli problemə çevrilib. Gerçəkdə isə bu səsvermə ətrafında yaradılan hay-küy Ermənistanın maraqlarına və təhlükəsizliyinə səsvermənin özündən daha çox ziyan vura bilər. Uzun illər Tiflislə İrəvan arasında belə səsvermələrə bağlı susqun anlaşma var idi. İrəvan və Tiflis hər bir tərəfin qərarının motivlərini anlayaraq, bu məsələni problemə çevirmirdilər.

**Ermənistan və Gürcüstan səsvermə ilə müqayisədə qat-qat vacib məsələləri müzakirə edə bilərdilər - hansı səsvermə ki, kimlərsə onunla bağlı izafi gərginlik yaratmağa çalışır.** Məhz bu gərginlik də Ermənistanın maraqlarına və təhlükəsizliyinə ziyan gətirə bilər. Ona görə yox ki, Gürcüstanın qisasından qorxmaq lazımdır. Sadəcə, prioritetləri qiymətləndirmək və anlamaq lazımdır ki, Gürcüstan və Ermənistan bir çox strateji məsələlərlə üzrə mühüm istiqamətlərdir və bunu AŞPA-da səsvermə məsələsinə görə təhlükə altına atmaq olmaz - hansı məsələnin kökündə ki, Gürcüstanın səsverməsi yox, Ermənistanın diplomatik uğursuzluğu dayanır. Bu mövzunu aktuallaşdırmağın hədəfi yalnız bir ola bilər - iki ölkə arasında münasibətlərdə gərginlik yaratmaq. Bu da Ermənistanın maraqları və təhlükəsizliyinə qarşı hərəkət eləmək deməkdir".

***

**Lakin erməni analitik rəngləri bir az tündləşdirir.** Çünki bütün hallarda Ermənistanla Gürcüstanın əlaqələri çox dərinə işləyə bilməz. Nədən ki, rəsmi Tiflis strateji münasibətlərdə olduğu və təhlükəsizlik baxımından xeyli dərəcədə asılı olduğu Azərbaycan və Türkiyənin maraqlarını ciddiyə almaq zorundadır. Bu da bir faktdır ki, gürcü dövlətinin əsas qarant faktoru elə onun Bakı və NATO üzvü Türkiyə ilə müttəfiqliyidir.

**Ayrı sözlə, Ermənistanla Gürcüstanın deyildiyi kimi, hansısa strateji istiqamətlər üzrə ortaq və yaxın olması istisnadır.** Ən azından bölgədə erməni və rus işğalının nəticələri aradan qalxmayınca, Ermənistan Rusiyanın siyasi-iqtisadi və hərbi girovluğundan çıxmayınca, nəhayət, Türkiyə, Azərbaycan və Gürcüstana qarşı o, əsassız ərazi iddialarından əl çəkməyincə, belə olacaq. Bunu İrəvanda da çox yaxşı bilirlər.

**Söz düşmüşkən, Ermənistanın Gürcüstana qarşı qeyri-dost münasibətinin bir təzahürü də ötən ili Ermənistan parlamentinin spikeri Qalust Saakyanın İrəvanda Cənubi Osetiyanın separatçı rejiminin başçısı Anatoli Bibilovla görüşməsi olmuşdu.** Erməni tərəf bunun qeyri-rəsmi görüş olduğunu iddia etsə də, olay o zaman iki ölkə arasında ciddi diplomatik qalmaqal yaratmış, Ermənistanın Gürcüstandakı səfiri Xarici İşlər Nazirliyinə çağırılaraq ona etiraz bildirilmişdi...

***

Əlavə edək ki, AŞPA-nın qış sessiyasında Ukrayna və Gürcüstanın da dəstəklədiyi Qarabağa dair qətnamə layihəsi cəmi 4 səs fərqli ilə keçməsə də, Sərsəng su anbarı ilə bağlı hazırlanmış sənəd qəbul olunub və ikinci sənəddə də Ermənistan birmənalı şəkildə işğalçı dövlət kimi göstərilib, Azərbaycan ərazilərinin mifik "DQR ordusu" tərəfindən deyil, məhz Ermənistan ordusu tərəfindən zəbt olunduğu qeyd edilib, üstəlik, bu qüvvələrin tezliklə ərazilərimizdən çıxarılması tələb edilib. Erməni tərəfi diplomatik fiasko deyəndə elə bunu nəzərdə tutur.

# "İkinci qətnamənin qəbulu Minsk Qrupunun sifətinə vurulan şillədir"

## Erməni deputat: "Sənəddə ziyanımıza olan dəqiq siyasi aksentlər var..."



**"Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyasında Militsa Markoviçin antierməni (Sərsəng su anbarı ilə bağlı-red.) məruzəsinin qəbulu ilk növbədə Minsk Qrupunu sifətinə vurulan şillədir". Musavat.com-un erməni qaynağına istinadən verdiyi məlumata görə, bu barədə İrəvanda keçirdiyi mətbuat konfransında "İrs" deputat fraksiyasının üzvü Ruben Akopyan deyib.**

O, Azərbaycan və Türkiyənin bu sənədlərin qəbulu üçün iki ildir işlədiyini xatırladıb. "Mən burada Minsk Qrupu həmsədrlərinin bəyanatını şişirtmək istəməzdim. Ancaq Markoviçin də məruzəsi keçməməli idi, çünki orada ziyanımıza olan dəqiq siyasi aksentlər var" - qeyd edib deputat.

Onun fikrincə, Ermənistan cavab məruzəsi hazırlayaraq, Markoviçin məruzəsini neytrallaşdırmağa çalışmalıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 22 (6343) 30 yanvar 2016

# Bakıda ana və oğulu çəkiclə vura-vura öldürüblər

**Bakıda ana və oğlunu qətlə yetirən şəxs həbs olunub. Musavat.com xəbər verir ki, bununla bağlı Bakı şəhər Baş Polis İdarəsi və Bakı Şəhər Prokurorluğu birgə məlumat yayıb. Məlumata görə, prokurorluq və daxili işlər orqanları əməkdaşlarının birgə həyata keçirdikləri təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində paytaxtın Nərimanov rayonu ərazisində qeyri-aşkar şəraitdə törədilən qətlin üstü açılıb.**



Belə ki, yanvarın 19-da saat 03 radələrində 1949-cu il təvəllüdlü Janna Məhərrəmova və oğlu 1982-ci il təvəllüdlü Aleksandr Məhərrəmovun yaşadıqları mənzildə üzərində zorakılıq əlamətləri olan meyitlərinin aşkar edilməsi faktına görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.7-ci *(iki və ya daha çox şəxsi qəsdənöldürmə)* maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib.

Həyata keçirilən təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində cinayətin Bakı şəhər sakini, əvvəllər Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə məhkum olunmuş, 1977-ci il təvəllüdlü Ruhin Allahverdiyev tərəfindən törədilməsinə kifayət qədər əsaslı şübhələr yarandığından o, tutularaq istintaqa cəlb olunub.

İstintaqla müəyyən edilib ki, yanvarın 17-də R.Allahverdiyev əvvəlcədən aralarında olan razılaşmaya əsasən Janna və Aleksandr Məhərrəmovların mənzilində təmir işlərini davam etdirmək adı ilə gələrək özü ilə gətirdiyi çəkiclə sonuncuların baş nahiyələrinə çoxsaylı zərbələr endirib, onları qəsdən öldürüb. Daha sonra o, J.Məhərrəmovanın çantasından 20 manat, A.Məhərrəmovun portfelindən isə içərisində 200 manat olan pul kisəsini götürüb, mənzilin qapısını açarla bağlayaraq hadisə yerindən qaçıb.

İstintaq zamanı R.Allahverdiyev hadisə baş verən mənzilin açarını istintaqa təqdim edib.

**Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.**

# Avtobus daşlayan şagirdlər tənbeh edildi

## Onların valideynləri cərimələndi

**Xəbər verildiyi kimi, yanvarın 23-də saat 18.00 radələrində Nəsimi rayonu ərazisində - Azadlıq prospektində "Baku Bus" MMC-yə məxsus "İveco" markalı avtobusun şüşəsi sındırılıb.**

BŞBPİ-nin mətbuat xidmətindən verilən məlumata görə, Nəsimi Rayon Polis İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törədənlərin paytaxtdakı 132 saylı orta məktəbin 2 şagirdi olması müəyyən edilmiş və vurulmuş ziyanın azyaşlıların valideynləri tərəfindən ödətdirilməsi təmin olunub. Həmçinin övladlarına lazımi nəzarət etmədiklərinə görə onların haqqında müvafiq tədbir görülüb.

# Qubada evlərdən oğurluq edən dəstə üzvləri tutulub

**Qubada evlərdən oğurluq edən dəstə üzvləri tutulub. "Report" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin rəsmi saytı məlumat yayıb.**

Məlumata görə, Quba Rayon Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yanvarın 27-də rayon sakini Mübariz Paşayevin evindən 100 ABŞ dolları və geyim əşyaları oğurlayan Qusar şəhər sakinləri Emin Əmirbəyov, Ayaz Qurbanov və Fariz Əhmədxanov tutulub.

Ətraflarında aparılan əməliyyat tədbirləri ilə onların rayon sakinləri S.Nəcəfova, Z.Əmirxanovaya məxsus evlərdən oğurluğa cəhd göstərmələri, L.Abbasovanın, V.Abdullayevin evlərindən qızıl əşyalar və pul oğurlamaları, həmçinin E.Əmirbəyovun və A.Qurbanovun Quba şəhər sakini Qalib Sultanovla birgə həmyerliləri Ramiz Dəmirovun evindən sənəd və ətir oğurlanmaları da müəyyən edilib. Həyata keçirilən tədbirlərlə Q.Sultanov tutulub.

**Faktlarla bağlı araşdırma aparılır.**

# "Donuz qripi"nə görə 323 məktəb, 240 uşaq bağçası dezinfeksiya olunub

**"İndiyə kimi "donuz qripi" təhlükəsinə qarşı 323 məktəb və 240 uşaq bağçasında dezinfeksiya işləri aparılıb". Bunu APA-ya açıqlamasında Bakı Şəhər Dezinfeksiya Stansiyasının baş həkimi Akif Məmmədov deyib.**

O bildirib ki, dezinfeksiya işləri Bakı, Gəncə, Mingəçevir, Sumqayıt və Abşerondakı məktəb və bağçalarda aparılıb.

Baş həkim qeyd edib ki, məktəb və bağçalarda dezinfeksiya işləri bu həftənin sonunda başa çatdırılacaq.

# "Nar" məhdud fiziki imkanlı insanların məşğulluq probleminin həllinə yönəldilmiş layihəyə dəstək oldu

**"Nar" məhdud fiziki imkanlı insanlar üçün məsafədən, ştatdankənar (Freelancing) iş servisinin yaradılmasına dəstək verməklə daha bir əhəmiyyətli sosial layihəyə start verdi. Əlillər üçün sərbəst iş imkanları xidmətini təmin edən DisabledFreelance.com internet saytı onların işlə təmin olunması probleminin həlli baxımından əhəmiyyətli addım sayılacaq bir layihədir.**

Gəlin birlikdə böyüyək

**Əlillərin işsizlik probleminin həllinə yönəldilmiş layihənin iş prinsipi fiziki aktivlik tələb edən işlərdə çalışmaq imkanından məhrum olmuş əlillərin öz mənzillərini tərk etmədən DisabledFreelance.com servisi vasitəsilə məsafədən "sərbəst işçi" (Freelancer) qismində çalışa bilmələrindən ibarətdir. Sərbəst iş xidmətində calışan əlillər həm fərdi şəxslərin, həm də ən müxtəlif kommersiya strukturlarının və təşkilatların sifarişlərini yerinə yetirə bilərlər. Layihə sayəsində minlərlə əlilin işlə təmin edilməsinə dəstək olaraq onların sosial durumunun əhəmiyyətli dərəcədə yaxşılaşmasına nail olmaq mümkündür.**

**Korporativ sosial məsuliyyət prinsiplərinə sadiq qalan "Nar" bu beynəlxalq layihəyə dəstək verməklə daha bir xeyriyyə təşəbbüsü ilə çıxış etdi. DisabledFreelance.com layihəsinin tərəfdaşı olan "Nar" artıq bir neçə ildir ki, bənzər layihələri dəstəkləməklə əlillərin, fiziki imkanları məhdud olan vətəndaşların işlə təmin edilməsi istiqamətində fəaliyyətini davam etdirir. Bundan öncə fiziki imkanları məhdud insanlar üçün xüsusi olaraq hazırlanmış kompüterdən istifadə video-kursları təqdim edən mobil operator nitq və eşitmə qabiliyyəti məhdud şəxslərin cəmiyyətə qazandırılması istiqamətində müxtəlif addımlar atmışdı.**

**"Nar" korporativ sosial məsuliyyət strategiyası haqqında ətraflı məlumatı www.nar.az saytından öyrənə bilərsiniz.**

# Qohumlarını öldürən türkiyəli Azərbaycana qaçmaq istədi

**Türkiyədə baldızını və qayınatasını öldürən şəxsi polis yaxalayıb. BAKU.WS-in məlumatına görə, Türkiyə polisinin keçirdiyi əməliyyat zamanı Hüseyin Ç. iki nəfəri öldürməkdə və bir nəfəri yaralamaqda günahkar bilinib. Onu bərbərxanada yaxalayıblar.**

Araşdırmalar zamanı məlum olub ki, Hüseyin Ç. həyat yoldaşı Dilek K.-dən bir neçə ay bundan əvvəl ayrılıb. Bir neçə dəfə arvadı ilə barışmaq istəsə də, qayınatası buna mane olmayıb. O, qisas almaq üçün qayınatasının evinə gedib. Gecə saatlarında evə eyvandan girib. Qayınatası 61 yaşlı Bayram və baldızı 16 yaşlı Həcəri öldürüb. Hadisə yerindən qaçmaq istəyərkən bacanağı onu yaxalayıb. Bu zaman Hüseyin Ç. bacanağı Aziz Karayı da güllələyib.

Sonradan görkəmini dəyişmək üçün bərbərxanaya gedib. Orada polisə yaxalanıb. Verdiyi ifadədə bildirib ki, əslində arvadını və qayınatasını öldürmək istəyib. Lakin qaranlıq olduğu üçün səhvən baldızını vurub. Bacanağını isə ona mane olduğu üçün vurduğunu deyib.

**Cinayəti törədəndən sonra Hüseyin Ç. görkəmini dəyişib Azərbaycana qaçmaq istədiyini bildirib. O, Azərbaycanda yaxın qohumlarının yanına gələcəkmiş.**

# Masazırda 23 yaşlı oğlan sevgilisini bıçaqladı

**Abşeronda bıçaqlanma hadisəsi baş verib. Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, hadisə Masazır qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 1993-cü il təvəllüdlü Şamil Məhərli qeyri-rəsmi nikahda olduğu 1992-ci il təvəllüdlü Aysel Fətəliyevanı bıçaqlayıb. A. Fətəliyeva xəstəxanaya yerləşdirilib. Hadisəni törədən Ş. Məhərli tutulub, faktla bağlı araşdırma aparılır.**

# Naxçıvanda 86 yaşlı qadın qətlə yetirilib

**Naxçıvanda qətl törədilib. Hüquq-mühafizə orqanlarından APA-ya verilən məlumata görə, hadisə Kəngərli rayonunun Şahtaxtı kəndində qeydə alınıb. Kənd sakini, 1930-cu il təvəllüdlü Xavər Məmməd qızı Səfərovanın küt alətlə qətlə yetirilmiş meyiti yaşadığı evdə aşkar edilib.**

Qətlin tamah məqsədi ilə törədildiyi ehtimal olunur. Baş vermiş hadisə ilə bağlı polis və prokurorluq əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb. Hazırda qətli törədən şəxsin müəyyən edilərək tutulması istiqamətində əməliyyat tədbirləri davam etdirilir.

**Faktla bağlı cinayət işi başlanıb, istintaq gedir.**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarıın dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Nərimanov Rayon Məhkəməsinin həyətində *(Montində)* 2 maşınlıq daş qaraj satılır

Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuzdur. Sənədi var.

**Telefon: (050) 264-49-99**

**Ölkədə fəaliyyət göstərən ən böyük apteklər şəbəkələrindən biri olan “Avis” Tibbi Marketlərin direktoru həbs edilib. Elmir Məhərov yanvarın 28-də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən həbs edilib.**




# “Avis”in direktoru süni qiymət artımına görə həbs edilib

## Apteklər şəbəkəsinin şöbələri isə işləyir

Bu barədə məlumatı ilk olaraq musavat.com saytı yayıb. Direktoru həbs edilən marketlər şəbəkəsinin Azərbaycanda 10 şöbəsi fəaliyyət göstərir. Şəbəkənin Ağa Nemətulla, 45 ünvanındakı (Nəriman Nərimanov metrostansiyasının çıxışında) şöbəsi direktor həbs edilən gündən bağlanıb. Direktorun bu şöbədə keçirilən əməliyyat zamanı həbs edildiyi bildirilir.

“Avis”in digər şöbələri isə fəaliyyətini davam etdirir. Musavat.com-un əməkdaşları “Avis”in Xətai, Yasamal və Badamdardakı şöbələrində olub. Şöbələrdə çalışan əməkdaşlar bildiriblər ki, keçirilən əməliyyatdan xəbərdar olsalar da onların işləməsinə heç bir qadağa qoyulmayıb. Nərimanov şöbəsi bağlansa da digər şöbələr normal günlərdəki kimi fəaliyyətlərini davam etdirirlər. E.Məhərrəmovun həbs edilməsi ilə bağlı məlumat əldə etmək üçün “Avis”in Badamdar şosesi 5 ünvanında yerləşən baş ofisinə yollandıq. “Avis”in rəsmi saytında baş ofisin ünvanı bura göstərilsə də aptekdə çalışan əməkdaşlar bildirdilər ki, burada heç kim yoxdur. Baş ofisin Nərimanovda yerləşdiyini deyən aptek işçiləri həmin şöbənin də bağlı olduğunu və əlavə suallara cavab verə bilməyəcəklərini dedilər.

Əlavə məlumat öyrənmək üçün, saytda göstərilən əlaqə telefonlarına zəng etdik. Zəngimizə cavab verən müştəri xidmətlərinin əməkdaşı bildirdi ki, yayılan məlumatlar doğru deyil. Xanım əməkdaş Nərminaov şöbəsinin mal sayımına görə bağlandığını, direktorlarının isə həbs edilmədiyini iddia etdi.

Məlumata görə, əməliyyat zamanı direktordan başqa saxlanılanlar olub. Bir neçə aptek nümayəndəsi də ifadəsinin alınmması üçün aparılıb.

Qeyd edək ki, “Avis” Tibbi Marketlər şəbəkəsi Azərbaycanda fəaliyyətə 1998-ci ildən başlayıb. Həmin ilin yanvarında şəbəkənin ilk şöbəsi olan “İstanbul” apteki fəaliyyətə başlayıb. Ötən 8 il ərzində şirkət Bakıda 10 aptek açıb. 2006-cı il mart ayından Azərbaycanda ilk “Tibbi Market” konseptli xidmət göstərilməsinə başlanılıb. Bütün şöbələr “Avis” Tibbi Marketlər kimi adlandırılıb.




“Bakı şəhərində fəaliyyət göstərən ”AVİS" aptekində dərman vasitələrinin qiymətinin süni surətdə artırılması barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş vətəndaş müraciəti əsasında Səhiyyə Nazirliyinin Analitik-Ekspertiza Mərkəzi və İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti ilə birgə istintaq-əməliyyat tədbirləri həyata keçirilib".

Baş Prokurorluğun mətbuat xidmətindən APA-ya verilən məlumata görə, aparılmış istintaq-əməliyyat tədbirləri ilə “Maymed” MMC-nin nəzdində fəaliyyət göstərən Bakı şəhəri, Ağa Nemətulla küçəsi, 45 saylı ünvanda yerləşən AVİS aptekində bir qutusunun qiyməti 326 manat olan “Pegintron 80" adlı dərman vasitəsinin qiymətini süni şəkildə bahalaşdırılaraq 1220 manata satılması, eləcə də gömrük bəyannaməsi olmadan qeyri-qanuni yollarla ölkəyə gətirilmiş dərman vasitələrinin qanunsuz satılması müəyyən edilib.

“Maymed” MMC-nin Bakı şəhəri, Nərimanov rayonu, O.Əliyev küçəsi, 9 saylı ünvanda yerləşən anbarına baxış zamanı idxal üçün rəsmi icazəsi olmayan və dərman vasitələrinin ekspertizasına dair uyğunluq sənədi verilməyən ilkin olaraq müəyyən edilmiş 104 adda dərman vasitələri, habelə açıq satışı qadağan edilmiş dərman vasitələri, qara mühasibatlığın aparılmasına dair kitablar və istintaq üçün əhəmiyyət kəsb edən digər qeydlər aşkar edilərək götürülüb. Bundan başqa, Səhiyyə Nazirliyinin Analitik-Ekspertiza Mərkəzinin əməkdaşları ilə birgə baxış zamanı “Maymed” MMC-nin Bakı şəhəri, Badamdar şossesi, 5 saylı ünvanda yerləşən “AVİS Badamdar” şöbəsində, Bakı şəhəri, Yasamal rayonu, H.Cavid prospekti ev Q, məhəllə 556/567 ünvanında yerləşən “AVİS İstanbul” şöbəsində, Bakı şəhəri, Yasamal rayonu, H.Zərdabi prospekti, 89 saylı ünvanda yerləşən “AVİS Tusi” şöbəsində dövlət qeydiyyatına alınmayan çoxsaylı dərman vasitələri aşkar edilib.

“Maymed” MMC-nin direktoru Elmir Məhərov vəzifə səlahiyyətlərindən sui-istifadə edilməklə, özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə dərman vasitələrinin qiymətini süni şəkildə dəfələrlə qaldıraraq həmin dərman vasitəsinin ölkə ərazisində süni bahalaşmasına səbəb olan hərəkətləri ilə dövlətin bu sahədə apardığı tədbirlər üzrə onun nüfuzuna xələl gətirməklə, fiziki və hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, həmçinin dövlətin qanunla qorunan mənafelərinə ağır nəticələrə səbəb olan mühüm zərər vurmasına şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 200.1 (istehlakçıları aldatma) maddələri ilə cinayət işi başlanıb. E. Məhərov Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 200.2.3-cü (külli miqdarda ziyan vurmaqla istehlakçıları aldatma) maddələri təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

**Hazırda cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri həyata keçirilməklə təqsirkar şəxslərin tam dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.**

❑ **İlkin MURADOV**



# Gürcüstandan mal-qara idxalı niyə qadağan olundu?

## Ət mafiyasının oyunu, yoxsa xəstəlik...

**Gürcüstandan Azərbaycana diri heyvan və heyvan mənşəli məhsulların idxalı rəsmən müvəqqəti qadağan edilib. Buna səbəb qonşu ölkədə xırda və iribuynuzlu mal-qara arasında göydil virusunun yayılması göstərilir.**

Qeyd edək ki, məlumat Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarət Xidmətindən verilib. Qurum bununla bağlı Ümumdünya Heyvan Sağlamlığı Təşkilatından rəsmi məlumatın daxil olmasını gözləyir. Bu məlumat daxil olduqdan sonra Dövlət Baytar Müfəttişinin əmri ilə Gürcüstandan diri heyvan və heyvan mənşəli məhsulların idxalına rəsmən müvəqqəti qadağa qoyulacaq və bununla bağlı Azərbaycanın müvafiq dövlət qurumları məlumatlandırılacaq.

Mətbuatda yayılan bu məlumat əhali tərəfindən birmənalı qarşılanmayıb. Bəziləri bunun yerli ət monopoliyasının başında duran oliqarxların oyunu kimi qiymətləndirib. Belə ki, ölkədə yüksək rütbəli məmurların ət biznesində iştirak etməsi, özlərinin mal-qara sürülərinin olması sirr deyil.

Məsələyə aydınlıq gətirmək üçün **Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinin mətbuat xidmətinin rəhbəri Yolçu Xanvəli** ilə əlaqə saxladır. Y.Xanvəli “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, məsələ ilə əlaqədar hazırda müzakirələr gedir, qadağa ilə bağlı qərar verilməyib: “Gözlənilir ki, beynəlxalq bürodan məlumat daxil olsun. Bizim mütəxəssislər onu müzakirə etdikdən sonra qərar verə bilər. Ancaq Gürcüstanda heyvanlarda göydil xəstəliyi var, bu xırdabuynuzlu heyvanlarda qara isitmə ilə müşahidə olunur. Bu xəstəlik Gürcüstanda, Tiflis yaxınlığında 4 məntəqədə qeydə alınıb. Lakin bu barədə hələ ki rəsmi məlumat verilməyib. Rəsmi məlumat olandan sonra bu məsələlər bizim mütəxəssislərimiz tərəfindən araşdırılacaq və müəyyən qərar qəbul ediləcək. Gürcüstandan bizə gətirilən mal-qara elə də çox deyil, cəmi bir faizdir. Əsasən diri formada qoyunlar gətirilir. Sonuncu dəfə yanvar ayından əvvəl Gürcüstandan heyvan idxal olunub. Bizdə bu məlumat öncədən olduğu üçün yanvar ayında bu ölkədən heyvan idxalını dayandırmışıq. Yanvarın 1-dən heç bir məhsul almamışıq. Əgər gətirilərsə, həmin heyvanlar bir müddət karantində saxlanılır, daha sonra müxtəlif xəstəliklərə görə vaksinasiya olunur, daha sonra sahibinə təqdim edilir”.

Məsələyə münasibət bildirən **Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** isə bildirdi ki, belə bir xəstəlik varsa, idxalın dayandırılması normal bir addımdır: “Azərbaycan ekspertizası, dünya ekspertizasının arxasınca sürünür. Mən bu yaşına qədər görməmişəm ki, Azərbaycanda hansısa xəstəlik müəyyən edilə və başqa ölkələrə də xəbər verilə ki, belə bir xəstəlik var. Əlbəttə, Baytarlıq Komitəsi başqa ölkələrdən, xüsusən beynəlxalq qurumlardan məlumat alır və bu əsasla qadağa qoyur. Bu da müsbət bir haldır. Həmçinin ölkə daxilində də ciddi yoxlamalar getməli, axtarışlar aparılmalıdır. Gömrükdə də yoxlamalar gücləndirilməlidir ki, sağlam heyvanlar ölkəyə buraxılsın. Əks halda ölkədə ət defisiti ola bilər. Azərbaycanda ətin qiyməti yuxarıdır ki, bu da əhalinin narazılığına səbəb olur. Mən təklif edirəm ki, ətə qoyulan gömrük rüsumları götürülsün ki, ətin qiyməti ucuzlaşsın”.

**E.Hüseynov belə xəstəlik xəbərlərinin ət mafiyasının oyunu olması ehtimalını da istisna etmədi:** “Ümumiyyətlə MDB məkanında belə oyunlar çox olur. Yəni inhisarçı qurumlar dövlət orqanları ilə əlaqəyə girir. Bu praktika var və MDB məkanında geniş yayılıb. Bu cür hallar istisna olunmur. Hazırda ölkə başçısı əhalinin sosial müdafiəsinə doğru yönəlmiş müəyyən işlər görür və yerli istehsalı artırmaq istəyir. Ət məsələsində də elə iş aparmaq lazımdır ki, bazarda bolluq olsun”.

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT

Son səhifə

N 22 (6343) 30 yanvar 2016

# 304 metrdən düşdü ölmədi

Amerikalı sərbəst xizəkçi Angel Collinson Alyaska Dağındakı 304 metr yüksəklikdən aşağı düşüb. Möcüzəvi şəkildə həyatda qala bilən Angelin sadəcə, iki barmağı zədələnib. Alyaskanın ən yüksək dağlarından olan Neacolanın yamacından düşən qadın kamera ilə enərkən ayağı büdrəyib və yıxılıb. Bir neçə dəqiqə yüksəkdən aşağıya doğru sürüklənən qadın boynunu və başını qoruyub. Xizəkçi şanslı olduğunu deyir.




## Depressiyaya qarşı qəhvə



Qəhvənin depressiyadan qoruduğunu bilirdinizmi? Son dövr insanlar arasında depressiv hallar artmaqdadır. Ciddi iş rejimi, məktəb, hərəkətsizlik, işsizlik, kompüter qarşısında daha çox vaxt keçirmə, stress və yaxşı qidalanmamaq kimi faktorlar bizi dövrümüzün xəstəliyi olan depressiyaya məruz qoyur.

Depressiyadan qorunmaq üçün həyat keyfiyyətini artırmaq, nizamlı olaraq idman etmək və diqqətli qidalanmaq olduqca vacibdir. Son illərdə aparılmış araşdırmalara görə, gündə təxminən 4 fincan qəhvə içənlər heç içməyənlərə nisbətən 15% daha az depressiyaya düşür. Tədqiqatçılar qəhvənin xoşbəxtlik vermə səbəbini içindəki antioksidantlarla əlaqələndirirlər.

Qəhvənin ətri sakitləşdirici və rahatlıqverici xüsusiyyətə malikdir. Siçovullar üzərində aparılan təcrübələrin birində bəlli olub ki, az yatdıqları üçün stressə girən siçovullar qəhvənin ətrini duyduqları zaman beyinlərində bu stresslə əlaqəli yaranan zülalda da dəyişiklik əmələ gəlib. Bəzən qəhvənin ətri belə insanları xoşbəxt etməyə kifayət edir. Gündə təxminən 2-3 fincan qəhvə içməklə qəhvənin bütün sağlam tərəflərindən faydalana bilərsiniz. Türk qəhvəsi, hazır toz qəhvələr, qısası, hər növ qəhvədən istifadə eləmək olar. Çəkiyə nəzarət üçün qəhvəni şəkərsiz içməlisiniz. Qəhvənizə süd əlavə edərək içə bilərsiniz.

# Pişik olduğuna inanan qadın

Nano adlı norveçli qadın dünyaya insan olaraq gəlməsinin bir xəta olduğunu deyir və özünün insan bədəninə həbs edilmiş bir pişik olduğuna inanır. 20 yaşlı norveçli qadın içində bir pişik yaşadığını və dünyaya yanlış şəkildə gəldiyini iddia edir.

Nano 16 yaşında pişik olduğunu hiss edib. O, qoxu qabiliyyətinin çox güclü olduğunu və qaranlıqda daha yaxşı gördüyünü dilə gətirib. Norveçli qadın ən yaxın dostu olan Svien ilə pişik dilində mırıldayaraq danışır. Psixoloqlar gənc qadının bu vəziyyətdən xilas ola biləcəklərini düşünsələr də, Nano həyatına belə davam etmək istəyir. Onun 122 min dəfədən çox izlənmiş videosunda asanlıqla siçan ovlaya bildiyi və suya nifrət etdiyi görünür. Gənc qız qatar stansiyasında gəzərkən normal bir insanın eşidə bilməyəcəyi səsləri eşitdiyini də deyib. Nanonun sözlərinə görə, o, küçədə it gördüyü zaman stressə düşür, əlləri ilə üzünü təmizləyir, əlləri və ayaqları üzərində yeriyir.





## Yeni Barbilər: kök, balaca, fərqli gözlər, saçlar...

Dünyanın ən məşhur oyuncağı "Barbie" artıq yalnız bir cür bədənə malik olmayacaq. Barbie kuklalarını istehsal edən Mattel firması balıq ətli, balaca boylu və uzun olmaq üzrə fərqli ölçülərə sahib yeni model gəlinciklər hazırlayacaq. Yeni Barbilərin dərisinin, gözlərinin və saçlarının rəngi fərqli olacaq. Barbie kuklalarının qeyri-adi bədən forması normal insanların bədənlərinə uyğun olmadığı üçün uzun müddətdir mənfi reaksiyalara səbəb olur. Şirkət rəhbərliyi yeni modellərlə gerçəkləri göstərmək istədiyini bildirib.

Ötən il də fərqli dəri və saç rənginə sahib 23 yeni model çıxarılıb. Mart ayında satışa çıxarılacaq Barbie kolleksiyası belə olacaq: 33 yeni kukla, 30 saç rəngi, 24 saç modeli, 22 göz rəngi, 14 üz forması, 7 dəri rəngi, 4 bədən tipi.




QOÇ - olar ki, bu təqvimi bütünlüklə istirahətə həsr edəsiniz. Çünki fəaliyyət zəminində istədiyiniz manevrləri edə bilməyəcəksiniz. Axşama yaxın müqəddəs yerlərə gedin.

BUĞA - Dostluq münasibətində olduğunuz şəxslərlə aranızda soyuqluq baş verə bilər. Bunu nəzərə alıb şit zarafatlara, yalançı vədlərə yol verməyin. Saat 17-dən sonra maraqlı qonaqlıq sizi gözləyir.

ƏKİZLƏR - Maddi problemlərinizin qismən də olsa, qaydasına düşəcəyi gözlənilir. Lakin ünsiyyətdə olduğunuz şəxslərlə ehtiyatlı davranın. Əks halda, özünüzə qarşı inamı itirə bilərsiniz.

XƏRÇƏNG - Olduqca uğurlu bir gündür. Ətrafınızda olanların hamısı sizi sevindirəcək. Günün birinci yarısında təzə xəbərlər eşidəcəksiniz. Bu gün şəxsi büdcənizdə artım da labüddür.

ŞİR - Hansısa aktiv duruma yetişəcəyinizi düşünməyin. Çünki ünsiyyətdə olduğunuz insanlar bu gün real gücə malik olmayacaqlar. Buna baxmayaraq, maddi durumunuzda irəliləyiş ola bilər.

QIZ - Ay ərzində topladığınız yorğunluğu dəf etmək üçün daha çox istirahət etməyiniz məsləhətdir. Yeni iş təkliflərinə razılıq verməyə və uzaq səfərə çıxmağa tələsməyin. Qidanıza fikir verin.

TƏRƏZİ - Dünəndən mənfi yüklü Ay bürcünüzdə olduğu üçün neytral mövqedə dayanıb ciddi işlərinizi bütünlüklə təxirə salmalısınız. Heç kimə vəd verməyin. Gün ərzində sağlamlığınıza da diqqət yetirin.Yaxşı

ƏQRƏB - Pulla bağlı müəyyən irəliləyişləriniz gözlənilsə də, soyuğa qarşı tədbirli olmalısınız. Yaxşı olar ki, vaxtınızı daha çox ev şəraitində keçirəsiniz. Bələd olmadığınız şəxslərin vədlərinə aldanmayın.

OXATAN- Sağlamlığınızla bağlı müəyyən çətinliklərin olacağını bəyan edən ulduzlar özünüzə diqqət yetirməyinizi məsləhət görür. Nahardan sonra qayğınıza qalanların yanında olun, uzaq yola çıxmayın.

OĞLAQ - Planetiniz olan Saturnun "hakimiyyətdə" olması şəxsi işlərinizdə müsbət dönüşə təkan verməkdədir. Odur ki, aktivlik nümayiş etdirməli, işgüzar əlaqələrinizi dərinləşdirməlisiniz.

SUTÖKƏN - Bürcünüzün bu ərəfəsində bir qayda olaraq ovqatınız xoş olur. Əsəblərinizi pozan hansısa hadisə baş vermir. Bu səbəbdən də nəzərdə tutduğunuz işləri arxayın görə bilərsiniz.

BALIQLAR - Gələn ay görəcəyiniz işlər üçün mütləq danışıqlar aparmalısınız. Bu məsələyə laqeyd yanaşsanız, planlarınız pozula bilər. Uzaqda yaşayan doğmalarınızla əlaqə saxlayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Su altında özünü vurdu



Hovuzun içində özünü başından vuran alman fizik yaxın məsafədə olsa belə güllədən təsirlənməyib. Alman fizik Vahl suyun altında silahların işləmədiyini isbat edən bir təcrübə üçün özünü qurban seçib. Belə ki, hovuzun içində, suyun altında ikən silahının tətiyinə basan Vahl, çox yaxın məsafədən özünü güllələsə də, heç bir zədə almayıb. Silahdan atəş açılmasına baxmayaraq güllə hovuzun dibinə enib. Beləliklə, güllə təsirsiz ötüşüb və alman fizik silahların suyun altında insana təsir etmədiyini sübut edib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300